RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 43 (10063) 6 mart 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Özlərini alçaq, nankorlar kimi aparmaq heç kimə şərəf gətirmir

## Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib

**Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.**



### Prezident İlham Əliyevin çıxışı

- Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir.

Birinci dəfə deyil ki, İran dövləti Azərbaycana və azərbaycanlılara qarşı terror aktları həyata keçirir. Hamımız yaxşı xatırlayırıq ki, bir müddət bundan əvvəl Azərbaycanın Tehrandakı səfirliyi terror aktına məruz qalmışdır. Səfirliyə hücum çəkmiş İran xüsusi xidmət orqanları tərəfindən təlimatlandırılmış şəxs Azərbaycan vətəndaşlarına qarşı qanlı terror aktı törədib. Bunun nəticəsində bir vətəndaş həlak olub, bir vətəndaş isə ağır yaralanıb. Onu da bildirməliyəm ki, Azərbaycanın xüsusi xidmət orqanlarının əliyalın nümayəndəsi avtomat "Kalaşnikov"la, "Molotov" kokteyli və balta ilə silahlanmış terrorçunu zərərsizləşdirib. O vaxt da bizdə şübhə yox idi ki, bunu törədən İran dövlətidir. Çünki bu terror aktı həm səfirliyin içində, həm səfirliyin ətrafında, təqribən 40 dəqiqəyə qədər davam edirdi. Bu 40 dəqiqə ərzində bir dənə də olsun nə təhlükəsizlik, nə polis nümayəndəsi səfirliyə yaxınlaşmayıb. Aydın məsələ idi ki, Azərbaycanı qorxutmaq, Azərbaycana qarşı çirkin əməllərini həyata keçirmək üçün bu terror aktı İranın dövlət qurumlarının ən rəhbər mərtəbələrindən sifariş edilmişdir. Bildiyiniz kimi, o vaxt Azərbaycan bu hadisəyə çox sərt reaksiya vermişdi, Azərbaycan səfirliyi İrandan təxliyə edilmişdi, bütün diplomatik əlaqələr dayandırılmışdı. İran tərəfi bizdən üzr istəməyə, öz günahını etiraf etməyə məcbur olmuşdu. O terror aktını törədənə bizim təkidimizlə ən ağır cəza da verilmişdi. Hətta uzun müddət bu cəzanı həyata keçirməyə maraq göstərməyən, hətta cinayətkarı xilas etməyə çalışan İran dövləti məcbur olub terrorçunu Azərbaycan nümayəndələrinin gözü qarşısında edam etmişdi. Bu dəfə də cavab eyni olacaq. Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin.

Dəfələrlə İran tərəfinə, xüsusilə keçən il baş vermiş toqquşmalardan sonra bildirilmişdir ki, Azərbaycan ərazisindən heç bir qonşu dövlətə qarşı istifadə olunmayacaq. Biz buna imkan verməyəcəyik, necə ki, heç vaxt bu günə qədər imkan verməmişik. Düzdür, keçən ilin yay aylarında və ondan sonrakı dövrdə İrandan bizə əsassız ittihamlar irəli sürülürdü. İranın dövlət qurumlarının nəzarətində olan media resursları Azərbaycanı ləkələmək, İranda yaşayan soydaşlarımızın fikrini dəyişdirmək üçün Azərbaycana qarşı çirkin, şər-böhtan kampaniyası aparırdı. Çünki yaxşı bilirlər ki, bu gün müstəqil Azərbaycan dövləti İranda yaşayan bir çox azərbaycanlılar üçün də ümid yeridir. Yəni bizi ləkələmək, bizi şərləmək, gözdən salmaq İran ictimaiyyəti qarşısında bu məqsədi güdürdü. Çünki bunun heç bir əsası yox idi. Azərbaycan nə o vaxt, nə də bu dəfə İrana qarşı olan əməliyyatlarda iştirak etmir və etməyəcək. Çünki bizim mövqeyimiz bundan ibarətdir. Bizim qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağımız var, nə də siyasətimiz buna imkan verir. Biz öz ərazi bütövlüyümüzü qoruyuruq və qorumuşuq. Necə ki, Ermənistan işğalına son qoymuşuq, istənilən şər qüvvəyə qarşı öz gücümüzü göstərməyə hazırıq və İranda bunu unutmasınlar. Onların törətdiyi bu terror aktı bütün başqa çirkin amillərlə yanaşı, böyük nankorluq nümunəsidir. Son hadisələr baş verən kimi biz onlara xəbər göndərdik, başsağlığı verdik. Xarici işlər naziri mənim göstərişimlə həmkarı ilə danışdı. Mən onların səfirliyinə gedib başsağlığı vermək üçün öz mövqeyimi bildirdim. Halbuki məndən başqa heç bir dövlət başçısı İranın heç bir səfirliyinə getməyib. Yəni bunu qiymətləndirməmək, bunu yerə vurmaq, özlərini alçaq, nankorlar kimi aparmaq heç kimə şərəf gətirmir. Bu şərəfsizlər, bizə qarşı bu terror aktını törədənlər peşman olacaqlar. Bizim gücümüzü sınamasınlar. Bizim gücümüzü sınamaq istəyənlərin başı "dəmir yumruq" vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək. Ona görə bu məsələ ilə bağlı tədbirlər planı hazırlanmalıdır. Bütün göstərişlər verilmişdir. İranın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırıldı, etiraz notası veriləcək, digər diplomatik addımlar atılacaq. Sərhədlə bağlı müvafiq göstərişlər verildi.

Onu da bildirməliyəm, bu gün səhər mənə məlumat verildi ki, İranın xarici işlər nazirinin müavini Bakıya zəng edir, xahiş edir ki, İran səfirliyinin Livanda qalmış əməkdaşlarının təxliyəsinə Azərbaycan kömək etsin. Çünki onların imkanı yoxdur. Mənə məruzə edildi. Mən dərhal göstəriş verdim ki, kömək göstərin, təyyarə göndərin. Hətta onlar dedilər ki, biz bunun pulunu da verməyə hazırıq. Dedim ki, lazım deyil, indi dar gündə biz kömək göstərməsək, bəs nə vaxt kömək göstərməliyik? Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək. Ona görə diplomatik yollarla bütün lazımi tədbirlər görüləcək. Bizim Silahlı Qüvvələrimiz - Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, digər bütün Xüsusi Təyinatlı Qüvvələr birnömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı keçirməyə hazır olmalıdırlar. Hələlik bu qədər.

Biz Azərbaycan xalqını proseslərin gedişatı ilə əlaqədar məlumatlandıracağıq. Müdafiə Nazirliyinin açıqlaması artıq mətbuatda dərc edilib. Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "dəmir yumruğ"umuzu görəcək.

# Dünya liderləri İlham Əliyevə zəng ediblər



**Martın 5-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Türkiyə Prezidenti İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına edilən dron hücumunu qınadığını deyib, qardaş Azərbaycan xalqına dəstəyini ifadə edib.

Dövlətimizin başçısı telefon zənginə və mövqeyinə görə Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirib.

❖ ❖ ❖



**Martın 5-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Şavkat Mirziyoyev İranın pilotsuz uçuş aparatları vasitəsilə Azərbaycana qarşı törətdiyi hücumları qətiyyətlə qınayıb, Özbəkistanın Azərbaycana tam dəstəyini ifadə edərək, ölkəsinin hər zaman Azərbaycanın yanında olduğunu vurğulayıb.

Prezident İlham Əliyev telefon zənginə və nümayiş etdirilən dəstəyə görə Özbəkistan Prezidentinə təşəkkürünü bildirib.

Dövlətimizin başçısı baş vermiş hadisə ilə bağlı məlumat verərək, hazırda vəziyyətin tam nəzarət altında olduğunu qeyd edib.

Telefon söhbəti əsnasında Azərbaycan ilə Özbəkistan arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin gələcək inkişaf perspektivləri müzakirə olunub.

Hər iki dövlət başçısı Azərbaycanın və Özbəkistanın bundan sonra da daim bir-birini dəstəkləyəcəyini bir daha təsdiq edib.

❖ ❖ ❖



**Martın 5-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti İran İslam Respublikasının pilotsuz uçuş aparatları ilə Azərbaycan ərazisinə hücumunu pisləyib, hadisə zamanı yaralananların tezliklə şəfa tapmasını diləyib.

Şeyx Məhəmməd bin Zayed Al Nəhyan İranın ölkəsinə raket hücumları zamanı dövlətimizin başçısı tərəfindən BƏƏ-yə göstərilən dəstəyə və bu hücumu qınayan mövqeyinə görə bir daha minnətdarlığını bildirib.

Dövlətimizin başçısı telefon zənginə görə Şeyx Məhəmməd bin Zayed Al Nəhyana təşəkkür edib.

Prezident İlham Əliyev İranın BƏƏ-yə raketlərlə və pilotsuz uçuş aparatları ilə hücumlarını bir daha pisləyib və fevralın 28-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə telefon danışığında qeyd etdiyi kimi, ölkəmizin BƏƏ-nin yanında olduğunu vurğulayıb.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖



**Martın 5-də Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı zamanı Latviya Prezidenti İran İslam Respublikasının pilotsuz uçuş aparatları ilə Azərbaycan ərazisinə törətdiyi hücumu qətiyyətlə pislədiyini bildirib. Edqars Rinkeviçs baş vermiş hadisə ilə bağlı Azərbaycan dövləti və xalqı ilə həmrəy olduğunu vurğulayıb, hücum nəticəsində yaralananların tezliklə şəfa tapmalarını diləyib.

Prezident İlham Əliyev telefon zənginə və nümayiş etdirilən mövqeyə görə Latviyanın dövlət başçısına təşəkkürünü bildirib. Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin cari vəziyyəti, gələcək təmaslar və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

***PREZİDENTİN MƏTBUAT XİDMƏTİ***

# Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "dəmir yumruğ"umuzu görəcək



## İrakli Kobaxidze İlham Əliyevə zəng edib

**Martın 5-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

İrakli Kobaxidze İran İslam Respublikasının pilotsuz uçuş aparatları ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumunu qətiyyətlə pisləyərək, Azərbaycan dövləti və xalqı ilə həmrəy olduqlarını vurğulayıb. Gürcüstanın Baş naziri hücum nəticəsində xəsarət alanların tezliklə sağalmalarını arzulayıb.

Prezident İlham Əliyev telefon zənginə və nümayiş etdirilən mövqeyə görə İrakli Kobaxidzeyə minnətdarlığını ifadə edib.

Telefon söhbəti əsnasında Azərbaycan-Gürcüstan ikitərəfli əməkdaşlığının perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan-İran dövlət sərhədindən yük avtomobillərinin hərəkəti dayandırılıb

Azərbaycan-İran dövlət sərhədindən yük avtomobillərinin hərəkətinin dayandırılması ilə bağlı qərar qəbul edilib. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Məlumat verildiyi kimi, martın 5-də Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən mülki infrastruktur hədəf alınmaqla pilotsuz uçuş aparatları ilə hücumlar həyata keçirilib.

Naxçıvan Muxtar Respublikasının Beynəlxalq Hava Limanı, məktəb və digər istiqamətlər İran tərəfindən atəşə məruz qalıb. Hücumlar nəticəsində bir neçə mülki şəxs xəsarət alıb, hava limanının terminal binasına ziyan dəyib.

Beynəlxalq hüququn norma və prinsiplərinə zidd olan bu hücumlar nəticəsində yaranmış mövcud vəziyyət nəzərə alınaraq, Azərbaycan-İran dövlət sərhədində bütün sərhəd-keçid məntəqələrindən yük avtomobillərinin hərəkətinin (o cümlədən tranzit məqsədilə yük avtomobillərinin hərəkətinin) müvəqqəti olaraq tam dayandırılması barədə Nazirlər Kabineti tərəfindən müvafiq qərar qəbul edilib.

# Prezident İlham Əliyevdən İrana tarixi dərs

### Bakının qətiyyəti və sərt mövqeyi Tehranın geri çəkilməsi ilə nəticələndi

İranın Naxçıvan istiqamətində pilotsuz uçuş aparatları ilə həyata keçirdiyi terror, sadəcə, hərbi təxribat deyil, həm də bölgədə uzun müddətdir saxlanılan həssas müvazinətin və dostluq bəyanatlarının darmadağın edilməsidir. Azərbaycanın müstəqil xarici kurs izləməsi və öz torpaqlarından heç bir ölkəyə, o cümlədən İrana qarşı istifadəyə icazə verməməsi rəsmi Bakının sərgilədiyi ali ləyaqət göstəricisidir.

Lakin İranın bu etibardan sui-istifadə edərək Naxçıvanı hədəf seçməsi regiondakı bütün mənəvi və siyasi bağları qoparan strateji yanlışlıqdır. Bu aqressiv həmlə Azərbaycanın dövlət müstəqilliyinə qarşı aşkar hədə olmaqla bərabər, illərlə gizli saxlanılan mənfur planların da üzə çıxması deməkdir. Təbii ki, dövlətimiz bu qədirbilməzliyi yaddaşından silməyəcək. Azərbaycan öz ərazisinin hər qarışını müdafiə etmək naminə istər diplomatiya müstəvisində, istərsə də döyüş meydanında ən kəskin və qətiyyətli addımları atmaq gücünə sahibdir.

Prezident İlham Əliyevin martın 5-də Təhlükəsizlik Şurasındakı çıxışı Azərbaycanın dövlət maraqlarının qorunmasında güzəştsiz olduğunu və milli qürur məsələlərində geri addım atmayacağını göstərən tarixi bir bəyanatdır. Dövlət başçısının hadisələrə verdiyi operativ və kəskin reaksiyası, Azərbaycanın öz suverenliyini qorumaq əzmini bütün dünyaya nümayiş etdirdi. Prezident bu mənfur hadisəni törədənləri sərt şəkildə qınadı və günahkarların cəzalandırılmasını, rəsmi Tehranın üzr istəməsini tələb etdi: "Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan



tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir".

Dövlət başçısı hadisəni birbaşa çirkin terror aktı adlandırmaqla məsələnin mahiyyətini beynəlxalq hüquq müstəvisinə çıxartdı. Tehranın Azərbaycandan rəsmi şəkildə üzr istəməsi tələbi ölkəmizin regional güc mərkəzi kimi özünə qarşı hörmətsizliyə dözməyəcəyinin nümayişidir. Bu, təkcə cinayətkarın deyil, həm də belə bir aktın arxasında duran siyasi iradənin məsuliyyət daşıdığını vurğulayan kəskin mövqedir.

İranın Azərbaycana qarşı dəfələrlə təxribatlara əl atdığını deyən Prezidentimiz 2023-cü il yanvarın 27-də Tehrandakı səfirliyimizə terror hücumunu və İranın teraktdan sonra sərgilədiyi ikiüzlü yanaşmanı yenidən xatırlatdı: "Birinci dəfə deyil ki, İran dövləti Azərbaycana və azərbaycanlılara qarşı terror aktları həyata keçirir. Hamımız yaxşı xatırlayırıq ki, bir müddət bundan əvvəl Azərbaycanın Tehrandakı səfirliyi terror aktına məruz qalmışdır".

Dövlətimizin başçısı 2023-cü ildə ölkəmizin səfirliyinə hücumu xatırlatmaqla İranın siyasətindəki sistemli xəyanəti ifşa etdi. "İkiüzlü yanaşma" ifadəsi İranın diplomatik ritorikası ilə real əməlləri arasındakı uçurumu göstərir. Bu, həm də beynəlxalq birliyə verilən bir mesajdır: İran tərəfi etibarlı tərəfdaş deyil və törətdiyi əməllərə görə bəhanələrin arxasında gizlənə bilməz. Prezident terrorçunun edam edilməsi nümunəsini çəkməklə İranın yalnız güc dilindən anladığını və Azərbaycanın bu dili ən yüksək səviyyədə tətbiq etməyə hazır olduğunu xatırlatdı.

Prezidentimiz diqqətə çatdırdı ki, törədilən terror aktı böyük nankorluqdur: "Son hadisələr baş verən kimi biz onlara xəbər göndərdik, başsağlığı verdik. Xarici işlər naziri mənim göstərişimlə həmkarı ilə danışdı. Mən onların səfirliyinə gedib başsağlığı vermək üçün öz mövqeyimi bildirdim. Halbuki məndən başqa heç bir dövlət başçısı İranın heç bir səfirliyinə getməyib. Yəni bunu qiymətləndirməmək, bunu yerə vurmaq, özlərini alçaq, nankorlar kimi aparmaq heç kimə şərəf gətirmir. Bu şərəfsizlər, bizə qarşı bu terror aktını törədənlər peşman olacaqlar. Bizim gücümüzü sınamasınlar. Bizim gücümüzü sınamaq istəyənlərin başı "dəmir yumruq" vasitəsilə yarıldı. Bugünkü hadisə də eyni nəticəni hasil edəcək". Ölkəmizin rəhbərinin "bizim gücümüzü sınamasınlar" xəbərdarlığı kulminasiya nöqtəsidir. Azərbaycan sülh tərəfdarıdır, lakin səbrimizi zəiflik kimi qiymətləndirənlərin aqibəti çox ağır olacaq.

Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasındakı kəskin çıxışı Tehranın "hədə-qorxu" siyasətini bir neçə saatın içində iflasa uğratdı. İran tərəfi əvvəlcə aqressiv və inkarçı mövqe nümayiş etdirsə də, Azərbaycanın Silahlı Qüvvələri tam hazır vəziyyətə gətirməsi və sərhədləri bağlaması vəziyyəti kökündən dəyişdi. Azərbaycanın geri addım atmayan mövqeyi qarşısında İran tərəfi ritorikasını yumşaltmağa məcbur oldu və məsələnin araşdırılacağı ilə bağlı bəyanatlar verməklə geri çəkilməsini nümayiş etdirdi. İranın xarici işlər naziri Seyid Abbas Əraqçi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vuraraq hadisənin araşdırılacağını dedi. C.Bayramov İran tərəfindən hücumla bağlı üzr istənilməsini, araşdırmaların nəticələrinə dair qısa müddət ərzində izahat verilməsini, bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri tədbirlər görülməsini gözlədiyimizi qarşı tərəfin diqqətinə çatdırdı. Bu zəng, sadəcə, diplomatik protokol deyil, rəsmi Tehranın Azərbaycanın iradəsi qarşısında aciz qaldığının etirafı idi.

Naxçıvana dron hücumundan sonra dünya liderləri də Prezident İlham Əliyevə telefon zəngləri edərək İranın çirkin hərəkətlərini sərt formada pislədilər. Bu hücum təkcə Azərbaycanın deyil, regionun təhlükəsizliyinə təhdid kimi qiymətləndirildi. Dünya liderlərinin telefon zəngləri Bakıya olan etimadın və İranın izolyasiyasının göstəricisidir. Eyni zamanda Azərbaycanın beynəlxalq arenada tam dəstəkləndiyinin, güclü mövqeyə və müttəfiqlərə sahib olduğunun təzahürüdür.

Bu hadisə sübut etdi ki, İranın təxribatçı addımları onu beynəlxalq aləmdə daha da tənha qoyur. Dünya birliyi Azərbaycanın suverenliyinə olan hücumu qlobal sabitliyə hücum kimi qəbul etdi. Nəticə etibarilə İranın geri çəkilməsi Azərbaycanın "dəmir yumruq" siyasətinin həm meydanda, həm də masada işlədiyini sübut etdi. Naxçıvana olan hücüm Tehran üçün strateji məğlubiyyətlə nəticələndi: onlar həm hərbi məqsədlərinə nail ola bilmədilər, həm də nüfuzlarını tamamilə itirdilər.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

## *Albaniyanın Baş naziri:* "Azərbaycanın güclü rəhbərliyi və qürurlu xalqı ilə həmrəyik"

Albaniyanın Baş naziri Edi Rama Azərbaycanın Naxçıvan bölgəsində mülki infrastruktura qarşı İran tərəfindən həyata keçirilən hücumu qəti şəkildə pisləyib.

AZƏRTAC-ın məlumatına görə, Baş nazir bu barədə "X" hesabında bildirib.

Edi Rama Azərbaycan ərazisinə edilən hücumu, mülki infrastrukturun hədəfə alınmasını və nəticədə insanların yaralanmasını İran tərəfindən qonşu ölkələrə qarşı növbəti ağır və qəbuledilməz aqressiya aktı adlandırıb.

Paylaşımında Azərbaycanı Albaniya üçün dəyərli dost və müttəfiq hesab edən Baş nazirin sözlərinə görə, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan inkişafı, rifahı və açıq əməkdaşlıq siyasəti ilə beynəlxalq arenada böyük hörmət qazanıb.

"Azərbaycan xalqı, eləcə də son günlər əsassız şəkildə hədəfə alınan digər ölkələrin xalqları yalnız hörmətə, təhlükəsizliyə və təhdidlərdən uzaq həyata layiqdir. Tehrandakı rejimin mülki əhalini qorxutmaq və regionda sabitliyi pozmaq cəhdləri qətiyyətlə pislənməli və bu rejimin beynəlxalq səviyyədə daha da təcrid edilməsinə səbəb olmalıdır", - deyə Edi Rama vurğulayıb.

Baş nazir əlavə edib ki, sabitliyə, beynəlxalq hüquqa və sülh şəraitində birgə yaşayışa inanan dövlətlər bu cür zorakılıq ixrac edən rejimdən açıq şəkildə uzaqlaşmalı və onu terrorçu dövlət kimi qiymətləndirməlidirlər.

Edi Rama həmçinin Albaniyanın Azərbaycanın güclü rəhbərliyi və qürurlu xalqı ilə həmrəy olduğunu vurğulayıb.

## *Baş Prokurorluq:* Naxçıvanda mülki infrastruktura dronla hücumla bağlı cinayət işi başlanıb

Martın 5-də İran İslam Respublikasının ərazisindən uzaqdan idarəolunan partlayan döyüş başlığı ilə təchiz edilmiş 2 ədəd pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının mülki infrastruktur obyektlərinə qarşı hücum həyata keçirilib.

İlkin istintaq hərəkətləri ilə müəyyən edilib ki, pilotsuz uçuş aparatlarından biri Naxçıvan Beynəlxalq Hava Limanının terminal binasına, digəri isə Babək rayonunun Şəkərabad kəndində yerləşən təhsil müəssisəsinin yaxınlığına düşüb.

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib.

Qeyd edilib ki, hadisə nəticəsində mülki infrastruktur obyektinə, yəni Naxçıvan Beynəlxalq Hava Limanının inzibati binasına və işinə əhəmiyyətli ziyan vurulub, eləcə də hava limanı xidmətlərinin işi qəsdən qanunsuz olaraq pozulduğundan Naxçıvan-Bakı istiqaməti üzrə 264 nömrəli reysi həyata keçirməli olan mülki hava gəmisi havada olarkən təhlükəsizlik məqsədilə Bakı şəhəri istiqamətində geri qayıtmağa məcbur olub.

Bundan başqa, hadisə nəticəsində dörd nəfər mülki şəxs:

Naxçıvan Hava Limanında xidmət aparan əməkdaşlar:

- 1986-cı il təvəllüdlü Vəliyeva Reyhanə Sabir qızı,
- 1996-cı il təvəllüdlü Zülfüqarlı Zülfüqar Məmməd oğlu,
- 1996-cı il təvəllüdlü Əsgərov Mehdi Mətləb oğlu və
- təyyarəyə minik gözləyən sərnişin 1998-ci il təvəllüdlü Cəfərov Əsəd Vidadi oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Zərərçəkmiş şəxslərə müvafiq tibbi yardımlar göstərilib, hazırda xəstəxanada həmin nəzarəti altında müalicələri davam etdirilir.

Faktla bağlı Azərbaycan Respublikasının baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq) və 270-1.3-cü (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər) maddələri ilə cinayət işi başlanaraq ibtidai araşdırmanın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə olunub.

Hazırda cinayət işi üzrə prokurorluq əməkdaşları tərəfindən aidiyyəti dövlət qurumları ilə birgə hadisə yerinə baxış keçirilib, maddi sübutlar toplanıb, zərərçəkmiş şəxslərin və şahidlərin ilkin ifadələri alınıb, eləcə də müvafiq ekspertizalar təyin edilməklə çoxsaylı istintaq hərəkətləri icra olunur.

Bundan başqa, PUA-ların mənşəyi və idarəetmə marşrutu üzrə texniki araşdırmalar da aparılır. İbtidai istintaq çərçivəsində beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycan Respublikasının ərazisinə qarşı həyata keçirilmiş bu hücumun bütün halları obyektiv, tam və hərtərəfli şəkildə araşdırılacaq, təqsirli şəxslərin qanunvericiliklə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri tədbirlərin icrası təmin olunacaq.

Baş Prokurorluq bildirir ki, mülki əhalinin və strateji infrastruktur obyektlərinin hədəf alınması beynəlxalq humanitar hüququn əsas prinsiplərinin kobud şəkildə pozulmasıdır.

Cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir və ictimaiyyətə əlavə məlumatların verilməsi təmin ediləcək.

## Azərbaycan və Türkiyə müdafiə nazirləri arasında telefon danışığı olub

Martın 5-də Türkiyə milli müdafiə naziri Yaşar Gülerin təşəbbüsü ilə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov arasında telefon danışığı olub.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, tərəflər arasında İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən İran ərazisindən pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan Beynəlxalq Hava Limanına və digər mülki infrastruktura hücum aktları müzakirə olunub.

Nazirlər həmçinin ölkələrimiz arasında əlaqələr, regiondakı vəziyyət və təhlükəsizlik məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

## Gürcüstanın müdafiə naziri Azərbaycanın müdafiə nazirinə zəng edib

Martın 5-də Gürcüstanın müdafiə naziri İrakli Çikovaninin təşəbbüsü ilə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla telefon danışığı olub.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyindən bildirilib.

Tərəflər ölkələrimiz arasında əlaqələr, regiondakı cari vəziyyət və təhlükəsizlik məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı həmçinin ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın inkişaf perspektivləri də müzakirə olunub.

## İranın pilotsuz uçuş aparatı Naxçıvanda orta məktəb binasını hədəfə alıb

Texniki vasitələrlə təsbit edilib ki, İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən dörd ədəd pilotsuz uçuş aparatı Azərbaycanın Naxçıvan bölgəsinə doğru hücum aktlarını törətmək üçün yönləndirilib, onlardan biri Azərbaycan Ordusu tərəfindən sıradan çıxarılıb, digərləri isə mülki infrastrukturu, o cümlədən dərs saatlarında orta məktəb binasını hədəfə alıb. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən bildirilib.



Məlumatda həmçinin qeyd olunub: "Orta məktəb binasını hədəfə alan pilotsuz uçuş aparatı xoşbəxtlikdən hədəfə yetişməyib, məktəbin yaxınlığında yerə çırpılaraq partlayıb".

## Naxçıvana edilmiş dron hücumları qonşuluq prinsiplərinə ziddir

"Bu gün İran İslam Respublikası ərazisindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Beynəlxalq Hava Limanının terminal binasına və Şəkərabad kəndində məktəb binasının yaxınlığına pilotsuz uçuş aparatlarının hücumları həyata keçirilib. Mülki obyektlərin hədəfləndiyi və mülki şəxslərin xəsarət alması ilə nəticələnən bu məqsədli hücumu şiddətlə qınayır və dünya ictimaiyyətini bu terror aktına münasibət bildirməyə çağırırıq".

AZƏRTAC xəbər verir ki, bu barədə insan hüquqları üzrə müvəkkilin - ombudsmanın bəyanatında bildirilir. Qeyd olunub ki, mülki əhali və infrastrukturların təhlükəsizliyinə yönəlmiş istənilən hücum beynəlxalq hüququn, beynəlxalq humanitar hüququn, xüsusilə Cenevrə Konvensiyalarının normalarının kobud pozuntusudur:

"Bu kimi qəsdlər dövlətlərin ərazi bütövlüyü və suverenliyi, eləcə də qonşuluq prinsiplərinə zidd olmaqla bir daha təkrarlanmamalıdır.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) olaraq vurğulamaq istərdim ki, mülki şəxslərin həyat və sağlamlığının qorunması bütün dövlətlərin üzərinə düşən fundamental öhdəliklərdəndir. Baş vermiş hadisənin tez bir zamanda beynəlxalq hüququn tələblərinə uyğun şəkildə hərtərəfli araşdırılması, məsələyə aydınlıq gətirilməsi, təqsirkar şəxslərin cəzalandırılması və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri tədbirlərin görülməsi vacibdir.

Dövlətlərin suveren hüquqlarına hörmət etmək, mülki əhali və obyektlərin qorunması BMT Nizamnaməsinə əsasən, hər bir üzv ölkənin əsas vəzifələrindən biridir".

# Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "dəmir yumruğ"umuzu görəcək

## Beynəlxalq ictimaiyyət İranın Azərbaycana dron hücumunu pisləyib

Martın 5-də Türkiyənin xarici işlər naziri Hakan Fidan Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı İran İslam Respublikası tərəfindən dünən Türkiyə istiqamətində raket hücumu, bu gün isə Azərbaycana edilən dron hücumu ilə bağlı qəti etiraz bildirilib. Bu kimi hücumların qəbuledilməz olduğu diqqətə çatdırılıb.

Bu hücumların beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğu və regionda gərginliyin artmasına xidmət etdiyi vurğulanıb.

Naxçıvana olan təyyarə reyslərinin təhlükəsizliyin təmin edilməsi məqsədilə, uçuşların müvəqqəti olaraq İğdır hava limanına təşkil olunacağı telefon danışığında qeyd olunub.

Telefon danışığı zamanı nazirlər iki ölkə arasında strateji müttəfiqlikdən irəli gələn əlaqələndirmə işlərinin davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

❖ ❖ ❖

Martın 5-də Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, telefon danışığı zamanı Pakistan tərəfi Azərbaycana edilən dron hücumu ilə bağlı dərin narahatlığını ifadə edib.

Bölgədə geniş eskalasiyaya səbəb ola biləcək bu kimi addımların qəbuledilməz olduğu diqqətə çatdırılıb.

Ceyhun Bayramov İran tərəfindən qısa müddət ərzində məsələyə aydınlıq gətirilməsini və müvafiq izahat verilməsini gözlədiyimizi vurğulayıb.

Həmçinin Azərbaycan və Pakistan arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Martın 5-də Qazaxıstanın xarici işlər naziri Yermek Koşerbayev Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən verilən məlumata görə, nazir C.Bayramov bu gün mülki infrastruktur və şəxslərə zərərlə müşayiət olunan İran İslam Respublikası tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı dronla həyata keçirilmiş hücumların suverenliyimizə və ərazi bütövlüyümüzə zidd olduğunu vurğulayıb.

İran İslam Respublikasından qeyd olunan məsələyə aydınlıq gətirilməsini, izahat verilməsini, üzrxahlıq edilməsini, bu kimi halların təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görülməsini tələb etdiyimiz Qazaxıstan tərəfinin diqqətinə çatdırılıb.

Qazaxıstan naziri bu hücumlardan dərin narahatlıq ifadə edib, vəziyyətin daha da gərginləşməyəcəyinə ümidvar olduğunu bildirib.

❖ ❖ ❖

Qırğız Respublikasının xarici işlər naziri Ceenbek Kulubayev Azərbaycan Respublikasının xarici işlər nazirinə zəng vurub.

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, telefon danışığı zamanı nazir Ceyhun Bayramov qarşı tərəfə İranın dron hücumları barədə ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan Respublikasının ərazisinə qarşı həyata keçirilmiş bu hücum beynəlxalq hüququn norma və prinsiplərinin



pozulmasıdır və regionda gərginliyin artmasına xidmət edir. İran tərəfindən üzr istənilməsinin, məsələyə dair izahat verilməsinin və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün tədbirlərin görülməsinin tələb olunduğu diqqətə çatdırılıb.

Qırğız naziri Azərbaycan Respublikasının ərazisinə qarşı dron hücumlarının narahatlıq doğurduğunu, ölkəmizlə həmrəy olduğunu bildirib. Bu kimi hücumların regionda gərginliyin daha da artmasına xidmət etdiyi vurğulanıb.

Yaxın Şərqdə mövcud vəziyyətin daha da gərginləşməsinin qarşısının alınması, diplomatik səylərin artırılması və bu çərçivədə beynəlxalq hüququn norma və prinsiplərinə hörmətin vacibliyi qeyd olunub.

Nazir Ceenbek Kulubayev İranda olan Qırğız vətəndaşlarının Azərbaycan Respublikasının ərazisindən tranzit keçidinə yaradılmış şəraitə görə ölkəmizə təşəkkür edib, operativ dəstəyin yüksək qiymətləndirildiyi bildirilib.

Telefon danışığı zamanı həmçinin qarşılılıq maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Martın 5-də İsrail Dövlətinin xarici işlər naziri Gideon Sa'ar Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, telefon danışığı zamanı regionda artan təhlükəsizlik riskləri, xüsusilə hərbi gərginlik və bunun regional sabitliyə təsirləri ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov martın 5-də İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı dron hücumları barədə həmkarına məlumat verib. Bu addımın ölkəmizin suverenliyinə və beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğu diqqətə çatdırılıb.

İsrail tərəfi bu hücumu pisləyib, onun qəbuledilməz olduğunu qeyd edib və ölkəmizlə həmrəy olduğunu bildirib.

❖ ❖ ❖

Səudiyyə Ərəbistanı Krallığı İranın Türkiyə Respublikasını və Azərbaycan Respublikasını hədəf almağa cəhd etməsini qətiyyətlə pisləyib və bunu kəskin şəkildə qınayıb.

Səudiyyə Ərəbistanı XİN bu cür cəhdləri beynəlxalq qanunlara və qəbul olunmuş beynəlxalq normalara zidd olan düşmənçilik davranışı adlandırıb. Nazirlik bəyanatında vurğulayıb ki, hər iki ölkəyə qarşı edilən bu qorxaq cəhdlər heç bir halda əsaslandırıla bilməyən düşmənçilik mövqeyini göstərir. Həmçinin bildirilib ki, İranın region ölkələrinə qarşı bu cür davranışları təkrarlaması gərginliyin daha da artmasına səbəb olur və regional təhlükəsizliyi və sabitliyi təhdid edir.

Bəyanatda həmçinin qeyd olunur ki, Krallıq hökuməti və xalqı Türkiyə və Azərbaycanla tam həmrəy olduğunu bir daha bildirib, hər iki ölkənin öz təhlükəsizliyini, hava məkanını, ərazi bütövlüyünü və vətəndaşlarını qorumaq hüququnu dəstəklədiyini bir daha vurğulayıb. Həmçinin regionda eskalasiyanın qarşısını almaq və təhlükəsizliyi və sabitliyi qorumaq üçün göstərilən səylər yüksək qiymətləndirilib.

❖ ❖ ❖

Küveyt Dövləti İranın Türkiyə Respublikasını və Azərbaycan Respublikasını hədəf almasını qətiyyətlə pisləyib və bunu sərt şəkildə qınayıb.

Küveyt XİN bu cür cəhdləri beynəlxalq qanunların və BMT nizamnaməsinin açıq şəkildə pozulması hesab edir.

Nazirlik, həmçinin Küveyt Dövlətinin Türkiyə Respublikası və Azərbaycan Respublikası ilə tam həmrəy olduğunu vurğulayıb və onların suverenliyini, təhlükəsizliyini və sabitliyini qorumaq üçün gördükləri bütün tədbirləri dəstəklədiyini bildirib.

❖ ❖ ❖

"Moldova Naxçıvan Muxtar Respublikasının mülki obyektlərini hədəf alan və iki mülki şəxsin yaralanması ilə nəticələnən hücumları qətiyyətlə pisləyir".

Bunu Moldovanın xarici işlər və inteqrasiya naziri Mixail Popşoy teleqram səhifəsində yazıb. "Moldova Azərbaycanla həmrəydir və onun suverenliyinə, ərazi bütövlüyünə dəstəyini bir daha təsdiqləyir", - deyə nazir əlavə edib.

❖ ❖ ❖

Martın 5-də Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili Azərbaycanın xarici işlər nazirinə zəng vurub.

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı nazirlər İranın ölkəmizə qarşı dron hücumları nəticəsində yaranmış vəziyyəti müzakirə ediblər.

Nazir Ceyhun Bayramov həmkarına martın 5-də İran tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisinə qarşı həyata keçirilmiş dron hücumları barədə məlumat verib.

Nəticədə Naxçıvan Muxtar Respublikasının hava limanının terminal binasına zərər dəyib, mülki şəxslər xəsarət alıb. Həmçinin dronlardan biri Şəkərabad kəndində məktəb binasının yaxınlığına düşüb.

Nazir Ceyhun Bayramov Azərbaycanın ərazisinə qarşı həyata keçirilmiş bu hücumun beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu və regionda gərginliyin artmasına xidmət etdiyini vurğulayıb.

Azərbaycan tərəfinin baş vermiş hücum ilə bağlı İran tərəfindən qısa müddət ərzində məsələyə aydınlıq gətirilməsini, müvafiq izahat verilməsini və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlərin görülməsini tələb etdiyi diqqətə çatdırılıb.

Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili baş vermiş hadisə ilə bağlı narahatlığını ifadə edib və regionda sabitliyin və təhlükəsizliyin qorunmasının vacibliyini qeyd edib.

Telefon danışığı zamanı tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

❖ ❖ ❖

İordaniya Haşimilər Krallığı Türkiyə və Azərbaycanın İran tərəfindən hədəfə alınmasını ən sərt ifadələrlə pisləyib.

İordaniya Xarici İşlər Nazirliyi bu hücumların hər iki dövlətin suverenliyini kobud şəkildə pozduğunu, eyni zamanda regionun təhlükəsizliyi və sabitliyini təhdid etdiyini, eləcə də təhlükəli eskalasiyaya yol açdığını bildirib.

Nazirlik həmçinin İordaniyanın Türkiyə və Azərbaycanla tam həmrəy olduğunu vurğulayıb, onların suverenliyini, təhlükəsizliyini və vətəndaşlarının qorunması istiqamətində gördükləri bütün tədbirləri dəstəklədiyini bildirib.

❖ ❖ ❖

İspaniya hökuməti İranın Türkiyə və Azərbaycana qarşı son hücumlarını kəskin şəkildə pisləyir.

İspaniya Xarici İşlər Nazirliyinin "X" səhifəsində bu barədə bildirilib.

Qeyd olunub ki, İranın mülki şəxsləri hədəf alan hücumları beynəlxalq hüquqa tamamilə ziddir. Ölkələrin suverenliyi və ərazi bütövlüyünün kobud şəkildə pozulması eskalasiya riskini artırır.

❖ ❖ ❖

Monteneqro İran tərəfindən Azərbaycanın Naxçıvan bölgəsinə hücumu qətiyyətlə pisləyir.

Bu barədə Monteneqro Xarici İşlər Nazirliyinin açıqlamasında bildirilib.

Qeyd olunub ki, bu cür hərəkətlər regional təhlükəsizliyə və sabitliyə ciddi təhdid yaradır.

"Gərginliyi azaltmaq və dialoqa qayıtmaq üçün təcili ehtiyac olduğunu vurğulayırıq. Monteneqro Azərbaycan xalqı ilə həmrəydir və dərhal gərginliyin azaldılmasına çağırır", - deyə məlumatda həmçinin vurğulanıb.

❖ ❖ ❖

Martın 5-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, telefon danışığı zamanı nazirlər regionda baş verən son hadisələr ətrafında fikir mübadiləsi aparıblar. Tərəflər narahatlıqlarını ifadə edərək gərginliyin daha da artmasına səbəb ola biləcək addımlardan çəkinməyin vacibliyini qeyd edib, sabitlik və təhlükəsizliyin təmin edilməsinin əhəmiyyətini vurğulayıblar.

Nazir Ceyhun Bayramov erməni həmkarını martın 5-də Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına qarşı həyata keçirilən, mülki infrastruktura ziyan vurulması və mülki şəxslərin xəsarət alması ilə nəticələnən dron hücumları barədə məlumatlandırıb.

Nazirlər Ermənistan və Azərbaycan arasında dayanıqlı sülhün təmin edilməsinin vacibliyini qeyd edib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

*AZƏRTAC*

## Azərbaycan istənilən təhdidin qarşısını almağa qadirdir

"Martın 5-də İran İslam Respublikasının silahlı qüvvələri tərəfindən pilotsuz uçuş aparatları vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının beynəlxalq hava limanına və digər mülki infrastruktura hücum aktlarının həyata keçirilməsi bütün Azərbaycan ictimaiyyəti kimi, Yeni Azərbaycan Partiyasının üzvlərinin də ciddi narahatlığına və böyük hiddətinə səbəb olmuşdur". Bu barədə Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı məlumat verib.

Məlumatda qeyd edilib ki, Azərbaycan-İran dövlətlərarası münasibətlərinin ruhuna və beynəlxalq hüquq normalarına zidd olan bu xain təxribat cəhdi regionda hərbi-siyasi gərginliyin artmasına xidmət göstərir: "Ərazi bütövlüyü və mütləq suverenliyini bərpa etməklə yeni reallıqlar yaradan müstəqil Azərbaycan dövləti hər zaman mehriban qonşuluq prinsipinə sadiq olub. Ölkəmizin bu gün milli maraqları və qlobal çağırışları nəzərə almaqla həyata keçirdiyi konstruktiv siyasət və sülh diplomatiyası regionda etibarlı təhlükəsizlik və çoxşaxəli əməkdaşlıq kontekstində etimad quruculuğuna hədəflənmişdir. Eyni zamanda Cənubi Qafqazın lider dövləti kimi hərbi-strateji potensialını daha da gücləndirən Azərbaycan milli və regional təhlükəsizliyə yönəlmiş istənilən təhdidin qarşısını almağa qadirdir. Qonşu İran dövlətinin bu hücum aktını qətiyyətlə pisləyir, Azərbaycan xalqından üzr istəyərək ölkəmizə qarşı qərəzli təbliğata və bütün təxribat cəhdlərinə birmənalı şəkildə son qoyulmasını tələb edirik!"

*"Azərbaycan"*

## Nankorluğun və riyakarlığın təzahürü

### Molla rejimi Naxçıvana hücuma görə peşman olacaq



**Beynəlxalq münasibətlərdə mehriban qonşuluq və qarşılıqlı hörmət prinsipləri dövlətlərarası sabitliyin təməl sütunları hesab olunur. Lakin regionun geosiyasi mənzərəsinə nəzər saldıqda, bəzi dövlətlərin illərdir "səmimiyyət" maskası altında gizlətdiyi düşmənçilik xislətinin vaxtaşırı üzə çıxmasının şahidi oluruq. Martın 5-də Naxçıvan Muxtar Respublikasının mülki infrastrukturuna qarşı törədilən dron hücumları İranın onilliklərdir yürütdüyü riyakar siyasətinin, "islam həmrəyliyi" şüarları arxasında gizlətdiyi nankorluğun ən bariz və qanlı nümunəsidir.**

5 mart tarixində günorta radələrində Naxçıvan Muxtar Respublikasına İran İslam Respublikasının ərazisindən dron hücumları həyata keçirilib. Bir ədəd dron muxtar respublikanın hava limanının terminal binasına, digər dron isə Şəkər-abad kəndində məktəb binasının yaxınlığına düşüb. Azərbaycan Xarici İşlər Nazirliyi dərhal bəyanat yayaraq Hava Limanının binasına zərər dəyməsi və bir neçə mülki şəxsin xəsarət alması ilə nəticələnən dron hücumlarını qətiyyətlə pisləyib. XİN-nin bəyanatında vurğulanıb ki, Azərbaycan ərazisinə bu hücum beynəlxalq hüququn norma və prinsiplərinə ziddir və regionda gərginliyin artmasına xidmət edir: "İran İslam Respublikası tərəfindən qısa müddət ərzində qeyd olunan məsələyə aydınlıq gətirilməsini, buna izahat verməsini və bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri təxirəsalınmaz tədbirlər görməyi tələb edirik". Qeyd olunub ki, Azərbaycan tərəfi müvafiq cavab tədbirləri görmək hüququnu özündə saxlayır.

Azərbaycan dövlət müstəqilliyini qazandığı gündən beynəlxalq hüququn prinsiplərinə və mehriban qonşuluq münasibətlərinə sadiq qalıb. ABŞ və İsrailin İrana birgə hərbi müdaxiləsindən sonra Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov iranlı həmkarı Abbas Əraqçıya zəng edərək, ölkə ərazisindən heç bir qonşu və dost dövlətə, o cümlədən İrana qarşı istifadə edilməyəcəyi ilə bağlı Prezident İlham Əliyevin fikirlərini bir daha xatırladıb. İran səfirinin mətbuat konfransı keçirərək ölkəsinin mövqeyini ifadə etməsinə şərait yaradılıb.

Dövlətimizin mənəvi üstünlüyü böhran anlarında da özünü aydın büruzə verib. İranın ali rəhbərinin vəfatı zamanı Azərbaycan Prezidenti İlham Əliyevin ilk olaraq başsağlığı verməsi, ardınca səfirliyi ziyarət etməsi və İrana humanitar yardım planlaşdırılması dövlətimizin ali humanist dəyərlərinin göstəricisidir. Azərbaycan İranla sərhəd-keçid məntəqəsindən keçidi təmin edərək, həm İrandakı yüzlərlə xarici ölkə vətəndaşının təxliyəsinə, həm də İran vətəndaşının öz ölkələrinə keçidinə şərait yaradıb.

Ümumiyyətlə, Azərbaycan ərazisi heç vaxt İran və digər qonşu dövlətlər üçün plasdarm və ya təhdid mənbəyi olmayıb. Rəsmi Bakı ən gərgin geosiyasi şəraitdə belə balanslaşdırılmış siyasət yürüdərək, öz torpaqlarından üçüncü tərəflərin İrana qarşı istifadə etməsinə icazə verməyib. Bu, Azərbaycanın dövlət ləyaqətinin və verdiyi sözə sadiqliyinin sübutudur. Bütün bunlara baxmayaraq, molla rejimi Naxçıvan Muxtar Respublikasını da hədəfləri sırasına daxil edib. Bu, İrandakı rejimin iç üzünü, mahiyyətini, düşmənçilik xislətini və nankorluğunu bir daha ortaya qoyur. Molla rejiminin Azərbaycanın nəcib addımlarına eyni səmimiyyətlə deyil, Naxçıvandakı mülki infrastrukturu hədəf almaqla cavab verməsi İranın dağıdıcı, heç bir "qırmızı xətt" tanımayan, qonşuluq, dostluq siyasətindən anlamayan xislətdə olmasından xəbər verir. Rejimin addımları onun dostluq və xeyirxahlığı anlamamaqla yanaşı, beynəlxalq hüquqa və ölkələrin suverenliyinə hörmət etmədiyini də göstərir. Həmçinin rəsmi Tehran bu addımı ilə illərdir apardığı "islam həmrəyliyi" və "qonşuluq" ritorikasının arxasında gizlənən düşmənçilik niyyətlərini növbəti dəfə ifşa edir.

Naxçıvan Muxtar Respublikasında hava limanının və digər mülki təyinatlı obyektlərin dron zərbələrinə məruz qalması, beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə Konvensiyalarının kobud şəkildə pozulmasıdır. Bu addım sadəcə hərbi təxribat deyil, birbaşa mülki əhalini hədəf aldığına görə terror aktı kimi tövsif olunmalıdır. Hərbi baxımdan strateji hədəfləri vurmağa qüdrəti çatmayan, Azərbaycanın müasir hava hücumundan müdafiə sistemləri qarşısında aciz qalan molla rejimi, öz qorxaqlığını günahsız insanları hədəf seçməklə gizlətməyə çalışır. Mülki infrastrukturun hədəf alınması İranın "regional liderlik" iddialarının nə dərəcədə saxta olduğunu və rejimin dövlət deyil, bir terror şəbəkəsi məntiqi ilə idarə olunduğunu sübut edir. Bu hücumlar Tehranın bölgədə sülh və sabitlikdə maraqlı olmadığını, əksinə, xaos yaradaraq diqqəti öz daxili böhranlarından yayındırmaq istədiyini göstərir.

Tarix sübut edib ki, Azərbaycan xalqının iradəsinə, dövlətimizin suverenliyinə və ərazi bütövlüyünə qarşı xəyanət yolu seçənlər daim ağır məğlubiyyətlə üzləşiblər. 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatları göstərdi ki, Azərbaycan Silahlı Qüvvələri regionun ən müasir və döyüşkən ordusu kimi istənilən xarici təhdidi məhv etməyə qadirdir. İran tərəfindən atılan bu qorxaq və nankor addım da cavabsız qalmayacaq. Rəsmi Bakı həm diplomatik, həm də hərbi müstəvidə lazımi addımları atmaq hüququnu özündə saxlayır. Beynəlxalq birlik qarşısında "din qardaşlığı" maskası geyinən, lakin pərdəarxasında terroru dəstəkləyən bu riyakar siyasət artıq iflasa uğrayıb. Tehran öz səbatsız hərəkətlərinin bədəlini ödəyəcək. Bu təxribatın müəllifləri tarixin arxivinə nankor qonşu kimi düşəcək və etdikləri hər bir əmələ görə dərin peşmanlıq keçirəcəklər.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

## İranın xarici işlər naziri Naxçıvana dron hücumu ilə bağlı araşdırma başladığını açıqladı

Martın 5-də İranın xarici işlər naziri Seyid Abbas Əraqçi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub.

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı Ceyhun Bayramov İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisinə edilmiş dron hücumlarını qətiyyətlə pisləyib, bu hücumlarla bağlı qəti etirazını bildirib. Azərbaycan ərazisinə bu hücumların beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu, regionda gərginliyin artmasına xidmət etdiyini vurğulayıb. İran naziri Naxçıvan Muxtar Respublikası ərazisinə dron hücumları ilə bağlı narahatlığını ifadə edib. İran tərəfinin və hərbçilərin bu hadisə ilə bağlı araşdırma başladığını bildirib. İran naziri yaralanan mülki şəxslərə şəfa diləyib. İran tərəfindən hücumla bağlı üzr istənilməsini, araşdırmaların nəticələrinə dair qısa müddət ərzində izahat verilməsini, bu kimi halların gələcəkdə təkrarlanmaması üçün zəruri tədbirlər görülməsini gözlədiyimiz diqqətə çatdırılıb.

## Azərbaycan xalqı əmin olmalıdır ki, istənilən bəd qüvvə onlara qarşı bizim "dəmir yumruğ"umuzu görəcək

# Prezident İlham Əliyevin İranın Azərbaycana dron hücumuna dair fikirləri dünya mediasının diqqət mərkəzindədir

Dünyanın bir sıra media qurumları İranın pilotsuz uçuş aparatları (PUA) vasitəsilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumları ilə bağlı Prezident İlham Əliyevin sərt reaksiyasını geniş işıqlandırıb.






















AZƏRTAC xəbər verir ki, bir sıra nüfuzlu beynəlxalq informasiya agentlikləri və qəzetlər, xəbər saytları və portallar Azərbaycan rəhbərinin hadisəni "terror aktı" kimi qiymətləndirdiyini və rəsmi Bakının cavab tədbirləri hazırladığını diqqətə çatdırıblar.

**"Reuters"** agentliyi yazır ki, İran istiqamətindən buraxıldığı bildirilən pilotsuz uçuş aparatlarından biri Naxçıvan Beynəlxalq Hava Limanının terminal binasına, digəri isə kənd məktəbinin yaxınlığına düşüb. Agentliyin məlumatına görə, Azərbaycan rəsmiləri hadisə ilə bağlı araşdırma aparır və təhlükəsizlik tədbirləri gücləndirilib. Həmçinin qeyd edilib ki, hücum nəticəsində mülki infrastruktura ziyan dəyib və yaralılar var. Yazıda Prezident İlham Əliyevdən sitatlar yer alıb. "Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin", - deyə Azərbaycan Prezidenti bildirib.

Almaniyanın **"Spiegel", "Zeit", "Handelsblatt", "Tagesspiegel", "Bild", "Berliner Zeitung"** qəzet və jurnalları, **"Tagesschau"** və **"Welt"** telekanalları, eləcə də digər media qurumları bu barədə silsilə xəbərlər yayımlayıb. Xəbərlərdə Azərbaycanın Naxçıvan Muxtar Respublikasında aeroportun, məktəb binasının və digər mülki obyektlərin dron hücuma məruz qaldığı vurğulanaraq, bu hücumun Azərbaycan tərəfindən sərt şəkildə pisləndiyi, İran səfirinin Azərbaycan Xarici İşlər Nazirliyinə çağırıldığı bildirilib. Məsələ ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclasının keçirildiyi, dövlətimizin başçısının göstərişi ilə Azərbaycan Silahlı Qüvvələrinin yüksək döyüş hazırlığına gətirildiyi bildirilib.

**"Tagesspiegel"** qəzeti İran müharibəsinin getdikcə daha çox ölkəyə yayıldığını qeyd edərək, PUA-ların Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ərazisində hava limanı yaxınlığında və bir məktəbin yaxınlığında düşdüyünü yazıb. Azərbaycanın bu iyrənc terror aktına görə cavab tədbirləri görəcəyini açıqladığı, Prezident İlham Əliyevin göstərişi ilə Silahlı Qüvvələrin döyüş hazırlığı vəziyyətinə gətirildiyi qeyd olunub.

**"Zeit"** nəşrinin yaydığı xəbərdə Azərbaycan Prezidenti İlham Əliyevin pilotsuz uçuş aparatlarının Naxçıvan Muxtar Respublikasına hücumundan sonra ölkənin Silahlı Qüvvələrini döyüş hazırlığı vəziyyətinə gətirdiyini qeyd edərək, Azərbaycan Prezidentinin ordumuzun istənilən əməliyyata hazır olması barədə fikrini diqqətə çatdırıb.

Türkiyənin aparıcı televiziya kanalları, informasiya agentlikləri, çap mediası və xəbər saytları, o cümlədən **"TRTHaber", "CNNTürk", "Habertürk", "HaberGlobal", "Sabah", "Hürriyet", "Milliyet", "Star"** və digər media qurumları Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışını və İran tərəfindən Azərbaycana qarşı törədilmiş terror aktını geniş işıqlandırıb. Qardaş ölkənin mediası Prezident İlham Əliyevin fikirlərindən sitat gətirib. Qeyd olunur ki, Azərbaycan Prezidenti atəşin hədəflərinin mülki obyektlər olduğunu bildirib. Həmçinin vurğulanır ki, Azərbaycan Prezidenti İrandan rəsmi üzr tələb edib və orduya cavab tədbirləri hazırlamaq tapşırığı verib.

"Biz Azərbaycana qarşı törədilmiş bu əsassız terror aktı ilə, təcavüzlə barışmayacağıq. Silahlı Qüvvələrimizə təlimat verildi ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin", - deyə Türkiyə mediası Prezident İlham Əliyevin sözlərindən sitat gətirib.

Çin mediası İran İslam Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına edilən dron hücumu və Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında söylədiyi fikirlər barədə xəbərlər yayıb. Çinin milli xəbər agentliyi **"Sinxua"**nın, **Çin Mərkəzi Televiziyasının, Çin Xəbər Xidmətinin** internet səhifələrində, digər xəbər portallarında mövzu ilə bağlı informasiyalar yerləşdirilib.

Çin mediası yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında İranın dronlar vasitəsilə Azərbaycana qarşı terror aktı törətdiyini deyib. "Əliyev vurğulayıb ki, İran rəsmiləri Azərbaycana izahat verməli və üzr istəməlidir. Prezident Əliyev bildirib ki, Azərbaycan İrana qarşı əməliyyatlarda heç vaxt iştirak etməyib və etməyəcək. Çünki bizim mövqeyimiz bundan ibarətdir. Azərbaycanın qonşu ölkələrə qarşı hər hansı bir əməliyyat keçirməyə nə marağı var, nə də siyasəti buna imkan verir", - deyə Çin mediası yazır.

ABŞ-nin aparıcı media orqanları da İrana məxsus dronların Naxçıvana hücumu və Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında səsləndirdiyi fikirlərə geniş yer verib. **CNN** yazıb ki, Azərbaycan Prezidenti İlham Əliyev dron hücumlarını terror aktı və çirkin əməl adlandırıb.

"Bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir. Azərbaycan tərəfinə İran rəsmiləri tərəfindən izahat verilməlidir, üzr istənilməlidir və bu terror aktını törədənlər cinayət məsuliyyətinə cəlb edilməlidir", - deyə CNN Prezident İlham Əliyevin fikirlərinə istinad edərək yazıb.

Qeyd olunub ki, Azərbaycan Prezidentinin göstərişi ilə Silahlı Qüvvələrə təlimat verilib ki, cavab tədbirləri hazırlansın və həyata keçirilsin.

"Bütün bunların müqabilində çirkincə, namərdcə, nakişi kimi Naxçıvana zərbə endirmək?! Bu ləkə onların çirkin və eybəcər simasından heç vaxt silinməyəcək", - deyə yazıda Prezident İlham Əliyevin fikirləri qeyd olunub.

**"Associated Press"** Prezident İlham Əliyevin İranı terrorda və təcavüz aktında günahlandırdığını yazıb. Qeyd olunub ki, Azərbaycan Ordusuna cavab tədbirləri görməyə hazırlaşmaq əmri verilib.

**"ABC News", "CBS News", "Fox News"** və digər aparıcı media orqanları mövzunu günün əsas xəbəri kimi işıqlandırıb.

Fransanın **"France24", "Le Monde"** və digər media qurumları Azərbaycan Prezidenti İlham Əliyevin hadisə ilə bağlı bəyanatını geniş işıqlandırıblar.

Həmin nəşrlərin məlumatına görə, Prezident İlham Əliyev İranın bu addımını "Azərbaycan dövlətinə qarşı terror aktı" adlandırıb və Tehranın bu hadisəyə görə məsuliyyət daşıdığını bildirib. "Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir", - deyə Azərbaycan Prezidentinin fikirlərindən sitat gətirilib. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələrinə cavab tədbirləri hazırlamaq və onları həyata keçirmək barədə göstəriş verilib. Prezident İlham Əliyev deyib ki, Azərbaycan Silahlı Qüvvələri birnömrəli səfərbərlik vəziyyətinə gətirilib və istənilən əməliyyatı həyata keçirməyə hazır olmalıdır.

Bəzi beynəlxalq media qurumları dövlətimizin başçısının digər mühüm sitatlarına yer veriblər. Prezident İlham Əliyev qeyd edib ki, İran bu hücuma görə rəsmi şəkildə üzr istəməli və məsul şəxslər məsuliyyətə cəlb olunmalıdır.

**"Channel News Asia", "UPI", "The Canberra Times", "Eurasianet", "Devdiscourse"** və digər beynəlxalq media qurumları Azərbaycan Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasında səsləndirdiyi bəyanatını geniş işıqlandırıblar.

**"Intellinews", "OC Media", "Times of Israel", "Middle East Eye", "News24", "Daily Mail", "The New Region"** və digər media platformaları da Prezident İlham Əliyevin çıxışına istinad edərək Azərbaycanın təhlükəsizlik qüvvələrinin yüksək hazırlıq vəziyyətinə gətirildiyini yazıblar.

Bəzi nəşrlər, o cümlədən **"TimesCA", "Orlando Sentinel", "20 Minutos"** və **"Independent"** hadisənin regionda gərginliyi artırdığını qeyd edərək Azərbaycanın mümkün cavab addımları üzərində işlədiyini bildiriblər.

Rusiyanın **"RBC", "Vedomosti", "RIA Novosti", "Interfax", "Komsomolskaya Pravda", "Lenta.ru", "Meduza", "Rossijskaya qazeta"** və digər informasiya resursları da Prezident İlham Əliyevin bəyanatına geniş yer ayıraraq onun İranın hücumunu terror aktı kimi qiymətləndirdiyini və Azərbaycan Ordusunun yüksək hazırlıq vəziyyətinə gətirildiyini qeyd ediblər.

Rumıniyanın bir sıra aparıcı media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin İranın dron hücumları ilə bağlı Təhlükəsizlik Şurasının iclasındakı çıxışını və regionda yaranmış təhlükəsizlik vəziyyətini geniş şəkildə işıqlandırıb. Nəşrlərdə Prezident İlham Əliyevin Azərbaycanın suverenliyinə qarşı yönəlmiş hər hansı təhdidə qəti cavab veriləcəyi barədə mövqeyi xüsusi vurğulanıb. **"News.ro"** Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə qarşı pilotsuz uçuş aparatları ilə həyata keçirilən hücumu terror aktı kimi qiymətləndirdiyini və bu hadisəyə görə Tehranın məsuliyyət daşıdığını bildirdiyini yazıb. Rumıniyanın analitik nəşrlərindən olan **"Newsweek Romania"** isə yazır ki, Azərbaycan rəhbərliyi ölkənin təhlükəsizliyini təmin etmək üçün zəruri addımlar atmağa hazır olduğunu bildirib. Rumıniyanın dövlət radiosuna bağlı analitik platforma olan **"Rador"** xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan dövlətinin təhlükəsizliyinə qarşı yönəlmiş istənilən addıma adekvat cavab veriləcəyini bildirib. **"Gandul"** xəbər portalı isə yazır ki, Prezident İlham Əliyev İranı Azərbaycan dövlətinə qarşı terror aktı törətməkdə ittiham edib.

**"Euronews Romania"** isə dron hücumu nəticəsində bir neçə nəfərin yaralandığını və pilotsuz aparatların birinin aeroport yaxınlığında partladığını vurğulayıb. Nəşrin məlumatına görə, Prezident İlham Əliyev bu hücumu Azərbaycan dövlətinə qarşı düşmənçilik aktı kimi qiymətləndirib və məsul şəxslərin müəyyən edilərək cavab verməli olduğunu bildirib.

Bir sıra beynəlxalq media qurumları Prezident İlham Əliyevin digər mühüm mesajını da diqqətə çatdırıblar. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan heç vaxt İran əleyhinə hərbi əməliyyatlarda iştirak etməyib və etməyəcək, lakin ölkənin suverenliyinə və təhlükəsizliyinə qarşı hər hansı hücum qətiyyətlə cavablandırılacaq.

Yunanıstan mediası da Prezident İlham Əliyevin fikirlərinə geniş yer ayırıb.

Yunanıstanın dövlət televiziya və xəbər platforması **"ERT News"** yazır ki, Prezident İlham Əliyev Azərbaycanın ərazisinə edilən dron hücumunu İran tərəfindən həyata keçirilmiş terror aktı kimi qiymətləndirib.

Nəşr qeyd edir ki, pilotsuz uçuş aparatlarından biri Azərbaycan ərazisində yerləşən obyektlərdən birinə düşüb və hadisə nəticəsində bir neçə nəfər yaralanıb.

**"SKAI"** yazır ki, Prezident İlham Əliyev İranın Azərbaycana qarşı terror aktı törətdiyini bəyan edib. Azərbaycan lideri rəsmi Tehranın baş verən hadisə ilə bağlı izahat verməli olduğunu bildirib.

**"CNN Greece"** qeyd edir ki, Prezident İlham Əliyev İranın bu terror aktının ciddi nəticələrinin ola biləcəyini bildirib. Rəsmi Bakı hadisə ilə bağlı İran tərəfinin məsuliyyətini gündəmə gətirib və Tehrandan rəsmi açıqlama tələb edib.

**"Capital.gr"** portalında yayımlanan xəbərdə qeyd olunur ki, hadisədən sonra Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan Silahlı Qüvvələri yüksək döyüş hazırlığı vəziyyətinə gətirilib. Azərbaycan rəhbərliyi ölkənin təhlükəsizliyinə qarşı yönəlmiş hər hansı təhdidə operativ cavab verməyə hazırdır və vəziyyət diqqətlə izlənilir.

**"Liberal.gr"** bildirir ki, Prezident İlham Əliyev Azərbaycan Ordusuna mümkün cavab tədbirlərinə hazırlaşmaq barədə göstəriş verib. Nəşr qeyd edir ki, Azərbaycan rəhbərliyi baş verən hadisəni ölkənin təhlükəsizliyinə qarşı ciddi təhdid kimi qiymətləndirir və vəziyyətin inkişafını diqqətlə izləyir.

**"Kanaliena"** yazır ki, Azərbaycan tərəfi bu məsələ ilə bağlı İranın rəsmi izahat verməli olduğunu və hadisənin bütün təfərrüatlarının araşdırılacağını bildirib.

Dövlətimizin başçısının çıxışı Gürcüstan mediasının da diqqət mərkəzində olub.

**"interpressnews.ge", "imedinews.ge", "bpn.ge", "1tv.ge", "radiotavisupleba.ge", "qafqazturk.com", "aktual.ge", "interpress.ge", "24news.ge", "rustavi2.ge", "palitranews.ge"** informasiya portalları, radio və televiziyaları Prezident İlham Əliyevin İran tərəfindən Naxçıvan Muxtar Respublikasının ərazisinə dron hücumlarını qətiyyətlə pislədiyini bildirir.

Azərbaycan Prezidentinin çıxışından gətirilən sitatda deyilir: "Bu gün İran tərəfindən Azərbaycan ərazisinə qarşı, Azərbaycan dövlətinə qarşı terror aktı törədilmişdir. Naxçıvan Muxtar Respublikasının ərazisini İran dövləti pilotsuz uçuş aparatları ilə atəş altına salmışdır. Atəşin hədəfləri mülki obyektlər idi. Naxçıvan Beynəlxalq Hava Limanı, onun terminal binası, məktəb və digər istiqamətlər İran tərəfindən namərd atəşə məruz qalmışdır. Azərbaycan dövləti bu çirkin terror aktını qətiyyətlə pisləyir, bunu törədənlər dərhal məsuliyyətə cəlb edilməlidir".

# Körfəz ölkələri İranın hücumlarını cavabsız qoymayacaqlar

Amerika Birləşmiş Ştatları və İsrailin İranla hərbi qarşıdurması kifayət qədər gərgin mərhələyə keçib. İranın ali rəhbəri Ayətullah Əli Xameneyinin və bir neçə yüksəkrütbəli hərbçilərin, o cümlədən siyasilərin hava hücumu nəticəsində qətlə yetirilməsinin ardınca doqquz Körfəz ölkəsi və həmin dövlətlərdə yerləşdirilmiş ABŞ-nin hərbi bazaları İran tərəfindən intensiv raket atəşinə məruz qalmaqdadır. Hücumlar sadəcə hərbi hədəflərlə məhdudlaşmır, həm də qlobal enerji təchizatı üçün həyati əhəmiyyət kəsb edən mülki və strateji infrastruktur obyektlərini də əhatə edir.

İranın ballistik raket və dron zərbələri Səudiyyə Ərəbistanının "Ras Tanura" neft emalı zavoduna və Qətərin "Ras Laffan" sənaye zonasındakı enerji mərkəzlərinə ciddi zərər vurub. Qətərdə fövqəladə vəziyyət elan edilib və "Qatar Energy" dövlət şirkəti maye qaz istehsalını dayandırıb. Oman sahillərində mülki neft tankerlərinə zərbə endirilməsi beynəlxalq sularda təhlükəsizlik riski yaradıb və sığorta xərclərini kəskin artırıb. Birləşmiş Ərəb Əmirliyi kimi qlobal maliyyə habına çevrilmiş ölkənin də hədəf olması fond bazarlarının işinin dayanmasına yol açıb və xarici investorları bölgədən uzaqlaşdırıb. Dubayda ABŞ-nin konsulluq binası da İranın pilotsuz uçuş aparatının zərbəsindən yanaraq ciddi zərər görüb.

İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) rəhbərinin müşaviri general Ebrahim Cabari ölkəyə əlavə zərər vurulacağı təqdirdə İranın Yaxın Şərqin əsas iqtisadi mərkəzlərinə zərbə endirə biləcəyini bildirib: "Biz düşmənə dedik ki, əgər onlar bizim əsas obyektlərimizə zərər vurmağa cəhd etsələr, regionun bütün iqtisadi mərkəzlərini hədəfə alacağıq. Qoy bilsinlər ki, biz bunu edəcəyik". Tehran İsrailin Dimon şəhərindəki atom reaktorunu partlatmaqla hədələyib. Ekspertlər mülki obyektlərin qəsdən hədəf alınmasını beynəlxalq humanitar hüquq normalarının pozulması kimi qiymətləndiriblər.

İranın Körfəz ölkələrinə hava hücumları mülki şəxslərin də zərər görməsinə səbəb olub. Küveytə dron hücumu zamanı 11 yaşlı qız həyatını itirib. Küveyt Səhiyyə Nazirliyinin məlumatına görə, ağır qəlpə yaraları almış uşaq xəstəxanaya çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb. İrandan atılan ballistik raketin İsraildə Beyt-Şemeşə düşməsi nəticəsində xəsarət alanların sayı 20 nəfəri ötüb. Xəsarət alanlardan bir qız uşağının vəziyyətinin ağır olduğu deyilir.

Bəhreyn, Qətər, Küveyt, BƏƏ, Oman və Səudiyyə Ərəbistanı da daxil olmaqla, Körfəz ölkələri İranın hücumlarına cavab verməyə hazır olduqlarını açıqlayıblar. Bu barədə Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) üzv dövlətlərin xarici işlər nazirlərinin birgə iclasından sonra yayılan rəsmi bəyanatda qeyd olunub. Bəyanatda bildirilib ki, Nazirlər Şurası İranın quruma üzv dövlətlərinə qarşı əsassız təcavüzü nəzərə alınmaqla, cavab tədbirləri hüququ da daxil olmaqla, öz təhlükəsizliklərini qorumaq üçün bütün zəruri tədbirləri görəcəklərini bir daha təsdiqləyib. Həmçinin qeyd olunub ki, Körfəz bölgəsində sabitlik yalnız regional məsələ deyil, qlobal



iqtisadi sabitliyin fundamental əsaslarından biridir.

Körfəz Əməkdaşlıq Şurasının baş katibi Casim Məhəmməd əl-Budeyvi də İranın Körfəz ölkələrinə hücumlarını pisləyib: "İranın Körfəz Əməkdaşlıq Şurası ölkələrinə qarşı davam edən xain və qorxaq hücumları mülki obyektləri, diplomatik nümayəndəlikləri hədəf alır və bu ölkənin şura dövlətlərinə qarşı şər niyyətlərinin bariz sübutudur". Körfəz dövlətləri Tehranın addımlarını qınamaqla kifayətlənməyərək, beynəlxalq hüquq normaları çərçivəsində fərdi və birgə müdafiə imkanlarından istifadə edə biləcəklərini diqqətə çatdırıblar.

Narahatlıq doğuran məqamlardan biri İrandan atılan raketlərin Türkiyənin hava məkanını pozmasıdır. Məlum olduğu kimi, martın 4-də İrandan buraxılan, İraq və Suriya hava məkanını keçərək Türkiyəyə istiqamətlənən ballistik raket Aralıq dənizinin Şərqində yerləşən NATO hava və raketdən müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilib. Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb ki, İrandan buraxılan ballistik raket vaxtında sıradan çıxarılıb: "Hatay vilayətinə düşən sursat parçası heç bir təhlükə yaratmayıb. Türkiyə regionda sabitlik və sülh tərəfdarı olmaqla yanaşı, haradan və kimdən gəlməsindən asılı olmayaraq, öz ərazisinin və vətəndaşlarının təhlükəsizliyini təmin etməyə qadirdir".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oxşar hadisələrin bir daha baş verməməsi üçün İrana xəbərdarlıq edildiyini bildirib. Ərdoğan regionda baş verən hadisələrə qarşı Türkiyənin lazımi tədbirləri gördüyünü deyib: "Regionumuzun üzləşdiyi bu çətin günlərdə sərhədlərimizin və hava məkanımızın təhlükəsizliyi məsələsində işi əsla şansa buraxmırıq. Bu səhər baş verən hadisədə olduğu kimi, NATO müttəfiqlərimizlə birlikdə zəruri tədbirləri görürük və dərhal lazımi müdaxiləni edirik. Oxşar hadisələrin bir daha təkrarlanmaması üçün xəbərdarlıqlarımızı da ən aydın və qəti şəkildə çatdırırıq". Xarici işlər naziri Hakan Fidan Türkiyə hava məkanında zərərsizləşdirilən raketlə bağlı İranın xarici işlər naziri Abbas Əraqçi ilə telefon əlaqəsi saxlayıb və Ankaranın reaksiyasını Əraqçiyə çatdırıb. H.Fidan münaqişənin yayılmasına səbəb ola biləcək hər hansı addımdan çəkinməyin zəruri olduğunu bildirib.

NATO da İrandan Türkiyə istiqamətinə raket atılmasını pisləyib. Hərbi Alyansın sözçüsü Allison Hart deyib ki, İranın regionda fərq qoymadan həyata keçirdiyi hücumlar fonunda NATO Türkiyə də daxil olmaqla müttəfiqlərini qətiyyətlə dəstəkləyir. ABŞ Dövlət katibi Marko Rubio da NATO müttəfiqi olan Türkiyənin suverenliyinə edilən hücumların qəbuledilməz olduğunu bildirib və Ankaraya dəstək ifadə edib.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 11-ci, 13-cü və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 702 (Cild I); 2024, №2, maddə 138)13-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.13.1-ci maddəyə "üçün" sözündən sonra ", strateji əhəmiyyətə malik investisiyalara münasibətdə isə Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya Azərbaycan Respublikasının milli maraqlarına zidd olan müstəsna halların qarşısını almaq məqsədilə"sözləri əlavə edilsin.

2.13.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İnvestisiyaların dövlət ehtiyacları üçün, strateji əhəmiyyətə malik olan investisiyalara münasibətdə isə Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya Azərbaycan Respublikasının milli maraqlarına zidd olan müstəsna halların qarşısını almaq məqsədilə investordan alınması ayrı-seçkilik hesab edilmir.".

3.13.3-cü maddədən "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri çıxarılsın.

4.13.4-cü maddədə "maddəsinə uyğun olaraq ödəniləcək kompensasiya" sözləri "maddəsində nəzərdə tutulan kompensasiya investisiya müqaviləsində müəyyən edilmiş qaydada, belə qayda olmadıqda isə" sözləri ilə əvəz edilsin.

5. Aşağıdakı məzmunda 13.5-ci maddə əlavə edilsin:

"13.5. Strateji əhəmiyyətə malik olan investisiyaların Azərbaycan dövlətinin və xalqının mənafelərinə zərər vuran və ya Azərbaycan Respublikasının milli maraqlarına zidd olan müstəsna halların qarşısını almaq məqsədilə milliləşdirilməsi və ya dövlət tərəfindən alınması Azərbaycan Respublikasının qanunları ilə həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2026-cı il*

# Kənd təsərrüfatında güzəştli maliyyələşdirmə barədə bir sıra məsələlərin tənzimlənməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 6-1-ci hissəsində nəzərdə tutulan kreditlərin təyinatı üzrə xərclənməsinin "Elektron kənd təsərrüfatı" informasiya sisteminin "aqrar ticarət (tapaqro)" altsistemi vasitəsilə təşkilini və bu barədə məlumatların ötürülməsi məqsədilə həmin informasiya sistemi ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin müvafiq informasiya sistemlərinin inteqrasiyasını təmin etsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

2.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə 2026-cı ilin dövlət büdcəsindən kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyaların ödənilməsi məqsədilə ayrılmış vəsaitin 10 000 000 (on milyon) manatlıq hissəsinin bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan kreditlərin faizlərinin maliyyələşdirilməsi üçün istifadə edilməsi ilə bağlı tədbirlər görsün;

2.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan kreditlərin faizlərinin maliyyələşdirilməsi məqsədilə tələb olunan vəsaiti növbəti illərdə dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

3. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 571 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 839 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.0.3-cü yarımbənddə ikinci halda "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

3.2. 3-cü hissə üzrə:

3.2.1. 3.0.1-ci, 3.0.1-1-ci və 3.0.2-ci yarımbəndlərdə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

3.2.2. 3.0.10-cu yarımbənddə "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2570 (Cild I); 2024, № 8, maddə 942; 2025, № 11, maddə 1018) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci hissə üzrə:

4.1.1. 1.3-cü bənddə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.1.2. 1.4-cü bəndin ikinci cümləsində və 1.6-cı bənddə "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə əvəz edilsin;

4.1.3. 1.5-ci bənddə "kredit təşkilatlarının" sözləri "müvəkkil təşkilatların" sözləri ilə əvəz edilsin;

4.2. 3-cü hissə üzrə:

4.2.1. adında "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.2.2. 3.1-ci bənd üzrə:

4.2.2.1. birinci cümlədə "kredit təşkilatları ilə" sözləri "təşkilatlarla" sözü ilə əvəz edilsin;

4.2.2.2. ikinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.2.2.3. üçüncü cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

4.2.2.4. dördüncü cümlədə "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə əvəz edilsin;

4.2.3. 3.3-cü bənd üzrə:

4.2.3.1. birinci cümlədə hər üç halda "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə, "kredit təşkilatlarına" sözləri "təşkilatlara" sözü ilə əvəz edilsin;

4.2.3.2. ikinci cümlədə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.2.4. 3.3-1-ci bənddə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə, "kredit təşkilatlarına" sözləri "təşkilatlara" sözü ilə əvəz edilsin;

4.2.5. 3.4-cü bənddə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.2.6. 3.5-ci bənd üzrə:

4.2.6.1. birinci cümlədə "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə əvəz edilsin;

4.2.6.2. ikinci, üçüncü və dördüncü cümlələrdə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.2.7. 3.6-cı bənd üzrə:

4.2.7.1. birinci cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə, "kredit təşkilatı" sözləri "müvəkkil təşkilat" sözləri ilə, "kredit təşkilatından" sözləri "müvəkkil təşkilatdan" sözləri ilə, "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

4.2.7.2. ikinci cümlədə "kredit təşkilatının" sözləri "müvəkkil təşkilatın" sözləri ilə, "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

4.2.8. 3.7-ci bənddə "kredit təşkilatına" sözləri "müvəkkil təşkilata" sözləri ilə, "müvəkkil kredit təşkilatının" sözləri "həmin müvəkkil təşkilatın" sözləri ilə əvəz edilsin;

4.3. 4-cü hissə üzrə:

4.3.1. 4.1-ci bənd üzrə:

4.3.1.1. birinci cümlədə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

4.3.1.2. ikinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.3.1.3. üçüncü cümlədə "kredit təşkilatlarında" sözləri "təşkilatlarda" sözü ilə əvəz edilsin;

4.3.2. 4.2-ci bəndin birinci cümləsində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.3.3. 4.3-cü bənddə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

4.3.4. 4.4-cü bənd üzrə:

4.3.4.1. birinci, üçüncü və dördüncü cümlələrdə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.3.4.2. ikinci cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

4.3.5. 4.4-1-ci bənd üzrə:

4.3.5.1. üçüncü cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.3.5.2. dördüncü cümlədə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.3.5.3. beşinci cümlədə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə, "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.3.6. 4.4-2-ci bənd üzrə:

4.3.6.1. birinci cümlədə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə, "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.3.6.2. ikinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.3.7. 4.5-ci bənddə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.4. 5-ci hissə üzrə:

4.4.1. 5.7-ci bənd üzrə:

4.4.1.1. birinci cümlədə "kredit təşkilatlarına" sözləri "təşkilatlara" sözü ilə əvəz edilsin;

4.4.1.2. ikinci cümlədə "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə əvəz edilsin;

4.4.2. 5.8-ci bəndin birinci cümləsində "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.4.3. 5.9-cu bənddə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə, "kredit təşkilatları ilə" sözləri "müvəkkil təşkilatlarla" sözləri ilə əvəz edilsin;

4.5. 5-1-ci hissə üzrə:

4.5.1. 5-1.1-ci bəndin birinci abzasında "kredit təşkilatlarına" sözləri "təşkilatlara" sözü ilə əvəz edilsin;

4.5.2. 5-1.2-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə, "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

4.5.3. 5-1.3-cü bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.6. 6-cı hissə üzrə:

4.6.1. 6.1.2-ci yarımbənddə və 6.1.3-cü yarımbəndin birinci cümləsində "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.6.2. 6.1-1-ci bəndin birinci abzasında "kredit təşkilatlarının" sözləri "müvəkkil təşkilatların" sözləri ilə əvəz edilsin;

4.6.3. 6.1-4-cü bəndin birinci cümləsində "kredit təşkilatına" sözləri "müvəkkil təşkilata" sözləri ilə əvəz edilsin;

4.6.4. 6.2.2-ci və 6.2.3-cü yarımbəndlərdə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.6.5. 6.2-1-ci bəndə "sistemində" sözündən sonra "(bundan sonra - EKTİS)" sözləri əlavə edilsin;

4.7. aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

**"6-1. Müvəkkil təşkilatların (lizinq təşkilatları istisna olmaqla) vəsaiti hesabına verilən kreditlərin faizlərinin maliyyələşdirilməsi**

6-1.1. Kənd təsərrüfatı məhsullarının istehsalı xərclərinin (kənd təsərrüfatı istehsal vasitələrinin, o cümlədən mineral gübrə, biohumus, sertifikatlı toxum və pestisidlərin alınması, həmçinin aqrotexniki xidmətlərdən istifadə) maliyyələşdirilməsi məqsədilə müvəkkil təşkilatların (lizinq təşkilatları istisna olmaqla) vəsaiti hesabına sahibkarlıq subyektlərinə 1 (bir) il müddətinədək verilən kreditlərin əsas borcu üzrə hesablanmış faizlərin Agentliyin vəsaiti hesabına maliyyələşdiriləcək hissəsinin ödənilməsi Agentliyə dövlət büdcəsindən bu məqsədlə ayrılmış vəsait hesabına təmin edilir.

6-1.2. Bu Qaydanın 6-1.1-ci bəndində nəzərdə tutulmuş kreditlərin illik faiz dərəcəsinin Agentliyin vəsaiti hesabına maliyyələşdirilən hissəsi və həmin kreditlərlə istehsalı maliyyələşdirilən kənd təsərrüfatı məhsullarının siyahısı Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın 2.4.5-ci yarımbəndinə uyğun olaraq müəyyən edilir.

6-1.3. Sahibkarlıq subyektləri bu Qaydanın 6-1.1-ci bəndi ilə müəyyən edilmiş güzəştli kreditlərin verilməsi üçün müvəkkil təşkilata (lizinq təşkilatları istisna olmaqla) rəsmi qaydada müraciət edirlər. Müvəkkil təşkilat (lizinq təşkilatları istisna olmaqla) tərəfindən müraciətlərin qeydiyyata alındığı tarixdən 15 (on beş) iş günündən gec olmayaraq, kredit riskləri təhlil olunmaqla kreditin verilməsi barədə qərar qəbul edilir, yaxud sahibkarlıq subyektlərinə əsaslandırılmış imtina məktubu göndərilir (təqdim edilir). Müvəkkil təşkilat (lizinq təşkilatları istisna olmaqla) müsbət qiymətləndirdiyi müraciətə dair tələb olunan məlumatları (kreditin məbləği, təyinatı, istifadə dövrü və sahibkarlıq subyektinin EKTİS-də qeydiyyatı barədə) və sənədləri Agentliyə təqdim edir. Təqdim edilən məlumatların bu Qaydanın 6-1.2-ci bəndinə əsasən müəyyən edilmiş göstəricilərə uyğunluğu Agentlik tərəfindən 10 (on) iş günü müddətində yoxlanılaraq, veriləcək kredit məbləğinə mütənasib hesablanan faiz məbləği təsdiqlənir və ya müvəkkil təşkilata (lizinq təşkilatları istisna olmaqla) əsaslandırılmış imtina məktubu göndərilir (təqdim edilir).

6-1.4. Bu Qaydanın 6-1.1-ci bəndində nəzərdə tutulmuş qaydada ayrılan kredit məbləği müvəkkil təşkilat (lizinq təşkilatları istisna olmaqla) tərəfindən sahibkarlıq subyektinin kart hesabına (hüquqi şəxsin cari hesabına) köçürülür və nağdlaşdırılmadan istifadə olunur. Sahibkarlıq subyekti kredit vəsaitini, bu Qaydanın 6-1.1-ci bəndinə uyğun olaraq, onun müraciəti zamanı bəyan edilmiş təyinat üzrə EKTİS-in "aqrar ticarət (tapaqro)" altsistemi vasitəsilə təchizatçıların hesablarına köçürür. Kredit müqabilində müvafiq məhsul, iş və xidmətlərin təhvil verilməsini təsdiq edən sənədlər təhvilverənin razılığı ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi vasitəsilə EKTİS-ə inteqrasiya edilir.

6-1.5. Sahibkarlıq subyektləri aldıqları güzəştli kreditlər üzrə əsas borclarını və faiz borclarının Agentliyin vəsaiti hesabına maliyyələşdirilməyən hissəsini müqavilə şərtlərinə uyğun olaraq ödəməlidirlər. Agentlik verilmiş kreditlər üzrə faizlərin maliyyələşdirdiyi hissəsinin hesablanmasını və həmin hissə üzrə rübdə 1 (bir) dəfədən gec olmayaraq ödənişlərin həyata keçirilməsini təmin edir. Agentlik hesablanan faiz borcunun maliyyələşdirilən hissəsi istisna olmaqla, müqavilə üzrə hər hansı başqa öhdəlik və məsuliyyət daşımır.

6-1.6. Bu Qaydanın 7-ci hissəsinə uyğun olaraq həyata keçirilən monitorinq zamanı kredit vəsaitindən 3 (üç) ay müddətində istifadə edilməməsi və ya təyinatı üzrə istifadə edilməməsi halları aşkarlandıqda, Agentlik tərəfindən faizlərin maliyyələşdirilən hissəsinin hesablanması və ödənilməsi dayandırılır.

6-1.7. Bu Qaydanın 6-1.6-cı bəndində nəzərdə tutulmuş halda ödənilmiş güzəşt vəsaiti müvəkkil təşkilat (lizinq təşkilatları istisna olmaqla) tərəfindən Agentliyə qaytarılır. Agentliyin yazılı tələbindən sonra müvəkkil təşkilat (lizinq təşkilatları istisna olmaqla) 30 (otuz) iş günü müddətində vəsaitin köçürülməsini təmin etməzsə, Agentlik gecikdirilən məbləğin qaytarılması üçün normativ hüquqi aktlarda nəzərdə tutulmuş tədbirləri görür. Qaytarılan vəsaitdən bu Qaydanın məqsədlərinə uyğun istifadə edilir.

6-1.8. Bu Qaydanın 6-1.7-ci bəndinə uyğun olaraq Agentliyə qaytarılmış vəsait müvəkkil təşkilat (lizinq təşkilatları istisna olmaqla) tərəfindən sahibkarlıq subyektindən tələb edilir. Belə sahibkarlıq subyektlərinə növbəti 3 (üç) il müddətində faizlərinin bir hissəsi Agentlik tərəfindən maliyyələşdirilən kreditlər verilmir.";

4.8. 7-ci hissə üzrə:

4.8.1. 7.1-ci bənd üzrə:

4.8.1.1. birinci cümlədə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.8.1.2. ikinci cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə, "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.8.1.3. dördüncü cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.8.2. 7.2-ci bəndin ikinci və üçüncü cümlələrində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

4.8.3. 7.5-ci bənd üzrə:

4.8.3.1. birinci cümlədə "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə, "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.8.3.2. ikinci cümlədə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

4.8.4. 7.6-cı bənd üzrə:

4.8.4.1. birinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

4.8.4.2. ikinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1356; 2025, № 2, maddə 137, № 7, maddə 642) ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci hissə üzrə:

5.1.1. aşağıdakı məzmunda 1.2.5-1-ci yarımbənd əlavə edilsin:

"1.2.5-1. **aqrotexniki xidmətlər** bitkiçilik məhsullarının istehsalı prosesində satın alınan aqrotexniki tədbirlər;";

5.1.2. 1.2.8-ci yarımbəndə "keçirən" sözündən sonra ", həmçinin aqrotexniki xidmətlər göstərən" sözləri əlavə edilsin.

5.2. 2.4.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4.5-ci yarımbənd əlavə edilsin:

"2.4.5. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 6-1-ci hissəsinə uyğun olaraq verilən kreditlərin illik faiz dərəcəsinin maliyyələşdirilən hissəsinin və həmin kreditlərlə istehsalı maliyyələşdirilən kənd təsərrüfatı məhsullarının siyahısının təsdiqi.";

5.3. 3.12-ci bəndin üçüncü cümləsində "kredit təşkilatlarının" sözləri "təşkilatların" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940 (Cild I); 2024, № 6 (I kitab), maddələr 654, 679, № 8, maddə 937, № 12 (II kitab), maddə 1359) ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3-cü hissə üzrə:

6.1.1. 3.1.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.1.7-ci yarımbənd əlavə edilsin:

"3.1.7. "aqrar ticarət (tapaqro)" altsistemi.";

6.1.2. 3.2.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.2.7-ci yarımbənd əlavə edilsin:

"3.2.7."aqrar ticarət (tapaqro)" altsistemi vasitəsilə istehsalçıların istehsal etdikləri kənd təsərrüfatı məhsullarına və aqrar sahədə fəaliyyət göstərən emal müəssisələrinin xammal tələbatına dair məlumatların əks etdirilməsi, kənd təsərrüfatı istehsal vasitələrinin (kənd təsərrüfatı texnikası, texnoloji avadanlıq, suvarma sistemləri dəsti və avadanlığı, dirəklər, damazlıq heyvanlar, mineral gübrə, biohumus, sertifikatlı toxum, ting və pestisid) və aqrotexniki xidmətlərin satın alınması, həmçinin həmin xidmətlər üzrə verilən subsidiya və güzəştlərdən istifadəyə nəzarət edilməsi.";

6.2. 5.1-ci bənd üzrə:

6.2.1. 5.1.10-cu yarımbənddən "(kənd təsərrüfatı texnikası, texnoloji avadanlıq, damazlıq heyvanlar, suvarma sistemləri dəsti və avadanlığı)" sözləri çıxarılsın;

6.2.2. 5.1.15-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.1.15. kənd təsərrüfatı istehsal vasitələrinin alınması və (və ya) qurulması, həmçinin aqrotexniki xidmətlərdən istifadə üzrə həyata keçirilən ödənişlər barədə məlumatlar və həmin məhsul, iş və xidmətlərin təhvil verilməsini təsdiq edən sənədlər (təhvilverənin razılığı ilə);";

6.2.3. 5.1.32-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.1.33-cü yarımbənd əlavə edilsin:

"5.1.33. aqrar sahədə fəaliyyət göstərən emal müəssisələrinin xammal tələbatı və istehsalçıların istehsal etdikləri kənd təsərrüfatı məhsulları barədə məlumatlar.";

6.3. 7.1-ci bənd üzrə:

6.3.1. 7.1.1-ci yarımbəndə aşağıdakı məzmunda 21-ci abzas əlavə edilsin:

"21. subsidiyalar və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 6-1-ci hissəsinə uyğun olaraq verilən vəsaitlər üzrə ödənişləri bu Əsasnamənin 7.6-cı bəndində nəzərdə tutulan qaydada həyata keçirmək;";

6.3.2. 7.1.11-ci yarımbəndin 3-cü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 7.1.12-ci yarımbənd əlavə edilsin:

"7.1.12. banklar və bank olmayan kredit təşkilatları:

1. qeydiyyatdan keçmək;

2. elektron kabinetdən istifadə etmək;

3. subsidiyalar və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"na uyğun olaraq verilmiş kredit və digər ödənişlər barədə məlumatları daxil etmək.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2026-cı il*

## “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 may tarixli 166 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 63** **Bakı şəhəri, 4 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.9-cu bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 may tarixli 166 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 590 (Cild I); 2025, № 9, maddə 879) aşağıdakı dəyişikliklər edilsin:

1. Preambulada "2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi haqqında Əsasnamə"nin" sözləri "2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin" sözləri ilə əvəz edilsin.

2. 1-ci hissənin "Kollegiyanın üzvləri" bölməsinə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi" sözlərindən sonra "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Aparatının rəhbəri." sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası”nın təsdiq edilməsi barədə” 2015-ci il 22 oktyabr tarixli 339 nömrəli və “Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsi qaydasının, qrant məbləğinin müəyyən edilməsi meyarlarının və hər bir mövzu üzrə qrant məbləğinin yuxarı həddinin təsdiq edilməsi haqqında” 2023-cü il 14 sentyabr tarixli 327 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 64** **Bakı şəhəri, 4 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 75-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" 2024-cü il 27 dekabr tarixli 272 nömrəli və "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2025-ci il 4 avqust tarixli 463 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 22 oktyabr tarixli 339 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1558 (Cild 1) aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci hissə 1-ci hissə hesab olunsun və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası" üzrə:

1.2.1. 2.3-cü bəndə ikinci halda "qurumlarına" sözündən sonra ", habelə bələdiyyələrə (bələdiyyə orqanlarına)" sözləri əlavə edilsin;

1.2.2. 5-ci hissə ləğv edilsin.

2. "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsi qaydasının, qrant məbləğinin müəyyən edilməsi meyarlarının və hər bir mövzu üzrə qrant məbləğinin yuxarı həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 sentyabr tarixli 327 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1348 (Cild I); 2024, № 7, maddə 925) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

2.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsi Qaydası"nın 4.1.3-cü, 5.1.3-cü və 7.5.9-cu yarımbəndlərinə "şəxslərinə" sözündən sonra ", habelə bələdiyyələrə" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Elm və təhsil komitəsinin iclası keçirilib



Martın 5-də Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Anar İsgəndərov iclası açaraq gündəliyə Əmək Məcəlləsində və "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (ikinci oxunuş) daxil edildiyini söyləyib.

Komitə sədri bildirib ki, təqdim olunan qanun layihəsində Mədəniyyət Nazirliyinin sisteminə daxil olan uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və digər bu qəbildən olan dövlət təhsil müəssisələrində çalışan təhsilverənlərin peşə yararlılığının attestasiya yolu ilə deyil, Elm və Təhsil Nazirliyində tətbiq olunan mexanizmə uyğun olaraq, sertifikasiya imtahanı vasitəsi ilə qiymətləndirilməsi nəzərdə tutulub. Anar İsgəndərov layihə barədə məlumat vermək üçün parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyevə söz verib.

Adil Vəliyev qeyd edib ki, hazırda tətbiq olunan attestasiya qiymətləndirilməsi müasir metodologiyalar və müasir təcrübə ilə uyğunlaşmır. Eyni zamanda attestasiya nəticələrinin hüquqi əsaslandırılması və məhkəmə mübahisələrində tətbiqi mexanizmləri kifayət qədər aydın tənzimlənmir.

Layihənin qəbul edilməsi nəticəsində yuxarıda göstərilən təhsil müəssisələrində çalışan təhsilverənlərin nəzəri bilikləri, təcrübəsi və peşə yararlılığı sertifikasiya imtahanı vasitəsilə xüsusi qaydalara uyğun qiymətləndiriləcək. Vurğulanıb ki, sertifikasiya imtahanının tətbiqi qiymətləndirilmə prosesinin şəffaflığını və obyektivliyini artıracaq, həmin təhsil müəssisələrinin inkişafına və təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsinə xidmət edəcək. Məsələnin müzakirəsində komitənin sədr müavini Fariz İsmayılzadə, komitə üzvləri Ceyhun Məmmədov, Mehriban Vəliyeva, Bəxtiyar Əliyev, Vasif Qafarov çıxış edərək, öz qeyd və təkliflərini səsləndiriblər.

Müzakirədən sonra qanun layihəsi ikinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub

Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.




Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Konstitusiyanın 130-cu maddəsinin IV hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" qanunun 7.1-ci maddəsinə əsasən, Cinayət Məcəlləsinin 79.1-ci maddəsinin Konstitusiyanın 25, 71 və 149-cu maddələrinə uyğunluğunun yoxlanılmasına dair insan hüquqları üzrə müvəkkilin (ombudsmanın) sorğusuna baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun aprelin 1-nə təyin olunmuş iclasında baxılacaq.

# Leyla Əliyeva və Arzu Əliyeva "Leyla Medical Center"in Pediatriya Mərkəzində olublar







Leyla Əliyeva və Arzu Əliyeva martın 4-də "Referans Medical Group"un tərkibində fəaliyyət göstərən "Leyla Medical Center"in Pediatriya Mərkəzində olublar.

AZƏRTAC xəbər verir ki, ziyarət zamanı qonaqlar mərkəzin gündüz stasionarında müalicə alan uşaqlara baş çəkib, onların səhhəti və müalicə prosesi ilə maraqlanıblar. Uşaqlarla səmimi söhbət edən Leyla Əliyeva və Arzu Əliyeva körpələrə müxtəlif hədiyyələr təqdim edib, onlara xoş anlar yaşadıblar.

Qeyd edək ki, Pediatriya Mərkəzində uşaqların sağlamlığının qorunması və müalicəsi istiqamətində müasir tibbi xidmətlər göstərilir, balaca pasiyentlərin rahat və təhlükəsiz mühitdə müalicə alması üçün bütün zəruri şərait yaradılıb.

# Leyla Əliyeva Bakı Şəhər Narkoloji Mərkəzini ziyarət edib









Martın 5-də Leyla Əliyeva Bakı Şəhər Narkoloji Mərkəzini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyevaya mərkəz barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Azərbaycanda ilk narkoloji tibbi müəssisə olan Bakı Şəhər Narkoloji Mərkəzinin əsası 1980-ci ildə qoyulub. Əvvəllər Bakı Şəhər Narkoloji Dispanseri kimi fəaliyyət göstərib.

Qeyd olunub ki, həmin dövrdə alkoqolizmlə mübarizə əsasında narkologiya psixiatriyadan ayrılanda narkoloji müəssisələrin yaradılmasına başlanılıb. Azərbaycanda ilk olaraq həmin narkoloji mərkəz açılıb.

2012-ci ildə dispanser Səhiyyə Nazirliyi tərəfindən əsaslı təmir edilərək istifadəyə verilib. Səhiyyə Nazirliyinin 2020-ci il 11 avqust tarixli qərarı ilə "Bakı Şəhər Narkoloji Dispanseri" əsasında "Bakı Şəhər Narkoloji Mərkəzi" publik hüquqi şəxsi yaradılıb. Mərkəz 16 otaqdan ibarətdir: qeydiyyat, qəbul, 7 həkim, manipulyasiya, 6 administrativ otaq.

Paytaxtın 12 rayonuna xidmət edən mərkəzin 18 həkim, 25 tibb bacısı və 27 digər vəzifələrdə çalışan əməkdaşı var. Mərkəz gün ərzində 200-300 nəfərə qədər vətəndaşa xidmət göstərmək gücündədir.

Bakı Şəhər Narkoloji Mərkəzində paytaxt üzrə 17 min 557 nəfər, onlardan 1416 nəfər alkoqolizmdən, 14 min 753 nəfər narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları, 1388 nəfər toksiki maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə qeydiyyatdadır.

Gün ərzində narkoloji asılılıqdan əziyyət çəkən 20 nəfər mərkəzə müraciət edir, nadir hallarda alkoqolizm asılılığına görə müraciət daxil olur. Kəskin vəziyyətləri olan alkoqolizm halları stasionara yönləndirilir. Yüngül vəziyyətdə olan alkoqolizm halları isə mərkəzdə ambulator müalicə edilir.

Bakı Şəhər Narkoloji Mərkəzində sifilis, İİV, Hepatit B və C-nin müayinəsi də aparılır.

Mərkəz üçün yeni yerin ayrıldığı, yaxın gələcəkdə həmin məkana köçürüləcəyi də diqqətə çatdırılıb.

Leyla Əliyeva qeydiyyat, qəbul, həkim, baş tibb bacısı, manipulyasiya otaqlarına baş çəkib, mərkəzin tibbi personalı ilə həmsöhbət olub, onlarla şəkil çəkdirib.

# Braziliya mediasında Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına həsr olunmuş məqalə dərc edilib


Mais mulheres na política

Entre patrimônio e modernidade: o legado urbano que Baku quer deixar ao mundo

Braziliyanın aparıcı nəşrlərindən olan "Correio Braziliense" qəzetində bu il Bakıda keçiriləcək BMT Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasına (WUF13) dair məqalə dərc olunub.

AZƏRTAC-ın məlumatına görə, Azərbaycanın Braziliyadakı səfirliyinin müşaviri Rafiq Rüstəmovun müəllifi olduğu "Ənənə və müasirlik: Bakının dünyaya təqdim etmək istədiyi şəhərsalma irsi" sərlövhəli məqalə Azərbaycan Respublikası Prezidentinin 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı 22 dekabr 2025-ci il tarixli sərəncamından bəhs edilir, WUF13 kimi mötəbər beynəlxalq tədbirlə bağlı Azərbaycanda həyata keçirilən irimiqyaslı hazırlıq işləri diqqətə çatdırılır. Məqalədə qeyd olunur ki, COP29 kimi nəhəng beynəlxalq tədbirə uğurla evsahibliyi etdikdən sonra Azərbaycan növbəti dəfə qlobal əhəmiyyətli məsələlərin müzakirə ediləcəyi mərkəz funksiyasını öz öhdəsinə götürür. Vurğulanıb ki, bu tədbir BMT sistemində öz miqyasına görə üçüncü ən böyük tədbir sayılır.

Belə bir mötəbər tədbirin Azərbaycanda keçirilməsinin təsadüfi olmadığı qeyd olunub. Müasir şəhərsalma təcrübəsində Azərbaycan xalqının nümunəvi inkişaf yolu keçdiyi, bu səpkidə işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən "yaşıl enerji" və müasir infrasturktur layihələrinin beynəlxalq ictimaiyyət tərəfindən yaxından izlənildiyi nəzərə çatdırılıb.

Bildirilir ki, WUF13 forumunda beynəlxalq iştirakçılığın genişləndirilməsi üçün Azərbaycan hökuməti ardıcıl tədbirlər görür, uğurlu təşviqat işini davam etdirir, o cümlədən qlobal müstəvidə cəmiyyətlərin müxtəlif seqmentlərinə xitab edən maarifləndirici onlayn informasiya sessiyaları təşkil edir.

Məqalədə həmçinin Azərbaycanın qədim və müasir memarlıq incilərindən bəhs olunur, bu səpkidə İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası, Heydər Əliyev Mərkəzi, "Alov qüllələri", "Ağ Şəhər" kimi Azərbaycan irsinin zəngin nümunələri sadalanır.



# Azərbaycan qlobal sülh quruculuğuna böyük töhfələr verir

## Prezident İlham Əliyevin barış modeli dünya tərəfindən dəstəklənir və nümunə göstərilir

Dünya tarixində çox az ölkəyə nəsib olan strateji dönüş nöqtəsindəyik. Cənubi Qafqazın lider dövləti Azərbaycan artıq qlobal sülh arxitekturasının mərkəzi fiqurlarından birinə çevrilməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan müharibə psixologiyasından sülh fəlsəfəsinə keçidin ən çətin sınağından üzüağ çıxdı. Ölkəmiz nəinki Ermənistanla sülh sazişini parafladı, həm də normallaşma prosesini real iqtisadi əməkdaşlıqla möhkəmləndirdi. Azərbaycanın öz ərazisindən tranzitlə Ermənistana taxıl daşımalarına icazə verməsi və neft məhsulları ixracına başlaması sülhün yalnız sözdə yox, əməldə də yaşandığının sübutudur. Bu addımlar göstərir ki, Azərbaycan sülhü sadəcə siyasi sənəd kimi deyil, region xalqlarının rifahına xidmət edən real iqtisadi proses və qarşılıqlı əməkdaşlıq kimi təsəvvür edir. Dövlətimiz, sadəcə, torpaqlarımızı azad etmədi, həmçinin bölgənin gələcək onilliklərini müəyyənləşdirəcək sülhün təməlini qoydu.

Azərbaycanın postmünaqişə dövründə nümayiş etdirdiyi bu unikal təcrübə və prinsipial sülh diplomatiyası beynəlxalq ictimaiyyətin, xüsusilə qlobal güclərin diqqətindən yayınmadı. Ölkəmizin ABŞ Prezidenti Donald Trampın şəxsi təşəbbüsü ilə yaradılan, dünya miqyasında münaqişələrin həlli və sabitliyin qorunması missiyasını daşıyan Sülh Şurasının (Board of Peace) qurucu üzvü seçilməsi Azərbaycanın xarici siyasətində keyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu. Bu, təkcə bir dövlətin beynəlxalq quruma adi üzvlüyü deyil, eyni zamanda Azərbaycanın Cənubi Qafqazın hüdudlarını aşaraq qlobal sülh quruculuğunun əsas memarlarından biri kimi tanınması deməkdir.

Dünyanın ən nüfuzlu iqtisadi və siyasi platformalarından biri olan Davos İqtisadi Forumu çərçivəsində bu prosesin rəsmiləşməsi Azərbaycanın strateji çəkisini bir daha nümayiş etdirdi. Yeni təsisatın yaradılmasında birbaşa iştirak və təsisçi sənədlərin imzalanması ölkəmizin təkcə verilən qərarların icraçısı yox, qlobal idarəetmə mexanizmlərinin, yeni beynəlxalq nizamın və sülh modellərinin qurulmasında birbaşa söz sahibi olduğunu təsdiqlədi. 22 yanvar 2026-cı ildə Davosda Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp ilə görüşü bu strateji tərəfdaşlığın mühüm tərkib hissəsi oldu. Görüşdə ikitərəfli münasibətlərin inkişafı, Azərbaycan-Ermənistan normallaşması və TRIPP (Zəngəzur dəhlizi) layihəsi xüsusi diqqət mərkəzində idi. Bu da o anlama gəlir ki, ABŞ rəhbərliyi regiondakı yeni nəqliyyat-kommunikasiya xəritəsi ilə yaxından maraqlanır və Azərbaycanın təşəbbüskarı olduğu bu layihələri qlobal təchizat zəncirinin təhlükəsizliyi baxımından dəstəkləyir.

Azərbaycanın sülh siyasətinin mənəvi-humanitar dəyərlər müstəvisində ən yüksək təsdiqi isə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Prezident İlham Əliyevə təqdim edilməsi oldu. Roma Papası Fransisk və Əl-Əzhərin Böyük İmamının dəstəklədiyi bu mükafat dünyada sülhü, dinlər və mədəniyyətlərarası dialoqu təşviq edən ən nüfuzlu beynəlxalq təltiflərdən biridir. "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Prezident İlham Əliyevə təqdim edilməsi sülh siyasətinin mənəvi-humanitar dəyərlər müstəvisində də ən yüksək səviyyədə təsdiqlənməsidir.

Burada diqqət edilməli mühüm məqam odur ki, mükafat təkcə sazişin imzalanması faktına görə deyil, həm də bu, "dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi" missiyasını təcəssüm etdirdiyi üçün verilir. Yəni beynəlxalq birlik Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qarşıdurmadan əməkdaşlığa keçidi təmin edən siyasi iradəsini və bu keçidin humanitar dəyərlərə əsaslanmasını yüksək qiymətləndirir.

Mükafatlandırma mərasiminin 4 fevral 2026-cı ildə Əbu-Dabidə keçirilməsi də dərin simvolik məna daşıyır. Dövlət başçısı İlham Əliyev mərasimdəki çıxışı zamanı bu məqama xüsusilə toxundu. Prezidentimiz vurğuladı ki, Ermənistan ilə Azərbaycan arasında danışıqlar tarixi Vaşinqton Sammitindən əvvəl məhz bu şəhərdə baş tutmuşdur: "Əbu-Dabidə keçirilən bu mükafatlandırma mərasimi ilə bağlı qeyd edəcəyim son məqam odur ki, bu mərasim rəmzi məna daşıyır. Çünki Ermənistan ilə Azərbaycan arasında sonuncu danışıqlar raundu ötən ilin iyul ayında, tarixi Vaşinqton Sammitindən cəmi bir ay əvvəl məhz burada baş tutmuşdur. Əziz qardaşımız Şeyx Məhəmmədin dəstəyi ilə sülhün bərqərar olunması üçün son razılığa burada gəldik və həmin razılıq daha sonra Vaşinqtonda rəsmiləşdirilmişdir".

"Zayed İnsan Qardaşlığı Mükafatı" Azərbaycanın münaqişəni həll edərək bölgədə yaratdığı yeni reallıqların, sülh və əməkdaşlıq siyasətinin və Prezident İlham Əliyevin şəxsi nüfuzunun beynəlxalq miqyasda qazandığı ən parlaq etiraf və təltifdir. Eyni zamanda cənab İlham Əliyevin qətiyyətinin, milli maraqlara sadiqliyinin və liderlik keyfiyyətlərinin beynəlxalq aləmdə nümunə kimi qəbul edilməsidir. Mərasimdə Türkiyə, Qazaxıstan, Özbəkistan, Pakistan, Qırğızıstan, Livan liderlərinin, həmçinin İordaniya Kralının təbrik videomüraciətlərinin nümayiş etdirilməsi sülh nailiyyətinin geniş coğrafiyada, müxtəlif mədəniyyət və siyasi sistemlər tərəfindən də qəbul edildiyinin göstəricisidir.

Azərbaycanın beynəlxalq nüfuzu üç təməl üzərində yüksəlir. Bunlar postmünaqişə dövrünün uğurlu idarə edilməsi, qlobal güclərlə qurulan balanslı strateji tərəfdaşlıqlar və Avropa ilə Asiya arasında enerji, nəqliyyat və rəqəmsal körpü rolunu oynayan coğrafi-iqtisadi potensialıdır. Ölkəmiz, sadəcə, regional proseslərin iştirakçısı deyil, qlobal sülh gündəliyinin müəllifi, etibarlı tərəfdaş və gələcək nəsillərə nümunə göstəriləcək bir modeldir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan müharibə şəraitində yaşamağı öyrəndiyi kimi, indi də sülh şəraitində yaşamağı öyrənir.

Prosesin xronoloji ardıcıllığı Azərbaycanın beynəlxalq təhlükəsizlik arxitekturasında artan çəkisini aydın göstərir. 13 fevral 2026-cı ildə Münxen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin sülhə nail olmuş dövlət başçısı kimi çıxış etməsi strateji fürsət oldu. Dövlətimizin başçısının Münxendə yerli telekanallara müsahibəsi zamanı bəyan etdiyi məqamlar Azərbaycanın işğala son qoyaraq öz ərazi bütövlüyünü təmin etdiyini və indi qalib ölkə kimi sülh qurduğunu dünyaya bir daha xatırlatdı: "Həmişə olduğu kimi bizim mesajımız əməkdaşlığa, sülhə istiqamətləndirilib. İlk dəfədir ki, mən bu tədbirdə artıq sülhü əldə etmiş dövlət başçısı kimi iştirak edirəm. Əlbəttə, bu məsələ burada yəqin ki, gündəlikdə olacaq. Ona görə bizim mesajlarımız həmişə olduğu kimi, çox açıqdır, aydındır - əməkdaşlıq, sülh, tərəfdaşlıq. Təbii ki, Azərbaycanın həm təhlükəsizlik sahəsində artan rolu, bizim imkanlarımız, eyni zamanda iqtisadi inkişaf, enerji təhlükəsizliyi, nəqliyyat, bağlantılar, süni intellekt, yəni bütün bu məsələlər bu gün dünyanın əsas gündəliyini təşkil edir. Ona görə Azərbaycan da bu sahələrdə geridə qalmır".

Prezidentimizin ifadələri həqiqətən də Azərbaycanın diplomatik tarixində yeni müstəvinin təsdiqi, regionun gələcək memarlığını müəyyən edən strateji mesaj idi. Azərbaycan artıq münaqişə tərəfi kimi deyil, münaqişəni həll etmiş və yeni reallıqlar yaratmış dövlət kimi çıxış edir. Bu, beynəlxalq münasibətlər sistemində çox nadir hallarda rast gəlinən bir statusdur.

Dövlətimizin başçısının çıxışı göstərdi ki, Azərbaycan sülhü diktə edən tərəf olmaqla yanaşı, həm də regionun təhlükəsizlik qarantıdır. Cənab Prezidentin vurğuladığı əsas məqam odur ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan qətnamələrini özü icra edərək, əslində, beynəlxalq hüququn aliliyini bərpa etdi. Azərbaycan liderinin çıxışda sülh gündəliyi ilə yanaşı, ölkəmizin təşəbbüskarı olduğu nəqliyyat və enerji layihələrinə də xüsusi toxunması dövlətimizin, sadəcə, hərbi deyil, həm də iqtisadi mərkəz olduğunu sübut etdi. Bu çıxış Ermənistan-Azərbaycan münasibətlərinin artıq "keçmiş münaqişə" statusunda olduğunu və rəsmi Bakının diqqətinin artıq Böyük qayıdışa və regional inteqrasiyaya yönəldiyini dünya elitasına çatdıran ən kəsərli diplomatik gediş idi.

Sülh Şurasının 19 fevral 2026-cı ildə Vaşinqtonda keçirilən ilk iclasında Azərbaycanın postmünaqişə ölkəsi kimi sülh quruculuğu təcrübəsi qlobal barış çərçivələri üçün nümunə olaraq qiymətləndirildi. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan və Yaxın Şərqdə sülhün möhkəmləndirilməsi üçün yeni platforma olan Sülh Şurasında Azərbaycanın qurucu üzv kimi iştirakı ölkəmizin qlobal münasibətlər sistemindəki rolunun yeni mərhələyə yüksəldiyinin göstəricisidir. Sülh Şurasının Vaşinqtonda keçirilən ilk təsis iclasında Azərbaycanın postmünaqişə ölkəsi kimi təqdim etdiyi sülh quruculuğu təcrübəsi regional uğur olmaqla paralel, qlobal barış çərçivələri üçün universal "yol xəritəsi" kimi qiymətləndirildi. Bu, o deməkdir ki, beynəlxalq birlik Azərbaycanın 2020-ci ildən bəri həyata keçirdiyi hərbi-siyasi və humanitar strategiyanı, yəni işğala son qoyulması, ərazi bütövlüyünün bərpası və genişmiqyaslı quruculuq işlərinə başlanılması modelini dünyadakı digər münaqişələrin həlli üçün ən effektiv metod kimi qəbul edir.

Vaşinqton Sammitində Azərbaycanın iştirakı göstərdi ki, ölkəmiz Şərq və Qərb dəyərlərini özündə birləşdirən nadir balans yaradaraq, müsəlman dünyası ilə Qərb siyasi elitası üçün qəbulolunan sülh dilinə malikdir. Azərbaycanın bu platformadakı iştirakı ölkəmizin qlobal münasibətlər sistemindəki rolunun regional liderlikdən qlobal strateji tərəfdaşlıq mərhələsinə keçdiyini rəsmiləşdirdi. Bu, ABŞ-nin yeni xarici siyasət kursunda Azərbaycanı Avrasiya regionunun əsas sabitlik lövbəri kimi gördüyünün birbaşa sübutudur.

İclas çərçivəsində vurğulandığı kimi, Azərbaycanın təcrübəsi göstərdi ki, davamlı sülh yalnız güclü iqtisadi zəmin və suverenliyə qarşılıqlı hörmət üzərində qurula bilər. Bu yanaşma Sülh Şurasının gələcək fəaliyyətinin ana xəttini təşkil etməkdədir. Donald Tramp isə Azərbaycan və Ermənistan arasındakı sülhü tarixi nailiyyət kimi səciyyələndirdi. Vitse-prezident Ceyms Devid Vens liderlərin bu uğurdakı rolunu xüsusi vurğuladı. Sammit çərçivəsində Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən qeyri-rəsmi görüş sülhün davamlılığını bir daha təsdiqlədi.

Bu gün Azərbaycanın beynəlxalq nüfuzu üç əsas təməl üzərində yüksəlir. Bunlar postmünaqişə dövrünün uğurlu idarə edilməsi, qlobal güclərlə qurulan balanslı strateji tərəfdaşlıqlar və Avropa ilə Asiya arasında enerji, nəqliyyat və rəqəmsal körpü rolunu oynayan coğrafi-iqtisadi potensialdır. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi "ağıllı şəhər"lər, "ağıllı kənd"lər, hava limanları və infrastruktur layihələri müharibədən çıxmış ərazilərin sürətli reinteqrasiyası üçün praktiki model təqdim edir. Bu model təkcə fiziki bərpa deyil, həm də məcburi köçkünlərin ləyaqətli qayıdışını təmin edən Böyük qayıdış proqramı ilə sülhün sosial-iqtisadi dayanıqlığını göstərir. Eyni zamanda "Cənub qaz dəhlizi" vasitəsilə Azərbaycan qazını Avropaya çatdıran ölkəmiz yeni imzalanan Strateji Tərəfdaşlıq Xartiyası ilə bu əməkdaşlığı nüvə enerjisi, kritik mineralların tranziti və "yaşıl enerji" layihələri ilə genişləndirir. Xüsusilə TRIPP (Zəngəzur dəhlizi) layihəsi Avropa ilə Asiya arasında logistik təchizat zəncirlərini şaxələndirmək, regionda blokadaları aradan qaldırmaq və bütün tərəflər üçün qazanc prinsipinə əsaslanan iqtisadi inteqrasiyanı təmin etmək potensialına malikdir. Proqnozlara görə, bu dəhliz Şərq-Qərb yükdaşımalarının müddətini 15 günə qədər qısaltmaqla yanaşı, region ölkələrinin ÜDM-də əhəmiyyətli artımına səbəb olacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, milli maraqlara sadiqliyi və yüksək liderlik keyfiyyətləri beynəlxalq aləmdə bir model kimi qəbul edilir. Davos İqtisadi Forumu çərçivəsində dünya liderlərinin səsləndirdiyi müsbət fikirlər də göstərdi ki, Azərbaycanın xarici siyasət fəlsəfəsinin əsasında duran dialoq, suverenlik və beynəlxalq hüquq prinsipləri ölkənin sabit inkişafına xidmət edir.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycan 2020-ci ildə regional münaqişəni həll edərək de-fakto sülhə nail olub və 2025-ci ilin avqustundan etibarən atəşkəs pozulmayıb. Hazırda yekun sülh müqaviləsinin imzalanması üçün əsas şərt Ermənistan konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılmasıdır. Bu dəyişikliklər edilən kimi sülh müqaviləsi ertəsi gün imzalana bilər. Azərbaycan öz müstəqilliyini və ərazi bütövlüyünü qoruyaraq, sülhün və əməkdaşlığın təşviqi istiqamətində regionda lider, dünyada isə nüfuzlu tərəfdaş statusu qazanıb. Azərbaycanın təqdim etdiyi model göstərir ki, güclü ordu həm də ən böyük sülh diplomatıdır. Münaqişəni hərbi yolla həll edib dərhal sonra qarşı tərəfə 5 maddəlik sülh təklifi təqdim etmək isə dünya siyasi tarixində nadir rast gəlinən konstruktivlik nümunəsidir. Bu gün Azərbaycan təkcə regional proseslərin iştirakçısı deyil, qlobal sülh gündəliyinin müəllifi, etibarlı tərəfdaş və gələcək nəsillərə nümunə göstəriləcək bir dövlət modelidir. Öz müstəqilliyini və ərazi bütövlüyünü polad iradə ilə qoruyan Azərbaycan bu gün regionda hərbi lider, dünyada isə nüfuzlu strateji tərəfdaş statusunu möhkəmləndirib. Azərbaycan qlobal sülh arxitekturasının müəllifi, enerji və nəqliyyat təhlükəsizliyinin təminatçısı, ən əsası isə öz taleyini özü yazan dövlət modelidir.

Bu gün Bakıdan ucalan sülh sədası Vaşinqtondan Davosa, Əbu-Dabidən Münxenə qədər bütün dünyada əks-səda doğurur. Prezident İlham Əliyevin polad iradəsi ilə formalaşan Azərbaycan modeli sübut etdi ki, əsl suverenlik həm döyüş meydanında qalib gəlmək, həm də sülh masasında diktə etmək bacarığını təmin etməkdir. Artıq dünya Azərbaycanı təkcə enerji resursları ilə zəngin ölkə kimi deyil, sülhün strateji memarı və yeni beynəlxalq nizamın aparıcı qüvvəsi kimi qəbul edir. Tarixin bu mərhələsində Azərbaycan taleyini özü yazmaqla yanaşı, həm də gələcək nəsillərə ləyaqətli, sabit və firavan bir dünya mirası qoyur.

*Səttar MÖHBALIYEV,*
*Milli Məclisin deputatı*

# Azərbaycan sabitliyin və əmin-amanlığın ünvanıdır

Azərbaycan qlobal arenada mürəkkəb geosiyasi proseslərin getdiyi bir dövrdə sabitliyini və təhlükəsizliyini qoruyub saxlayan dövlətlərdəndir. Ölkəmizin yerləşdiyi coğrafiya müxtəlif maraqların toqquşduğu bir məkandır. Yaxın coğrafiyadakı müharibələr, qarşıdurmalar və siyasi gərginliklər fonunda Azərbaycanın daxili sabitliyini təmin etməsi düşünülmüş və məqsədyönlü siyasətin nəticəsidir.

### Azərbaycan nümunəvi ölkədir

Hazırda dünyada baş verən hərbi qarşıdurmalar, siyasi gərginliklər, etnik və dini münaqişələr getdikcə vəziyyəti çətinləşdirir. Müxtəlif regionlarda baş verən bu proseslər insanların həyatına, ölkələrin iqtisadiyyatına və milli inkişafına ağır təsir edərək bəzən illərlə aradan qaldırıla bilməyən fəsadlar doğurur. Müharibələr və müxtəlif böhranlar xalqların və günahsız insanların ağır məhrumiyyətlərə məruz qalması ilə nəticələnir.

Belə bir şəraitdə Azərbaycan regional və qlobal baxımdan sabitliyin əsas nümunəsini ortaya qoyur. Müxtəlif coğrafi və siyasi təzyiqlərin, qonşu ölkələrdə davam edən mürəkkəb hadisələrin fonunda respublikamızın əmin-amanlıq şəraitində inkişaf etməsi diqqətəlayiqdir. Dövlətimizin uğurlu idarəçiliyi və xalqımızın milli həmrəyliyi Azərbaycanın möhkəm və davamlı stabilliyini təmin edən əsas amillər sırasındadır.

Tarixə nəzər salsaq görərik ki, Azərbaycanın sabitliyi asan əldə olunmayıb. 1990-cı illərin əvvəllərində respublikamızda yaranan xaotik vəziyyət, dövlət idarəçiliyindəki boşluqlar və separatçı meyillər ölkəmizin əsas inkişaf hədəflərinə ciddi təhlükə törətmişdi. O dövrdə yaşanan qarşıdurmalar, hərbi qarşılaşmalar və siyasi çəkişmələr cəmiyyət üçün ağır sınaqlar yaradaraq dövlətimizin gələcəyini sual altında qoymuşdu.



Yalnız 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə siyasi və ictimai stabillik təmin edilmişdi. Bu stabil şərait dövlətimizin strateji hədəflərini həyata keçirməsi üçün əhəmiyyətli zəmin yaratmışdı. Qanunsuz silahlı birləşmələrə qarşı görülən tədbirlər, milli təhlükəsizlik sahəsində atılan addımlar Azərbaycanın inkişaf yolunda önəmli dönüş nöqtəsi olmuşdu.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında respublikamızın nailiyyətləri həm də sabitliyin bariz göstəricisidir. Azərbaycan dünyada təhlükəsizliyi və əmin-amanlığı ilə seçilən ölkələr sırasındadır. Cinayətkarlığın aşağı səviyyəsi, beynəlxalq tədbirlərin keçirilməsi mərkəzinə çevrilməsi, turizmin inkişafı və xarici sərmayələrin artması sabitliyin real nəticələridir.

44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması və Qarabağda erməni separatçılığının darmadağın edilməsi regiondakı təhlükəsizliyi gücləndirdi. Azərbaycan bütövlükdə Cənubi Qafqaz regionunda sabitliyin qorunmasında həlledici rol oynadı.

Prezident İlham Əliyev respublikamızdakı sabitliklə bağlı deyib: "Ölkəmizdə sabitlik hökm sürür. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşamışdır. Bu gün dünyada baş verən hadisələr hamımızın gözünün qarşısındadır. Yeni müharibələr, qarşıdurmalar, münaqişələr alovlanır. Dünyanın müxtəlif bölgələrində qanlı toqquşmalar davam edir. Azərbaycan isə sülh, əmin-amanlıq, təhlükəsizlik və sabitlik şəraitində yaşayır. Əminəm ki, bundan sonra sabitlik və əmin-amanlıq əbədi olacaqdır".

### "Sabitlik inkişafın və təhlükəsizliyin əsasıdır"

Azərbaycanın dayanıqlı inkişafı sabitliyə əsaslanır. O cümlədən ölkəmizdə müxtəlif etnik və dini qruplar arasında qarşılıqlı hörmət və dostluq şəraiti qorunub saxlanılır, milli və mədəni fərqliliklər normal şəkildə yaşanır.

Beləliklə, sabitlik ölkəmizin həm daxili, həm də xarici siyasətinin uğurlu nəticələrini təmin edir. İqtisadi inkişaf, beynəlxalq nüfuz, xarici sərmayə və turizm sahəsində əldə olunan uğurların təməlində məhz sabitlik dayanır.

Azərbaycan dünyaya stabil, təhlükəsiz və inkişaf edən bir dövlət nümunəsi təqdim edir. Xalqın milli həmrəyliyi, uğurlu idarəçilik və strateji məqsədlər sabitliyin qorunmasında əsas faktorlardır. Respublikamız həm də regionda və dünyada əmin-amanlığın və təhlükəsizliyin simvolu olaraq önə çıxır.

Azərbaycanın təcrübəsi göstərir ki, sabitlik heç bir halda asanlıqla əldə edilmir, amma qorunması və möhkəmləndirilməsi dövlətin gücü və xalqın birliyi ilə mümkündür. Dünyada mürəkkəb hadisələr baş verdiyi bir zamanda respublikamızın nailiyyətləri sabitliyin əhəmiyyətini bir daha ortaya qoyur. Bu da ölkəmizin həm regionda, həm də qlobal siyasətdə mövqeyini gücləndirir və onu bir çox beynəlxalq proseslərdə etibarlı tərəfdaşa çevirir.

Bu gün ölkəmiz elə bir qüdrətə sahibdir ki, heç bir qüvvə onun yaratdığı reallığı, sabitlik şəraitini dəyişə bilməz.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Sərhədləri aşan güc

Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclası Azərbaycanın qlobal enerji xəritəsindəki strateji rolunu bir daha təsdiq edir. Bu mötəbər tədbirlər sadəcə enerji layihələrinin müzakirəsi deyil, həm də Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyinin güclənməsi baxımından müstəsna əhəmiyyət kəsb edir. Bu kimi platformalar Azərbaycanın ənənəvi qaz ixracatçısı olmaqla yanaşı, bərpaolunan enerji sahəsində də regional liderə çevrilmək hədəflərini nümayiş etdirir.



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, "yaşıl enerji" gündəliyinin "Cənub qaz dəhlizi" kimi nəhəng bir layihə ilə paralel müzakirə olunması ölkəmizin qlobal iqlim hədəflərinə sadiqliyini və gələcəyin "yaşıl iqtisadiyyat" modelinə inteqrasiyasını sürətləndirir: "Bu iclaslar, həmçinin beynəlxalq əməkdaşlığın genişləndirilməsi, yeni investisiyaların cəlb edilməsi və Xəzər dənizinin bərpaolunan enerji potensialının dünya bazarlarına çıxarılması üçün strateji bir yol xəritəsi rolunu oynayır. Azərbaycanın təşəbbüsü ilə yaradılan bu platforma on iki illik fəaliyyəti dövründə ən mürəkkəb regional ssenarilərdən belə uğurla keçərək, beynəlxalq enerji təhlükəsizliyinin mərkəzinə çevrilib. Prezident İlham Əliyevin vurğuladığı kimi, illər öncə təməli qoyulan bu əməkdaşlıq bu gün tərəfdaş ölkələrin gündəlik həyatında birbaşa hiss olunan real nəticələrə söykənir. "Sonuncu dəfə bu auditoriya qarşısında çıxış edərkən bildirmişdim ki, biz 12 ölkəyə qaz tədarük edirik. Hazırda isə Azərbaycan qazının istehlakçısı olan ölkələrin sayı 16-ya çatıb. Bu göstərici üzrə Azərbaycan boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına əsasən dünyada birinci yerdədir. Cari ildə "Azəri-Çıraq-Günəşli" yatağının dərin qaz laylarından hasilatın başlanmasını gözləyirik. Hasilatın ötən il başlanacağı gözlənilirdi, lakin bu, baş vermədi. Bununla belə, hasilatın məhz cari ildə başlanacağına əminik. İki-üç il ərzində "Abşeron" yatağının tammiqyaslı işlənmə mərhələsinin başlanmasını gözləyirik ki, bu da "Abşeron"dan qaz hasilatını üç dəfə artıracaq". Dövlət başçısı, həmçinin qeyd edib ki, "Ümid" yatağının ikinci mərhələsi üzrə qaz hasilatına başlanması da gözlənilir: " Təbii qazın əsas mənbəyi olan "Şahdəniz" yatağımızla bağlı olaraq deyə bilərəm ki, 2028-ci ildə "Şahdəniz"in yeni mərhələsi üzrə hasilatın başlanmasını gözləyirik. Qeyd olunan bütün hasilat profilləri maksimum istehsal səviyyəsində 10-15 milyard kubmetr həcmində əlavə qaz əldə etməyə imkan verəcək. Daha əvvəl qeyd etdiyim kimi, bunun üçün yeni bazarlara, mövcud boru kəməri sisteminin genişləndirilməsinə ehtiyac var və əlbəttə, qazpaylama şəbəkəmizin şaxələndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi zəruridir".

Deputat deyib ki, qaz təchizatının Avropa hüdudlarından kənara çıxması Azərbaycanın həm istehsalçı, həm də humanist dövlət kimi mövqeyini gücləndirir. Xüsusilə Suriyaya başladılan 1,5 milyard kubmetrlik qaz tədarükü bölgədəki elektrik enerjisi qıtlığının aradan qaldırılmasında mühüm rol oynayır. Bu addım təkcə bir ölkəyə elektrik enerjisi vermək deyil, həm də biznes fəaliyyətinin canlanmasına və insanların rifahına töhfədir. Çünki elektrik enerjisi olmadan inkişaf mümkün deyil. Şaxələndirmə həm istehlakçı, həm də bizim kimi istehsalçı ölkələr üçün həyati əhəmiyyət daşıyır.

K.Bayramovun sözlərinə görə, dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycanın gələcək enerji strategiyası ənənəvi resurslarla müasir texnologiyaların mükəmməl vəhdəti üzərində qurulur: "Ölkəmiz 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6-8 qiqavat elektrik enerjisi əldə etməyi hədəfləyir ki, bu da həm ixrac imkanlarımızın genişlənməsi, həm də daxili qaz istehlakının səmərəli şəkildə əvəzlənməsi deməkdir. Bu nəhəng enerji potensialı artan iqtisadiyyatın, sənayenin və xüsusilə süni intellekt, data mərkəzləri kimi yüksək texnoloji sahələrin enerji ehtiyaclarını qarşılamaq üçün mühüm zəmin yaradır. Bu strateji hədəflərin reallaşmasında ABŞ ilə imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası müstəsna rol oynayır. Dünyanın ən qüdrətli dövləti ilə enerji, süni intellekt və bağlılıq kimi sahələrdə qurulan bu tərəfdaşlıq Azərbaycanın planlarını daha real və əlçatan edir. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə icra olunan hidroelektrik layihələri ölkənin enerji sisteminə artıq 307 meqavat güc qazandırıb və yaxın illərdə bu rəqəmin ikiqat artırılması nəzərdə tutulur. Beləliklə, hidroenerji, günəş, külək və termal enerji mənbələrinin qaz resursları ilə birgə kombinasiyası Azərbaycanın enerji təhlükəsizliyini sarsılmaz edir. Dövlət başçısı iqlim dəyişikliyi ilə mübarizədə və təmiz planet naminə atılan addımlarda praqmatizmin və realizmin vacibliyini xüsusi qeyd edir. Xəzər dənizinin dayazlaşması kimi fəsadlar iqlim məsələlərinə ciddi yanaşmağı tələb etsə də, mövcud reallıqda qazıntı yanacağını tamamilə inkar etmək qeyri-mümkündür. Azərbaycanın 100 illik qaz ehtiyatı olduğu halda bərpaolunan enerjiyə milyardlarla investisiya yatırması ölkəmizin həm milli maraqlarını qoruduğunu, həm də qlobal ekoloji məsuliyyətini yüksək səviyyədə dərk etdiyini nümayiş etdirir. Bu yanaşma, enerji keçidinin ideoloji xəyallarla deyil, praqmatik həll yolları ilə idarə olunmasının ən uğurlu nümunəsidir".

K.Bayramov əlavə edib ki, bu çoxşaxəli fəaliyyət həm ölkəmizin iqtisadi suverenliyini gücləndirir, həm də Avrasiyanın enerji təhlükəsizliyi sistemində Azərbaycanın imzasını silinməz edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Sabitlik və qarşılıqlı əməkdaşlıq ünvanı



Azərbaycanın bu gün sərgilədiyi inkişaf modeli sübut edir ki, milli maraqlara söykənən daxili sabitlik, həm iqtisadi inkişafın, həm də qlobal etimadın ən etibarlı təminatıdır. Hazırkı dünya nizamında dövlətlərin gücü təkcə onların iqtisadi potensialı, hərbi qüdrəti ilə deyil, həm də daxili sabitliyi qorumaq və sülh yaratmaq bacarığı ilə ölçülür. Bu gün geosiyasi kataklizmlərin, müharibələrin və daxili iğtişaşların girdabında boğulan bir çox coğrafiyanın fonunda Azərbaycan sürətlə inkişaf edən, təhlükəsiz və etibarlı dövlət olaraq diqqət çəkir.

Prezident İlham Əliyevin VII çağırış Milli Məclisin ilk iclasındakı tarixi çıxışı zamanı bəyan etdiyi fikirlər də ölkəmizin bu strateji kursunu dolğunluğu ilə əks etdirir: "Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq uzun illərdir təmin edilir, sabitlik bütün dünya üçün nümunə ola bilər. Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz. Bu gün sabitliyi pozulan ölkələrin vəziyyətini və aqibətini hər kəs yaxşı görür. Bu, təhlükəsizliyin, inkişafın, xarici sərmayənin cəlb edilməsi üçün başlıca şərtdir. Bizim təhlükəsizliklə bağlı bütün digər tədbirlər lazımi səviyyədə təmin edilir. Azərbaycan güclü dövlətdir və ildən-ilə bizim gücümüz artmaqdadır".

## Etibarlı tərəfdaşlıq

Prezidentin bu bəyanatı Azərbaycanın milli gücünü, dünya nizamında tutduğu nümunəvi yerini və rolunu bir daha gözlər önünə sərir. Bu gün Cənubi Qafqazda hökm sürən de-fakto sülh şəraiti məhz Qarabağda qazanılan möhtəşəm Zəfərin məntiqi nəticəsidir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin etməklə həm də regionda yeni əməkdaşlıq və inkişaf erasının təməlini qoydu. Üç onillik ərzində münaqişədən, müharibədən əziyyət çəkən bölgə indi yenidən dirçəlir və gələcək rifaha doğru əmin addımlar atır.

Azərbaycanın yürütdüyü balanslı və milli maraqlara söykənən xarici siyasət onu beynəlxalq arenada güvənilən tərəfdaş statusuna yüksəldib. Təsadüfi deyil ki, ölkəmiz bu gün Şərqlə Qərbin, Şimalla Cənubun kəsişməsində yerləşən ən etibarlı logistik mərkəz adını daşıyır. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) mərkəzi hissəsi olan Azərbaycanın bu qlobal tədarük zəncirinin bərpasındakı rolu diqqət mərkəzindədir. Vaşinqton Sammitində Zəngəzur dəhlizinin (TRIPP -The Trump route for international peace and prosperity) açılması ilə bağlı əldə olunan razılaşma regionun iqtisadi gələcəyinə mühüm töhfədir və kommunikasiyaların bərpası ümumi rifaha xidmət edir.

Enerji təhlükəsizliyi məsələsində isə Azərbaycan artıq Avropanın enerji xəritəsini yenidən formalaşdıran aktor kimi çıxış edir. Hazırda Avropa İttifaqının 10 üzv dövlətinin ölkəmizdən qaz alması rəsmi Bakının qlobal enerji arxitekturasındakı rolunu göstərir. Lakin Azərbaycanı cəlbedici edən təkcə onun təbii və bərpaolunan sərvətləri, mühüm geostrateji mövqeyi deyil, həm də malik olduğu sarsılmaz sabitlik mühitidir. İnvestorlar üçün "təhlükəsiz ada" funksiyasını yerinə yetirən ölkəmiz, ABŞ-dən Çinə qədər dünya nəhəngləri ilə strateji əməkdaşlıq qurmağa nail olub. Ötən il Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanması böyük uğurdur. Eləcə də bu il fevralın 10-da Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanması çoxşaxəli və balanslı diplomatiyanın mühüm nəticəsidir.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasında təsisçi üzv kimi ölkəmizin iştirakı isə Azərbaycanın artıq sadəcə regional deyil, qlobal sülh platformalarında söz sahibi olduğunun təzahürüdür.

Sülhü yalnız sözdə deyil, konkret addımları, diplomatik təşəbbüsləri və tərəfdaşlıq layihələri ilə əyani şəkildə dəstəkləyən Bakı daim dialoq və əməkdaşlığı prioritet hesab edir, siyasi iradə və məsuliyyətli siyasətlə barışın mümkün olduğunu ortaya qoyur.

## Quru sərhədlərin strateji mühafizəsi

Dünyada və xüsusilə yaxın regionda baş verən gərgin geosiyasi proseslər, silahlı münaqişələr və müharibələr dövlətləri öz təhlükəsizlik mexanizmlərinə yenidən baxmağa vadar edir. Bu kontekstdə Azərbaycanın quru sərhədlərini bağlı saxlaması qərarının, sadəcə texniki deyil, tamamilə uzaqgörən dövlət strategiyası olduğu bir daha öz təsdiqini tapır.

Prezident İlham Əliyev VII çağırış Milli Məclisdəki çıxışında bu məsələnin həyati əhəmiyyətini belə ifadə edib: "Bizim quru sərhədlərimiz hələ də bağlıdır, yəni vətəndaşların gəliş-gedişləri üçün. Başa düşürük ki, bu, müəyyən çətinliklər yaradır. Ancaq bugünkü geosiyasi vəziyyət də hamının gözü qarşısındadır, daxili təhlükəsizliyi təmin etmək üçün bu, yeganə düzgün addımdır".

Dövlətimizin başçısı onu da vurğulayıb ki, daxili təhlükəsizlik ilə bağlı bütün lazımi tədbirlər görülür: "Mən tam əminliklə deyə bilərəm ki, son illər ərzində quru sərhədlərimizin bağlı olması bizi çox böyük fəlakətlərdən xilas etdi. Hətta bu gün - sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlər olur və bu hərəkətlərin qarşısı alınır. Ona görə sərhədlərimizin qorunması bizi xarici risklərdən qoruyacaq, daxili risklər Azərbaycanda yoxdur".

Bu yanaşma göstərir ki, dövlət üçün ən ali dəyər vətəndaşın can təhlükəsizliyi və ölkənin daxili asayişidir. Regional qeyri-müəyyənliklərin artdığı bir dövrdə sərhədlərin bu formatda qorunması kənar təhdidlərin ölkə daxilinə sızmasının qarşısında ən güclü səddir.

Azərbaycanın bu gün əldə etdiyi uğurların fundamental sütunu daxili sabitlik və milli birlikdir. Sabitlik olmayan yerdə nə nəhəng infrastruktur layihələri, nə də geniş iqtisadi islahatlar uğur qazana bilər. Ölkəmiz sübut etdi ki, hətta ən mürəkkəb geosiyasi şəraitdə belə milli maraqları hər şeydən üstün tutaraq, müstəqil siyasət yürütmək və xalqın təhlükəsizliyini qlobal risklərdən qorumaq mümkündür.

Bu gün Azərbaycan təkcə öz hüdudları daxilində deyil, həm də geniş coğrafiyada sabitlik adası kimi tanınır. Təkcə Bakıda deyil, respublikamızın əksər bölgələrində keçirilən mötəbər beynəlxalq tədbirlər, qlobal böhranların həlli üçün təklif olunan dialoq platformaları dövlətimizin artan gücünü və yüksək nüfuzunu göstərir. Güclü Azərbaycanın həm də regional təhlükəsizlikdə vacib rol oynaması təkzibolunmaz reallıqdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən bu uzaqgörən kurs, ölkəmizi gələcək onilliklərin mümkün böhranlarından qorumaqla yanaşı, onu müasir dünya nizamının ən stabil və qüdrətli dövlətlərindən biri kimi möhkəmləndirir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Seçkilər Ermənistanın hansı yolla gedəcəyini müəyyən edəcək

Azərbaycan tarixi Zəfər qazanmaqla, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə regionda yeni geosiyasi reallıq yaradıb. Cənubi Qafqaz regionunda artıq geriyə dönməz xarakter alan sülh gündəliyinin müəllifi Prezident İlham Əliyevdir. Azərbaycan yalnız sülh gündəliyini təqdim etmir, buna nail olmaq üçün sistemli, qətiyyətli və konkret addımlar atır.



Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, bu gün regionda de-fakto sülh var və bunu hüquqi çərçivəyə salmaq üçün sülh sazişi artıq imzalanmalıdır: "Ermənistan konstitusion əsasda Azərbaycana qarşı bütün ərazi iddialarına son qoymalıdır ki, regionda davamlı və qəti sülh olsun. Ermənistan tərəfi sülh istəyirsə, ərazi iddialarına birdəfəlik son qoyaraq konstitusiyasına dəyişiklik etməlidir".

Cənubi Qafqaz regionunun geosiyasi transformasiya mərhələsindən keçdiyini qeyd edən deputat əlavə edib ki, bu kontekstdə Ermənistanda keçiriləcək parlament seçkiləri və ardınca mümkün referendum təşəbbüsü təkcə daxili siyasi hadisə deyil, həm də regional təhlükəsizlik və sülh gündəliyi baxımından vacib mərhələ kimi qiymətləndirilir. Bu mənada parlament seçkiləri faktiki olaraq Ermənistan cəmiyyətinin hansı strateji yolu seçəcəyini müəyyənləşdirəcək: normallaşma və regional inteqrasiya, yoxsa daha riskli siyasi xətt. "Seçkilərdən sonra gündəmə gələcək əsas məsələ xüsusilə konstitusiya dəyişiklikləri ilə bağlı olan referendumdur. Ermənistan konstitusiyasından Azərbaycanla bağlı ərazi iddialarına istinad edən müddəalar mütləq şəkildə çıxarılmalıdır. Sülh müqaviləsinin imzalanması üçün əsas və haqlı şərt budur. Əgər referendum konstitusion dəyişiklikləri təsdiqləyərsə, sülh müqaviləsinin imzalanmasının qarşısında heç bir əngəl qalmayacaq. Bununla da regionumuzda üzunmüddətli sülh və sabitlik üçün hüquqi baza formalaşacaq. Bu proses sərhədlərin delimitasiyasını, regional kommunikasiyaların açılması prosesini sürətləndirməklə yanaşı, Cənubi Qafqazda iqtisadi əməkdaşlıq üçün yeni mərhələnin də əsasını qoyacaq", - deyə o bildirib.

V.Rəhimzadə vurğulayıb ki, əks halda referendumun uğursuzluğu sülh prosesini ləngidə və ya qeyri-müəyyən vəziyyətə sala bilər ki, bundan zərərçəkən tərəf yenə də Ermənistan olacaq. Ona görə də Ermənistan cəmiyyəti faktiki olaraq seçim qarşısındadır: yeni reallıqları qəbul edərək normallaşma yoluna davam etmək, sülh şəraitində yaşamaq, yoxsa yenə dalan dövlət statusunu qoruyub saxlamaq.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *Pakistanlı ekspert:* "Azərbaycanın keçdiyi inkişaf yolu bir çox ölkələr üçün ilham mənbəyidir"

"XXI əsrin diplomatiya səhnəsində dünya geosiyasətinin ənənəvi sərhədlərini aşan yeni güc mərkəzlərinin formalaşmasının şahidi oluruq. Bu prosesdə Şərq ilə Qərbin kəsişdiyi mühüm coğrafi nöqtədə yerləşən Azərbaycan xüsusi rol oynayır. Son illərdə ölkə yalnız regional deyil, həm də qlobal səviyyədə strateji əhəmiyyət daşıyan dövlətə çevrilib. Bu transformasiya təsadüfi deyil. Azərbaycanın bugünkü mövqeyi Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və uzaqgörən dövlət siyasətinin nəticəsidir".

Bunu AZƏRTAC-a açıqlamasında Dayanıqlı İnkişaf üçün Kəmər və Yol Təşəbbüsünün (BRISD) sədri, Pakistan Gənclər Hərəkatının lideri Qaiser Navab söyləyib.

O qeyd edib ki, qlobal səviyyədə qeyri-sabitlik, geosiyasi gərginlik və iqtisadi dalğalanmaların artdığı bir dövrdə Azərbaycan praqmatik diplomatiya, iqtisadi dayanıqlıq və humanitar məsuliyyətin nümunəsi kimi çıxış edir. Dayanıqlı İnkişaf üçün Kəmər və Yol Təşəbbüsünün baxışına görə Azərbaycan yalnız tərəfdaş ölkə deyil, Avrasiyada yeni əməkdaşlıq və sabitlik modelinin əsas sütunlarından biridir. Bu model qitələri birləşdirən ticarət və enerji marşrutlarının inkişafı ilə yanaşı, xalqlar arasında əməkdaşlığın gücləndirilməsinə də xidmət edir.

"Müasir beynəlxalq münasibətlər sistemi çox vaxt qarşıdurma və rəqabət üzərində qurulmuş kimi görünür. Bir çox hallarda dövlətlər öz maraqlarını yalnız digər tərəfin itkiləri hesabına təmin etməyə çalışır. Azərbaycan isə fərqli yanaşma nümayiş etdirir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət milli maraqların qorunması ilə yanaşı, beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəlmiş çoxvektorlu diplomatik xətt üzərində qurulub. Bu yanaşma ölkənin müstəqil siyasət yürütməsinə imkan verir və onu müxtəlif siyasi və iqtisadi mərkəzlər arasında etibarlı tərəfdaş kimi tanıdır. Azərbaycanın diplomatik strategiyasının əsas xüsusiyyətlərindən biri onun balanslı və praqmatik olmasıdır. Ölkə Avropa dövlətləri, türk dünyası, həmçinin Asiya regionu ilə güclü əməkdaşlıq münasibətləri qurub. Bu siyasət Azərbaycanın beynəlxalq arenada nüfuzunu artırmaqla yanaşı, iqtisadi və



siyasi sabitliyini də möhkəmləndirib. Bu baxımdan Azərbaycan qlobal logistika və enerji xəritəsində mühüm mövqeyə sahibdir. Ölkə Avropa ilə Asiyanı birləşdirən Orta dəhlizin əsas halqasına çevrilib", - deyə pakistanlı ekspert vurğulayıb.

BRISD-nin sədri Azərbaycanın iqtisadi layihələr həyata keçirməklə yanaşı, humanitar təşəbbüslərə də böyük önəm verdiyini diqqətə çatdırıb: "Qlobal pandemiya dövründə və digər çətin humanitar situasiyalarda Azərbaycan logistika imkanlarından beynəlxalq yardımın çatdırılması üçün istifadə edib. Ölkə müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək humanitar dəhliz kimi çıxış edib və ehtiyacı olan dövlətlərə yardım göstərib. Bu yanaşma Azərbaycanın beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi qəbul edilməsinə mühüm töhfə verib. Azərbaycanın qlobal rolundan danışarkən enerji təhlükəsizliyi məsələsinə xüsusi diqqət yetirmək lazımdır. Ölkə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan əsas tərəfdaşlardan biridir. "Cənub qaz dəhlizi" layihəsi vasitəsilə Azərbaycan enerji resurslarını beynəlxalq bazarlara sabit və etibarlı şəkildə çatdırır. Bu layihə yalnız enerji ixracını genişləndirmir, həm də enerji bazarlarında sabitlik və əməkdaşlıq mühitinin formalaşmasına xidmət edir. Azərbaycanın enerji siyasəti resurslardan geosiyasi təzyiq aləti kimi istifadə etməyə deyil, qarşılıqlı fayda və əməkdaşlıq prinsiplərinə əsaslanır".

Cənubi Qafqaz regionunun uzun illər münaqişələr və geosiyasi gərginliklərlə xarakterizə olunduğunu xatırladan Qaiser Navab qeyd edib ki, son illər regionda yeni reallıqlar formalaşmağa başlayıb. Azərbaycanın ərazi bütövlüyünün bərpası regionun siyasi xəritəsində mühüm dəyişiklik yaradıb və beynəlxalq hüququn prinsiplərinin bərpasına töhfə verib. Bu proses yalnız hərbi və siyasi nəticə deyil, həm də regionda yeni inkişaf mərhələsinin başlanğıcıdır: "Prezident İlham Əliyevin regional siyasətinin əsas məqsədlərindən biri Cənubi Qafqazda davamlı sülh və əməkdaşlıq mühitinin yaradılmasıdır. Azərbaycan region ölkələri arasında iqtisadi əməkdaşlığın genişləndirilməsini və yeni nəqliyyat əlaqələrinin qurulmasını dəstəkləyir. Bu yanaşma uzunmüddətli perspektivdə regionun sabitliyinə və rifahına xidmət edə bilər. Geosiyasətdə çox vaxt vurğulandığı kimi, davamlı sülh yalnız güclü və sabit dövlətlərin təşəbbüsü ilə mümkün olur. Azərbaycanın həyata keçirdiyi siyasət də məhz bu prinsipə əsaslanır. Azərbaycanın keçdiyi inkişaf yolu bir çox inkişaf etməkdə olan ölkələr üçün ilham mənbəyidir. Bu yol göstərir ki, güclü dövlət quruculuğu, strateji diplomatiya və dayanıqlı iqtisadi siyasət sayəsində ölkələr qlobal sistemdə öz layiqli yerini tuta bilər. Azərbaycanın bugünkü mövqeyi məhz belə bir inkişaf modelinin uğurlu nəticəsidir".

# *Milli maraqlardan qlobal təsirə:* Prezident İlham Əliyevin "Strateji diplomatiya" fəlsəfəsi

**2020**-ci ildən sonra Azərbaycan dövlət suverenliyinin faktiki bərpası ilə klassik Vestfal prinsiplərini (ərazi nəzarəti və daxili işlərə müdaxilənin yolverilməzliyi) gücləndirdi.

Prezident İlham Əliyevin illərlə apardığı diplomatik diskursun real nəticə ilə üst-üstə düşməsi, koherent uyğunluq xarici siyasət baxımından Azərbaycanın ərazi bütövlüyü prinsipinin ardıcıl, sistemli şəkildə beynəlxalq platformalarda müdafiəsi, enerji və nəqliyyat layihələrində öhdəliklərin etibarlı icrası, regional güc balansının çoxvektorlu, lakin prinsipial xəttin qorunması eyni zamanda nəticə etibarilə normativ mövqeyinin praktik geosiyasi nəticəyə transformasiya olunması ilə səciyyələnir. Müasir beynəlxalq münasibətlər sistemi klassik güc balansı modelindən çıxaraq "marşrutlar geosiyasəti" mərhələsinə qədəm qoymuş, dünya nizamı "liberal hegemonluq" dövründən kəskin "Tranzaksional Realizm" (maraqların birbaşa mübadiləsi) mərhələsinə keçid almışdır. Qlobal rəqabət yalnız ÜDM göstəriciləri, enerji bazarları və ya maliyyə alətləri ilə ölçülmür. Mübarizə fiziki və rəqəmsal infrastrukturun nəzarəti, alternativ nəqliyyat dəhlizlərinin qurulması və kommunikasiya xətlərinin təhlükəsizliyi üzərində cəmləşir. Bu yeni geosiyasi reallıqda üstünlük resurs bolluğu ilə deyil, bağlantıların idarə olunması və alternativ marşrutların təşkili ilə müəyyən olunur.

Belə bir mürəkkəb və dəyişkən mühitdə Prezident İlham Əliyev tərəfindən formalaşdırılmış xarici siyasət kursu klassik balans modelindən daha geniş strateji çərçivə təqdim edir. Bu kursu siyasi elm prizmasından "poaktiv balanslaşdırma" kimi xarakterizə etmək mümkündür. Əgər ənənəvi balans siyasəti böyük güclər arasında neytral mövqe saxlamağı hədəfləyirsə, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin tətbiq etdiyi model aktiv diplomatik manevr, çoxşaxəli tərəfdaşlıq və geoiqtisadi təşəbbüskarlıq üzərində qurulmuşdur. Ölkəmiz heç bir güc blokuna qoşulmadan, eyni zamanda bütün əsas mərkəzlərlə işləyə bilən çevik diplomatik arxitektura qurmuşdur. "Azərbaycan heç vaxt seçim qarşısında qalan ölkə olmayıb, biz əməkdaşlıq platformasıyıq, onları birləşdiririk".

Yəni Azərbaycan blok siyasətindən uzaq dayanaraq körpü-dövlət konsepsiyasını prioritetləşdirdiyini, çoxtərəfli geosiyasi identifikasiyanı, "bloklararası körpü" modeli üzərində xarici siyasət modeli qurduğunu bəyan edir. Bu istiqamət ölkəyə həm Qərb institutları ilə əməkdaşlıq etmək, həm də Şərq bazarları ilə iqtisadi inteqrasiyanı dərinləşdirmək imkanı verir. Bu model sayəsində Azərbaycan regional rəqabətin obyektindən subyektinə çevrilmişdir. Enerji ixracatçısı imicindən çıxaraq tranzit, logistika və rəqəmsal infrastruktur platforması kimi çıxış etməsi ölkəmizin beynəlxalq sistemdə funksional çəkisini artırmışdır.

Prezident İlham Əliyevin xarici siyasət kursunun digər mühüm elementi geoiqtisadi imkanların siyasi kapitala transformasiyasıdır. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən siyasi müdriklik və uzaqgörənliklə qoyulan enerji diplomatiyası ilkin mərhələdə Azərbaycanın təhlükəsizlik zəmanətini möhkəmləndirən alət idisə, hazırda nəqliyyat dəhlizləri və alternativ marşrutlar ölkənin strateji mövqeyini daha da gücləndirir.

Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət kursu konfrontasiya deyil, idarəolunan rəqabət prinsipinə əsaslanır, böyük güclərlə münasibətlər emosional ritorika üzərində deyil, praqmatik maraq balansı üzərində qurulur. Bu ölkəyə həm təhlükəsizlik risklərini minimumlaşdırmaq, həm də yeni tərəfdaşlıq formatları yaratmaq imkanı verir. Bu siyasi xətlə Azərbaycan həm diplomatik çevikliklə, həm də iqtisadi dayanıqlıq və instutusional sabitliklə təmin olunan, "tarazlayıcı aktor" funksiyasını regional güc balansında uğurla yerinə yetirir.

İlham Əliyevin son illərdə formalaşdırdığı xarici siyasət xətti klassik balanslaşdırma modelindən çoxsaylı bir strategiyaya çevrilmişdir. Hərbi-siyasi çəkindirmə, enerji və nəqliyyat rıçaqları, diplomatik çeviklik və texnoloji modernləşdirmə alətlərinin paralel tətbiqini nəzərdə tutan bu siyasi kursu "ağıllı güc" yanaşması kimi xarakterizə etmək mümkündür. Bu müdrik siyasi yanaşmanın bəhrəsi olaraq son iki ildə qazanılan əsas strateji nailiyyət Azərbaycanın həm Qərb, həm də Şərq üçün alternativsiz tranzit və geoiqtisadi platformaya çevrilməsidir. Bakı artıq yalnız enerji ixracatçısı deyil, Avrasiya geosiyasi məkanında marşrutların, rəqəmsal xətlərin və təhlükəsizlik mexanizmlərinin kəsişmə nöqtəsi kimi çıxış edərək "vazkeçilməz qovşaq" statusunu institusional formaya salmağa nail olmuşdur.

Çin ilə strateji yaxınlaşma, Şərq istiqamətində dərinləşmə Prezident İlham Əliyevin xarici siyasət kursunun mühüm komponentidir. Bu ölkə ilə münasibətlərin 2025-ci ilin aprelində Pekində imzalanmış "Əhatəli Strateji Tərəfdaşlıq" bəyannaməsi ilə yeni mərhələyə keçməsi Azərbaycanın Şərq vektorunda keyfiyyət dəyişikliyi yaratdı. Bu sənəd yalnız siyasi niyyət bəyanatı deyil, real iqtisadi və texnoloji transformasiya proqramıdır. Saziş nəticəsində Rəqəmsal infrastrukturun inkişafına irihəcmli investisiya axını təmin olundu.

Orta dəhliz çərçivəsində Azərbaycanın tranzit potensialı Çin-Avropa ticarətində daha mərkəzi mövqeyə yüksəldi. Bakı Pekin üçün Cənubi Qafqazda sabit və etibarlı tərəfdaş statusu qazandı. Bu, Azərbaycanın geoiqtisadi xəritəsində çəkisini artırmaqla yanaşı, Qərblə danışıqlarda da əlavə manevr imkanları yaratdı. Yəni Şərq istiqamətində dərinləşmə Qərb vektorunu zəiflətmədi, əksinə, onu daha da rasional və qarşılıqlı faydalı müstəviyə keçirdi.

Cənab İlham Əliyevin son illərdə yürütdüyü xarici siyasət kursu Rusiyaya münasibətdə praqmatik model, rəqabətli sabitlik çərçivəsində formalaşaraq bir tərəfdən regional təhlükəsizlik və iqtisadi əməkdaşlıq kanallarını açıq saxlayan, digər tərəfdən isə suverenlik, çoxvektorlu balans və milli maraqların prioritetliyini prinsipial şəkildə qoruyan koherent və hesablanmış strateji xətt kimi xarakterizə olunur.

Prezident İlham Əliyevin formalaşdırdığı xarici siyasət kursu nəticəsində Azərbaycan-ABŞ münasibətləri enerji təhlükəsizliyi çərçivəsini aşaraq innovasiya, rəqəmsal infrastruktur və yüksək texnologiyalar, nəqliyyat-logistika istiqamətində yeni strateji məzmun kəsb edir. Donald Tramp administrasiyasının Azərbaycana verdiyi siyasi və geostrateji önəm də bu transformasiyanı stimullaşdıraraq Bakının beynəlxalq sistemdə təkcə enerji tərəfdaşı deyil, həm də regional sabitlik və texnoloji əməkdaşlıq baxımından əhəmiyyətli aktor kimi mövqelənməsini gücləndirir. Yəni münasibətlər ideoloji ritorikadan çox strateji maraq və tranzaksional yanaşma üzərində qurularaq ümumilikdə praqmatik və maraq əsaslı xətt kimi xarakterizə olunur və son mərhələ keyfiyyət transformasiyası ilə səciyyələnir.

Azərbaycan-ABŞ əməkdaşlığının yeni mərhələsinin dinamikası göstərir ki, Azərbaycan ABŞ və Avropa üçün strateji resurs mənbəyindən daha artıq texnoloji və təhlükəsizlik tərəfdaşına çevrilir. ABŞ-nin vitse-prezidenti C.D.Vensin Bakı səfəri regional geosiyasi arxitekturada yeni mərhələnin başlanğıcını ifadə edən simvolik və praktik məzmunlu hadisə kimi qiymətləndirilə bilər. Bu səfər yalnız diplomatik protokol çərçivəsində keçirilən görüşlər toplusu deyil, həm də Cənubi Qafqazda qüvvələr balansının yenidən tənzimlənməsi istiqamətində konkret siqnallar sistemi kimi çıxış edir. Prezident İlham Əliyevin diplomatik uğurlarından biri də ondan ibarət oldu ki, ABŞ ilk dəfə açıq və institutsional formada regional güc balansının Azərbaycanın strateji maraqları istiqamətində dəyişməsinə dəstək verdiyini nümayiş etdirdi.

Bu, Vaşinqtonun Cənubi Qafqaza yanaşmasında yeni konfiqurasiya modelinin formalaşdığını göstərir. ABŞ tərəfindən təşviq olunan TRIPP layihəsi Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirən strateji nəqliyyat-kommunikasiya xəttinin yaradılmasını nəzərdə tutur. Lakin söhbət sırf tranzit yolundan getmir. Bu dəhliz Şərq-Qərb xəttində yeni geoiqtisadi konfiqurasiya yaradır. Orta dəhliz strategiyasını daha funksional və təhlükəsiz edir. Cənubi Qafqazda iqtisadi inteqrasiya modelini siyasi sabitliklə əlaqələndirir.

Postmüharibə dövrünün diplomatik uğurları sırasında xüsusi yeri olan bu layihə eyni zamanda Ermənistan üçün alternativsiz strateji seçim formalaşdırır. Regional təcrid vəziyyətindən çıxışın yeganə rasional yolunun Azərbaycanla sülh müqaviləsinə imza atmaq və yeni nəqliyyat arxitekturasına inteqrasiya olmaq mesajını açıq şəkildə verir. Beləliklə, proses tək iqtisadi təşəbbüs deyil, həm də siyasi transformasiya mexanizmi funksiyasını daşıyır.

Prezident İlham Əliyevin strategiyası göstərir ki, müasir geosiyasi münasibətlərdə uğur yalnız hərbi və iqtisadi gücə deyil, həm də diplomatik çeviklik, strateji balans və regional təşəbbüskarlıq qabiliyyətinə əsaslanır.

Prezident, Ali Baş Komandan İlham Əliyevin xarici siyasət kursunun mühüm faktorlarından biri də milli qürur və ədalət prinsipidir. Bu özünü Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə, ondan sonra da "Qlobal Cənubun səsi" olaraq Fransanın neokolonializm siyasətinə qarşı kəskin etirazlarda və beynəlxalq hüququn selektiv tətbiqinə yönəlmiş tənqidlərində göstərdi.

"Tam suverenlik və çoxşaxəli təsir" modeli üzərində qurulmuş Azərbaycan Respublikasının xarici siyasət kursu Prezident İlham Əliyevin rəhbərliyi ilə "balanslaşdırma" doktrinasından çıxaraq böyük siyasi dühanın qüdrətilə daha iddialı strateji avtonomiya mərhələsinə keçmişdir. Toqquşan geosiyasi maraqlar üçbucağında Bakı tərəfləri öz milli maraqları ətrafında uzlaşdıran bir mərkəzə çevrilmişdir.

2026-cı il fevralın 13-dən 15-ə kimi Almaniyada keçirilmiş 62-ci Münxen Sülh Konfransında Prezident İlham Əliyev diplomatik imkanlarının geniş olduğunu nümayiş etdirərək iki mühüm nəticə hasil etdi:

- Regionun problemlərini region ölkələri özləri həll etməlidir. Biz kənar müdaxilələrə yox, regional əməkdaşlığa fokuslanmalıyıq.

- Azərbaycan heç bir ölkə ilə, o cümlədən Fransa ilə problem yaşamaq istəmir, lakin hər kəs regionun reallıqlarına hörmət etməlidir. Cənab İlham Əliyev gətirdiyi sübut və arqumentlərlə Fransa kimi aktarların regiona müdaxilə cəhdlərini Münxen masasında iflasa uğradaraq Avropanın "Yumşaq Güc"nün neytrallaşdırılmasına nail oldu. Məhz Münxendə, çünki ənənəvi olaraq Münxen Təhlükəsizlik Konfransı Qərb dövlətlərinin üstünlük təşkil etdiyi platformadır və mesajı birbaşa ünvana çatdırmaq məqsədi daşıyırdı.

Azərbaycan Prezidentinin ən böyük siyasi uğuru isə Ermənistan ərazisindən keçən, Azərbaycanın əsas hissəsini Naxçıvanla bağlayan nəqliyyat yollarının açılması məsələsində Bakının irəli sürdüyü "suveren dəhliz" məntiqi beynəlxalq səviyyədə qəbul edilməyə başladı.

ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan və BMT-yə alternativ, daha çevik bir platforma olan Sülh Şurasının 19 fevral 2026-cı ildə keçirilmiş ilk iclasında Cənubi Qafqazda əldə olunmuş sülh "tarixi nailiyyət" kimi dünyaya təqdim olundu.

Müasir Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin analoqu olmayan siyasi kursunun məntiqi davamı olaraq yaxın gələcəkdə TRIPP layihəsinin reallaşması və Ermənistanla sülh sazişinin yekunlaşması ilə Cənubi Qafqaz ABŞ-Rusiya-Çin rəqabətində "neytral və təhlükəsiz liman" funksiyasını yerinə yetirəcək ki, bu da Azərbaycan Respublikasının suverenliyinin ən böyük zəmanəti olacaq.

Müasir beynəlxalq münasibətlərdə Prezident İlham Əliyevin davamlı və təsirli geosiyasi strategiyası normativ-identik autenlik ilə institusional-struktur koherentliyinin vəhdəti əsasında formalaşan "Strateji Diplomatiya" fəlsəfəsi siyasi-elmi və ictimai-fəlsəfi, nəzəri-praktik baxımından çox mühüm tədqiqat obyekti, dünya diplomatiya tarixi təcrübəsi kimi mütərəqqi praktik əhəmiyyətə malikdir.

***Ceyhun NƏCƏFOV,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***



**Bu** gün qlobal gündəliyin əsas mövzularından biri enerji təhlükəsizliyi ilə ekoloji dayanıqlılıq arasında tarazlığın təmin edilməsidir. Sənayeləşmə dövründən bəri dünya iqtisadiyyatının aparıcı qüvvəsi olan neft, qaz və kömür kimi fosil yanacaqlar hələ də enerji istehsalında üstünlük təşkil edir. Statistik göstəricilərə görə, hazırda dünyada istehsal və istehlak edilən enerjinin təxminən 81 faizi bərpa olunmayan mənbələrin payına düşür. Lakin bu resursların məhdud olması və ətraf mühitə vurduğu zərər alternativ enerji istiqamətində qətiyyətli addımların atılmasını zəruri edir. Məhz buna görə son illərdə bərpaolunan enerji texnologiyalarının inkişafı beynəlxalq səviyyədə prioritet istiqamətə çevrilib və bu sahədə günəş enerjisi xüsusi önəm qazanıb.

# Günəş enerjisindən istifadə gələcəyə uğurlu yatırımdır

Günəş enerjisi ekoloji baxımdan təmiz, təhlükəsiz və praktik olaraq tükənməz mənbə kimi dəyərləndirilir. Yer səthinə düşən günəş radiasiyasının həcmi bəşəriyyətin malik olduğu bütün ənənəvi yanacaq ehtiyatlarını dəfələrlə üstələyir. Hesablamalara görə, bu enerjinin cəmi 0,0125 faizindən səmərəli istifadə olunması mövcud qlobal enerji tələbatını tam ödəməyə imkan verə bilər. Bu fakt günəş enerjisinin perspektivlərini aydın şəkildə ortaya qoyur və bir çox ölkə kimi Azərbaycanın da diqqətini bu istiqamətə yönəldir.

Azərbaycanın coğrafi mövqeyi və iqlim xüsusiyyətləri günəş enerjisinin inkişafı üçün əlverişli imkanlar yaradır. Ölkə ərazisində il ərzində 2400-3200 saat günəşli hava müşahidə olunur ki, bu da günəş panellərinin yüksək səmərəliliklə işləməsi üçün əlverişli şərait deməkdir. Mövcud hesablamalara əsasən, ölkənin quruda bərpaolunan enerji üzrə texniki potensialı 135 qiqavat, dənizdə isə 157 qiqavat səviyyəsində qiymətləndirilir. Günəş enerjisi üzrə iqtisadi potensialın 23 min meqavat olması isə bu sahənin nə qədər geniş imkanlara malik olduğunu göstərir.

Son illərdə istifadəyə verilmiş yeni günəş və külək-elektrik stansiyaları birlikdə ildə təxminən 1 milyard kilovat-saat elektrik enerjisi istehsal etmək gücünə malikdir. Bu göstərici təkcə alternativ enerji istehsalının artması deyil, həm də təbii qaz sərfiyyatının azalması baxımından əhəmiyyətlidir. Bu layihələr nəticəsində hər il 330 milyon kubmetrdən çox qazın saxlanılması və 600 min tonadək karbon emissiyasının qarşısının alınması nəzərdə tutulur. Hazırda reallaşdırılan növbəti mərhələ layihələri isə bərpaolunan enerjinin ümumi elektrik istehsalındakı payını 23,7 faizə çatdıracaq. Bu artım 5 milyard kilovat-saat əlavə "yaşıl enerji" deməkdir ki, nəticədə 1,3 milyard kubmetr qaz ehtiyatı qorunacaq və 2,4 milyon ton istixana qazı emissiyası azalacaq.

Dövlətin bu istiqamətdə həyata keçirdiyi layihələr ardıcıl xarakter daşıyır. 2021-ci il 2 fevral tarixində təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində iqlim dəyişikliklərinə qarşı mübarizə və "yaşıl enerji" prinsiplərinin iqtisadiyyatın bütün sahələrinə inteqrasiyası əsas hədəflərdən biri kimi müəyyənləşdirilib. Bu yanaşma göstərir ki, alternativ enerji artıq yalnız ekoloji məsələ deyil, eyni zamanda strateji iqtisadi inkişaf faktoru kimi qiymətləndirilir.

Martın 3-də keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının 12-ci və "Yaşıl Enerji" Məşvərət Şurasının 4-cü iclaslarında çıxış edən Prezident İlham Əliyev enerji siyasətində balanslı yanaşmanın vacibliyini qeyd edib. Dövlət başçısı vurğulayıb ki, planetin ekoloji təhlükəsizliyi hər kəs üçün prioritetdir, lakin enerji keçidi praqmatik əsaslarla həyata keçirilməlidir. Prezidentin sözlərinə görə, qazıntı yanacaqları ilə bərpaolunan mənbələrin uzlaşdırılması xüsusilə enerji resurslarına malik ölkələr üçün real və səmərəli modeldir. Dövlət başçısı, həmçinin Azərbaycanın uzunmüddətli qaz ehtiyatlarına malik olmasına baxmayaraq, alternativ enerjiyə milyardlarla dollar investisiya yatırmasının gələcəyə hesablanmış strateji qərar olduğunu bildirib.

Azərbaycan beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığı genişləndirərək günəş enerjisi sektorunda böyük layihələr həyata keçirir. Bu sahədə təcrübəyə malik "Masdar", "Acwa Power" və BP kimi şirkətlərlə tərəfdaşlıq qurulub.

2023-cü ilin oktyabrında istismara verilmiş 230 meqavat gücündə Qaradağ Günəş-Elektrik Stansiyası Xəzər regionu və MDB məkanında ən iri günəş enerjisi layihəsi kimi tarixə düşüb. 262 milyon ABŞ dolları həcmində xarici investisiya hesabına reallaşdırılan bu stansiya ölkədə sənaye miqyaslı və birbaşa xarici sərmayə ilə qurulan ilk günəş elektrik stansiyasıdır. İstifadəyə verildiyi vaxtdan bəri burada 680 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal edilib. Ümumiyyətlə, aparılan təhlillər son illərdə ölkədə günəş enerjisi istehsalının təxminən doqquz dəfə artdığını göstərir.

Hazırda Biləsuvar rayonunda yeni günəş-elektrik stansiyasının inşası davam edir. Bununla yanaşı, Neftçala və Qobustan ərazilərində də iri gücə malik layihələr həyata keçirilir. Bu obyektlər istifadəyə verildikdən sonra ölkənin enerji balansında bərpaolunan mənbələrin payı daha da yüksələcək.

Naxçıvan Muxtar Respublikası da "yaşıl enerji" strategiyasında xüsusi yer tutur. Regionun enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və ixrac potensialının artırılması məqsədilə günəş-elektrik stansiyalarının tikintisi geniş vüsət alıb. Artıq Naxçıvanda quraşdırılmış gücün əhəmiyyətli hissəsi bərpaolunan mənbələrin payına düşür. Özəl investisiyalar hesabına inşa olunan yeni stansiyalar həm illik elektrik istehsalını artıracaq, həm də on milyonlarla kubmetr qazın qənaətinə imkan verəcək. Bu isə minlərlə ton karbon emissiyasının qarşısının alınması deməkdir.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları isə "yaşıl enerji zonası" konsepsiyası çərçivəsində inkişaf etdirilir. Dövlət başçısının təşəbbüsü ilə bu ərazilərin gələcəkdə "Netto sıfır emissiya" zonasına çevrilməsi hədəflənir. Mövcud hesablamalara əsasən, region günəş və külək enerjisi üzrə çox böyük potensiala malikdir. Xüsusilə Cəbrayıl, Qubadlı, Zəngilan və Füzuli rayonları günəş radiasiyasının yüksək göstəriciləri ilə seçilir.

2024-cü ildə Cəbrayıl rayonunda 240 meqavat gücündə yeni günəş-elektrik stansiyasının təməli qoyulub. Bu layihə azad edilmiş ərazilərdə reallaşdırılan ilk iri sənaye miqyaslı "yaşıl enerji" təşəbbüsüdür. Gözlənilir ki, stansiya istismara verildikdən sonra hər il yüz milyonlarla kilovat-saat elektrik enerjisi istehsal edəcək. Bu da həm təbii qaz ixracı üçün əlavə imkanlar yaradacaq, həm də emissiyaların əhəmiyyətli dərəcədə azalmasına səbəb olacaq. Bununla yanaşı, Cəbrayılda və digər ərazilərdə daha bir neçə günəş-elektrik stansiyasının tikintisi üzrə müqavilələr imzalanıb. Reallaşacaq layihələr nəticəsində yüz milyonlarla kilovat-saat əlavə enerji istehsalı planlaşdırılır. Bu təşəbbüslər bölgənin sürətli bərpasına, yeni iş yerlərinin açılmasına və dayanıqlı iqtisadi modelin formalaşmasına töhfə verəcək.

Ümumilikdə, 2027-ci ilin sonuna qədər ölkədə bir neçə günəş və külək-elektrik stansiyasının istismara verilməsi nəzərdə tutulur. Onların ümumi gücü qiqavatlarla ölçüləcək və hər il milyardlarla kilovat-saat təmiz enerji istehsal olunacaq. Bu isə yüz milyonlarla kubmetr qazın daxili istehlakdan azad edilməsi və ixrac imkanlarının genişləndirilməsi deməkdir.

Azərbaycan enerji keçidini mərhələli və balanslı şəkildə həyata keçirir. Bir tərəfdən, mövcud karbohidrogen ehtiyatlarından səmərəli istifadə davam etdirilir, digər tərəfdən isə alternativ mənbələrə ciddi investisiyalar yönəldilir. Bu model ölkəyə həm iqtisadi dayanıqlılıq, həm də ekoloji məsuliyyət baxımından üstünlük qazandırır. Reallaşdırılan layihələr ölkəmizin yaxın illərdə regionda "yaşıl enerji"nin istehsalı və ixracı üzrə aparıcı mövqeyə yüksələcəyini göstərir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Azərbaycan-Türkiyə əməkdaşlığı Avropanın enerji təhlükəsizliyinin əsas dayaqlarından biridir

"Cənub qaz dəhlizi" XXI əsrin enerji geosiyasətində mühüm strateji əhəmiyyətə malik layihələrdən biridir. Məsələyə yalnız bir boru kəməri və ya sadəcə ticari enerji layihəsi kimi yanaşmaq XXI əsrin enerji geosiyasətini düzgün qiymətləndirməmək demək olardı".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türk ekspert Umut Berhan Şen bildirib.

Onun sözlərinə görə, xüsusilə, "Cənub qaz dəhlizi"nin əsas komponentlərindən biri olan Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) Türkiyə üçün təkcə tranzit marşrutu deyil, həm də ölkənin qlobal sistemdə artan strateji rolunu təsdiqləyən mühüm layihədir.

U.B.Şen bildirib ki, bu iri enerji layihəsi sayəsində Türkiyə artıq passiv "enerji körpüsü" rolundan çıxaraq real mənada enerji mərkəzinə, yəni regional və qlobal enerji siyasətində oyun qurucu aktora çevrilmək istiqamətində mühüm mərhələni keçib. Ankara Şərqdə yerləşən enerji resursları ilə Qərbdəki tələbatı öz ərazisində birləşdirərək enerji bazarında strateji mövqeyini möhkəmləndirib.

Ekspert vurğulayıb ki, xüsusilə Ukrayna-Rusiya müharibəsindən sonra Avropada yaranan enerji çatışmazlığı fonunda Türkiyə enerji təchizatının təmin olunmasında mühüm rol oynayan etibarlı tərəfdaş kimi ön plana çıxıb. Bu vəziyyət Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Ankara ilə Bakı arasında formalaşmış strateji tərəfdaşlığın əhəmiyyətini daha da artırıb.

U.B.Şenin sözlərinə görə, Azərbaycan və Türkiyə arasında münasibətlərin əsasını təşkil edən "bir millət, iki dövlət" prinsipi artıq yalnız siyasi şüar kimi deyil, həm də regionun və qitələrin geostrateji gələcəyini müəyyən edən real əməkdaşlıq modeli kimi özünü təsdiqləyir. İki ölkə arasında formalaşmış enerji tərəfdaşlığı Avrasiyanın enerji xəritəsində yeni geosiyasi reallıqlar yaradır.

Türk ekspert bildirib ki, qarşıdakı illərdə bu əməkdaşlıq Türk Dövlətləri Təşkilatının institusional inkişafı ilə daha da güclənəcək və Xəzər hövzəsindəki enerji resurslarının Avropaya nəqlində əsas strateji platformalardan birinə çevriləcək.

"Türkiyə və Azərbaycan artıq yalnız enerji resurslarını tədarük edən ölkələr kimi deyil, həm də Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan strateji tərəfdaşlar kimi çıxış edirlər. Bu əməkdaşlıq həm regionun enerji xəritəsini dəyişir, həm də tərəflərin beynəlxalq münasibətlər sistemində mövqelərini daha da gücləndirir", - deyə U.B.Şen qeyd edib.

Ekspert əlavə edib ki, həyata keçirilən bu enerji layihələri Türkiyənin regional gücdən qlobal balans mərkəzinə çevrilməsi prosesinin ən aydın nümunələrindən biridir. Azərbaycan ilə strateji enerji əməkdaşlığı bu prosesdə həlledici rol oynayır və gələcəkdə Avropa ilə Asiya arasında enerji əlaqələrinin daha da inkişafına geniş imkanlar yaradacaq.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Alman şirkətləri ilə müxtəlif sahələr üzrə əməkdaşlıq imkanları müzakirə olunub

**Alman iş adamları ilə dayanıqlı sənaye, enerji səmərəliliyi və innovativ maliyyə mexanizmləri sahələrində əməkdaşlıq imkanları müzakirə olunub.**



İqtisadiyyat nazirinin müavini Anar Axundov Alman-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Nargis Viyekin rəhbərlik etdiyi alman iş adamlarından ibarət nümayəndə heyəti ilə görüşüb.

Görüş çərçivəsində bərpaolunan enerji mənbələri, dayanıqlı sənaye, enerji səmərəliliyi, sənayenin dekarbonizasiyası, hidrogen texnologiyaları və innovativ maliyyə mexanizmləri sahələrində əməkdaşlıq imkanlarının ətrafında müzakirələr aparılacaqdır.

Tərəflər Almaniya iş adamlarının ölkəmizə investisiya imkanlarının araşdırılması və institusional əməkdaşlığın genişləndirilməsi imkanlarını nəzərdən keçiriblər.

## "Azərbaycan Şəkər İstehsalat Birliyi"nin ixrac gəlirləri 3 dəfəyə yaxın artıb

**2026-cı ilin yanvar ayında "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC 3,8 milyon dollar dəyərində məhsul ixrac edib.**



Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,4 milyon dollar və ya 2,7 dəfə çoxdur. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın fevral sayında xatırladılır ki, 2025-ci ilin yanvar ayında "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC-nin ixrac gəlirləri 1,4 milyon dollar olub.

# Azərbaycanın rəqəmsal gələcəyi

## 2026-2028-ci illərdə innovativ inkişaf: ölkəmiz yeni zirvələri hədəfə alıb

**Dünya sürətlə rəqəmsal dövrə qədəm qoyduğu bir zamanda ölkələrin inkişafı yeni tələblərə uyğun şəkildə formalaşır. Azərbaycan da təbii ki, bu qlobal tendensiya ilə ayaqlaşdığı üçün rəqəmsal iqtisadiyyatın və innovasiyaların inkişafını ön planda tutur. Prezident İlham Əliyevin imzaladığı sərəncamla "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı", sözsüz ki, bu məqsədlə təsdiq edilib.**



Sərəncam ölkənin rəqəmsal inkişafını sürətləndirməyi və müasir texnologiyaların tətbiqini genişləndirməyi hədəfləyir. Fəaliyyət Planı əsasən informasiya və kommunikasiya texnologiyalarının (İKT) gücləndirilməsi, rəqəmsal transformasiya sahəsində yeni təşəbbüslərin həyata keçirilməsi, e-hökumət sisteminin inkişaf etdirilməsi və rəqəmsal bacarıqların artırılması kimi əsas prioritetləri əhatə edir. Sənədin digər bir prioriteti də rəqəmsal infrastrukturun inkişafıdır. Bu, yalnız internetin genişlənməsi ilə məhdudlaşmır, həm də bulud texnologiyalarının, 5G şəbəkələrinin tətbiqi, məlumat mərkəzlərinin yaradılması və digər müasir texnoloji inkişafın ölkə daxilində yayılmasını nəzərdə tutur. Sadalananlar, xüsusilə kənd və ucqar bölgələrdə internetin əlçatanlığını artıracaq, iqtisadiyyatın rəqəmsal yönə keçməsinə imkan yaradacaq.

Azərbaycan 2026-2028-ci illərdə rəqəmsal inkişafın yeni dövrünə qədəm qoymağa hazırlaşır. Prezidentin imzaladığı sərəncam çərçivəsində dövlət idarəçiliyində və iqtisadiyyatda möhtəşəm bir yenilənmə, dəyişmə baş verəcək. Bu texnoloji yeniliklər vətəndaşların məlumatlarının yalnız bir dəfə toplanılmasına və müxtəlif dövlət orqanları tərəfindən asanlıqla əldə edilməsinə, beləliklə də bürokratik əngəllərin azalmasına səbəb olacaq. Dövlət xidmətləri fəal şəkildə təqdim olunacaq, yəni vətəndaşlar artıq xidmət almaq üçün müraciət etməyəcəklər, lazım olan xidmətlər avtomatik şəkildə onlara təqdim ediləcək. Bütün dövlət xidmətləri "MyGov" və "MyGov Biznes" platformaları (portal və mobil tətbiqlər) üzərindən təqdim ediləcək. Nəticədə istifadəçilər xidmətləri sürətli və rahat şəkildə əldə edə biləcəklər. Fəaliyyət Planı çərçivəsində yerli innovativ məhsulların dövlət satınalmalarında dəstəklənməsi, "mələk investorlar" institutunun təşviqi, texnoparklarda rezidentlik şərtlərinin sadələşdirilməsi də nəzərdə tutulur. Məlumat üçün bildirək ki, "mələk investor" startap və ya bizneslərə sərmayə qoyan fərdi investordur. Bu investorlar şirkətlərin başlanğıc mərhələlərində, xüsusilə böyük investisiya qoyuluşu tapmaqda çətinlik çəkdikləri dövrlərdə onların inkişafına maliyyə dəstəyi verirlər. Mələk investorlar, adətən, öz şəxsi vəsaitlərini sərf edir və təcrübələri ilə yardımçı olurlar. Beləliklə, bu təşəbbüslər yerli startaplara və innovativ layihələrə dəstək verəcək, iqtisadiyyatda yeni iş imkanları yaradacaq və ölkəni beynəlxalq rəqabətdə daha güclü edəcək. Rəqəmsal inkişafın bu cür sürətləndirilməsi iqtisadiyyatı və cəmiyyəti müasir dövrün tələblərinə uyğun olaraq yeniləyəcək, dövlətin şəffaflığını artıracaq, həmçinin insanların həyatını asanlaşdıracaq.

İqtisadiyyatın inkişafı üçün mühüm amillərdən biri də ölkə vətəndaşlarının rəqəmsal bacarıqlara malik olmasıdır. Fəaliyyət Planı çərçivəsində təhsil və təlim sahəsində islahatlar aparılacaq, xüsusən məktəblərdə və universitetlərdə müasir texnologiyaların tədrisi artırılacaq. Bu, həm dövlət məmurları, həm də vətəndaşlar üçün daha əlverişli və səmərəli iş şəraiti yaradacaq. Sərəncamın digər bir önəmli tərəfi, rəqəmsal mədəniyyətin cəmiyyətdə genişlənməsidir. İnsanlar yalnız texnologiyalara yiyələnməyi deyil, həm də onların düzgün və etik şəkildə istifadəsini öyrənməlidirlər. Bu, informasiya təhlükəsizliyi, məxfilik və rəqəmsal vətəndaşlıq kimi məsələləri əhatə edir.

Bütün bu sadalananlar əsas verir deyək ki, Fəaliyyət Planı ölkənin gələcəyinə dair əhəmiyyətli dəyişikliklər və islahatları nəzərdə tutur. Həmin islahatların həyata keçirilməsi üçün bir neçə mühüm addım atılıb. Bunlardan biri də dövlət başçısının imzaladığı "Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı" fərmanıdır. Fərmana əsasən, rəqəmsal inkişafı və innovasiyaları sürətləndirmək məqsədilə yeni bir struktur yaradılıb: Rəqəmsal İnkişaf Şurası. Şura Azərbaycanda rəqəmsal yenilikləri idarə edəcək, dövlətin bütün sahələrində texnologiyaların tətbiqini və inkişafını sürətləndirəcək. Qurum ölkənin informasiya və kommunikasiya texnologiyaları, e-hökumət, süni intellekt və innovasiya sahələrindəki fəaliyyətlərini koordinasiya edəcək, eləcə də rəqəmsal siyasətlərin həyata keçirilməsini nəzarət altında saxlayacaq.

Birinci vitse-prezident Mehriban Əliyevanın Şuraya rəhbərlik etməsi isə ölkəmizin rəqəmsal inkişaf sahəsindəki strateji irəliləyişlərə olan ciddi yanaşmanı və bu sahədəki hədəflərə çatmaq üçün yüksəksəviyyəli liderliyin təmin olunmasını əks etdirir. Mehriban Əliyevanın rəhbərliyi altında Şura yalnız dövlətin rəqəmsal transformasiyasını idarə etməyəcək, həm də Azərbaycanda innovasiya və texnologiyaların inkişafına, elmi tədqiqatların təşviqinə və e-hökumətin genişləndirilməsinə dair qabaqcıl təşəbbüsləri sürətləndirəcək. Mehriban xanımın geniş təcrübəsi və strateji baxışları yerli və beynəlxalq səviyyədə texnoloji inkişafı dəstəkləyən təşəbbüslərin daha çox güclənməsinə şərait yaradacaq. Əminliklə deyə bilərik ki, Mehriban Əliyeva bu vəzifədə ölkəmizin rəqəmsal gələcəyini formalaşdıracaq mühüm qərarların qəbulunda önəmli rol oynayacaq.

Azərbaycanın rəqəmsal inkişafı təbii ki, sadəcə müasir texnologiyaların tətbiqi ilə məhdudlaşmayacaq, həm də ölkənin iqtisadiyyatını, idarəetməsini və cəmiyyətini müasir dövrün tələblərinə uyğun şəkildə yeniləyəcək. Fəaliyyət Planı və şura bu istiqamətdə atılacaq addımların başlanğıcıdır. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmiz özünün rəqəmsal gələcəyini müəyyən edən mühüm qərarların qəbulunda lider rolunu oynayacaq və bu sahədəki strateji hədəflərə yönəlik irəliləyişləri təmin edəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Orta dəhlizdə rəqəmsallaşma və süni intellektin tətbiqi zamanın tələbidir

## "Azərbaycan artıq Orta dəhlizin geoiqtisadi inteqratoruna çevrilib"

**Bu** gün qlobal səviyyədə baş verən gərgin geosiyasi proseslər Orta dəhlizə olan marağı daha da artırıb. Ancaq Asiya ilə Avropa arasındakı ticarətdə ən sərfəli və təhlükəsiz marşrutun texnoloji cəhətdən təkmilləşdirilməsinə ehtiyac var. O üzdən dünyada ən çox investisiya qoyulmasına maraq göstərilən və rəqəmsallaşdırılması istiqamətində önəmli addımlar atılan qlobal ticarət marşrutu Orta dəhlizdir.

Azərbaycan bu dəhlizin qlobal ticarət üçün ən sərfəli marşrut olmasına çalışır və bu istiqamətdə atdığımız addımlar digər ölkələr və beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanın Orta dəhlizinin işlək marşruta çevrilməsindəki fəaliyyətini yüksək dəyərləndirənlərdən biri də Özbəkistanın keçmiş xarici işlər naziri Vladimir Norovdur. O, dəhlizdə ölkəmizin gördüyü işləri yüksək qiymətləndirərək demişdir: "Azərbaycan artıq Orta dəhlizin geoiqtisadi inteqratoruna çevrilib və regional süni intellekt habının yaradılması növbəti məntiqi addımdır". V.Norov Azərbaycanın digər tranzit ölkələrindən fərqli olaraq müasir yanaşmalara daha çox üstünlük verdiyini deyir. Haqlı olaraq vurğulayır ki, ölkəmiz təkcə yeni dəmir yollarının və limanlarının tikintisi ilə maraqlanmır, eyni zamanda marşrutun ölkədən keçən hissəsində dövrün tələblərinə uyğun rəqəmsallaşma və süni intellektin tətbiqinə xüsusi diqqət göstərir.




Sabiq nazir ölkəmizin gördüyü işləri yüksək qiymətləndirir: "Məhz rəqəmsallaşma və süni intellekt əsaslı logistika dəhlizinin qlobal miqyasda rəqabətə davamlı olub-olmayacağını müəyyən edəcək. Azərbaycan Ələt limanının intellektual sistemlərinə, rəqəmsal gömrük xidmətlərinə və Bakı-Tbilisi-Qars dəmir yolunda süni intellekt dəstəkli planlaşdırma alətlərinə, eləcə də genişlənən multimodal şəbəkəsinə investisiya yatırmaqla bu transformasiyaya rəhbərlik edir". Eks nazir həmçinin qeyd edir ki, Azərbaycan artıq rəqəmsal transformasiyanın praktiki nəticələrini nümayiş etdirir: "Xüsusilə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanında (Ələt) konteyner daşımalarının həcmi 2025-ci ildə rəqəmsal iş proseslərinin tətbiqi sayəsində 40 faiz artıb. Öz növbəsində, "Azərbaycan Dəmir Yolları" intellektual planlaşdırma alətlərinin tətbiqi hesabına Çin-Avropa marşrutu üzrə konteyner qatarlarının hərəkətini 34 faiz artırıb".

Dünya logistikasında "dar boğazlar" termini işlədilir. Bu marşrut üzrə yüklərin tranzitində tıxac yaranan yerə deyilir. Xəzər dənizi də Orta dəhlizin həssas nöqtəsi olduğundan "dar boğazı"na çevrilə bilər. Bugünədək ölkəmiz və onun regional partnyorları bunun baş verməməsi üçün müəyyən işlər görüblər. Ancaq risk qalır. Özbəkistanın sabiq xarici işlər naziri bunun qarşısının alınması üçün dəhlizin keçdiyi bütün ölkələr arasında rəqəmsal logistikanın əlaqələndirilməsi məqsədilə birgə süni intellekt mexanizminin yaradılmasını təklif edir: "Mexanizmin aşağıdakı funksiyaları yerinə yetirəcəyi ehtimal olunur: gəmilərin gəlişinin, qatarların hərəkətinin, Xəzərdəki hava şəraitinin və limanların yüklənməsinin birgə proqnozlaşdırılması üçün süni intellekt əsaslı prediktiv logistika platformasının yaradılması; risklərin süni intellektlə qiymətləndirilməsi, ilkin məlumat mübadiləsi və bütün dəhliz boyu yüklərin avtomatlaşdırılmış rəsmiləşdirilməsi ilə vahid rəqəmsal gömrük sisteminin tətbiqi; güclərin planlaşdırılması və müxtəlif ssenarilərin modelləşdirilməsi üçün əsas liman və terminalların - Ələt, Aktau, Kurık və Potinin qarşılıqlı fəaliyyət göstərən "rəqəmsal əkizləri"nin işlənib hazırlanması; vahid kibertəhlükəsizlik standartları və yüklərin rəqəmsal identifikasiyası ilə transsərhəd məlumat idarəetmə sisteminin formalaşdırılması, pilot layihələrin həyata keçirilməsi, eləcə də gömrük və logistika idarələrinin mütəxəssislərinin ixtisasının artırılması üçün Bakıda süni intellekt sahəsində İnnovasiya və Təlim Mərkəzinin yaradılması".

V.Norovun sözlərinə görə, mexanizmin ehtimal olunan mənzil-qərargahı qismində Azərbaycanın seçilməsi Ələt limanında müasir rəqəmsal logistika zonasının mövcudluğu və ölkənin Avrasiya nəqliyyat marşrutunun əlaqələndiricisi rolu ilə əsaslandırılır.

Bu arada Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili də deyib ki, hazırkı geosiyasi reallıq, xüsusilə Rusiya-Ukrayna münaqişəsi və Yaxın Şərqdə davam edən son hadisələr qlobal təchizat zəncirlərinin dəyişməsinə və bu fonda Orta dəhlizin əhəmiyyətinin daha da artmasına səbəb olub. Nazir eyni zamanda bildirib ki, regionda sülh və sabitliyin möhkəmlənməsi, eləcə də Gürcüstan-Ermənistan, Gürcüstan-Azərbaycan və Azərbaycan-Ermənistan münasibətlərinin inkişafı Orta dəhlizin gələcək taleyində həlledici rol oynayacaq. M.Boçorişvilinin sözlərinə görə, regionun həm tranzit, həm də iqtisadi baxımdan əsas geosiyasi mərkəzə çevrilməsi üçün real tarixi şans formalaşıb, iqtisadi layihələrin arxasında mühüm siyasi faktorlar dayanır və onların həyata keçirilməsi məhz siyasi sabitlik və qarşılıqlı etimaddan asılıdır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## İnklüziv layihədən eşitmə və nitq məhdudiyyətli 400-dən çox şəxs faydalanıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin "Səsiniz olaq" adlı onlayn surdotərcümə xidmətindən indiyədək eşitmə və nitq məhdudiyyətli 410 şəxs faydalanıb.**

Ötən il iyulun 28-dən Azərbaycanda ilk dəfə olaraq fəaliyyətə başlayan bu xidmət eşitmə və nitq məhdudiyyətli şəxslərin müraciətlərinin üçüncü tərəfə (dövlət qurumları, özəl sektor və s.) ötürülməsini təmin edir. Xidmət vasitəsilə işarət dilini bilməyən tərəflərlə eşitmə və nitq məhdudiyyəti olan şəxslər arasında "virtual körpü" yaradılır.



Belə ki, eşitmə və nitq məhdudiyyətli şəxslər videozəng və ya yazılı mesaj vasitəsilə operatorla əlaqə saxlayır və operator-surdotərcüməçi müraciətin istiqamətinə uyğun olaraq aidiyyəti üçüncü tərəflə əlaqə yaradaraq onlayn kommunikasiya qurur.

Bu inklüziv layihə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən ən yaxşı təcrübə elan olunub və Təşkilatın Avropa regionu üzrə əlilliyi olan şəxslər üçün əlçatanlığın, müyəssərliyin, inklüziv mühitin və sosial inteqrasiyanın təmini sahəsində uğurlu təcrübələr sənədinə daxil edilib.

## Azərbaycan nefti ucuzlaşıb

**AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti ucuzlaşıb.**



"Azeri Light" markalı neftin bir barelinin qiyməti 3,87 dollar və ya 4,7 faiz azalaraq 82,29 dollar olub. Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.





# Mədəniyyət





● Klassik dünyamız

# Əlişir Nəvai: bütün zamanların söz memarı

**Dahi özbək şairi və mütəfəkkiri Əlişir Nəvai dünya ədəbiyyatı tarixində mühüm yer tutan, adı hörmət və ehtiramla çəkilən şəxsiyyətlərdəndir. Böyük şairin yazdığı əsərlər özbəklərlə yanaşı, dünyanın bir çox xalqları tərəfindən də sevilə-sevilə oxunur.**



Onun yaradıcılığı dərinliyi, genişliyi, məna çalarlılığı və poetikliyi ilə elə ilk misralarından oxucunun qəlbinə yol tapır. Zamanından asılı olmayaraq, Nəvainin əsərləri bədii gücü, məna dərinliyi, axıcılığı ilə oxuyanları sehrinə salır və onu dünya xalqlarına sevdirən, ədəbiyyat tarixində əbədi olaraq yaşadan da bu amillərdir.

Bu günlər Əlişir Nəvainin 585 illik yubileyi həm doğma Özbəkistanda, həm də dünyanın bir çox ölkəsində təntənə ilə qeyd olunur. Türkdilli xalqlar ədəbiyyatında ana dilində ilk "Xəmsə"nin müəllifi olan Nizaməddin Mir Əlişir Nəvainin həyat yolu yaradıcılığı qədər maraqlıdır. Şərqin dünya ədəbiyyatına bəxş etdiyi dahilərdən biri olan Əlişir Nəvai 9 fevral 1441-ci ildə Heratda Teymurilər sarayına yaxın zadəgan ailəsində anadan olub. İlk təhsilini Herat, Məşhəd və Səmərqənd şəhərlərində alıb. Aldığı təhsil, yaşadığı şəhərlər, keçdiyi həyat yolu onun dünyagörüşünə müsbət təsir göstərib, həm şair, həm də şəxsiyyət kimi formalaşmasına böyük təkan verib.

Hələ kiçik yaşlarından Əlişir Nəvaidə şairlik istedadı özünü göstərib. O, özbək və fars dillərində yazdığı ilk şeirləri ilə ətrafındakı insanları heyrətləndirməyi bacarmışdır. İstedadı və qabiliyyəti sayəsində 15 yaşında şair kimi şöhrət qazanmışdır. Sonra yavaş-yavaş onun şöhrəti dünyanın hər yerinə yayılmışdır.

Tarixi mənbələrdən məlumdur ki, Əlişir Nəvainin atası Qiyasəddin Kiçginə Bahadur Hüseyn Bayqaranın atası Əmir Qiyasəddin Mənsurla süd qardaşı olub. Buna görə də onların uşaqları bir yerdə böyüyüb, eyni məktəbdə oxuyublar. 1468-ci ildə məktəb yoldaşı Hüseyn Baykara hakimiyyətə gəldikdən sonra Nəvaini saraya dəvət edərək möhürdar vəzifəsini ona tapşırıb. Sarayda çalışan Nəvai bacarığı ilə 1472-ci ildə vəzir rütbəsinə yüksəlib, əmir titulu alıb.

Nəvai vəzir olduğu illərdə dövlət adamı kimi dövrünün görkəmli alim, şair, musiqiçi, rəssam və xəttatlarını himayə edir, onları qorumağa çalışırdı. Bundan başqa o, öz hesabına mədrəsə və xəstəxanalar açır, yollar, körpülər saldırır, karvansaralar tikdirirdi. Amma nə edəsən ki, onun belə nəcib, xeyirxah əməlləri yuxarı dairələrdə müəyyən narazılıqlar yaradırdı. Buna görə də şər qüvvələr şair haqqında həqiqətdən uzaq böhtan və iftiralar yayırdılar. Bütün bunlardan təngə gələn Əlişir 1476-cı ildə vəzirlikdən imtina edir. Bundan sonra şairi Astrabad vilayətinin hakimiyyətinə göndərirlər. Amma Nəvai bir il bu vəzifədə çalışdıqdan sonra Herata qayıdaraq ömrünün sonunadək burada yaşayır, yaradıcılıqla məşğul olur. Şair 1501-ci il yanvarın 3-də doğulduğu Herat şəhərində dünyasını dəyişir.

Tədqiqatçıların verdikləri məlumatlara görə, Əlişir Nəvai yalnız ölkəsinin elm və sənət sahəsində deyil, mədəni həyatında da, həmçinin iqtisadiyyatının güclənməsində də böyük xidmətlər göstərmişdir. Buna görə də həm əvvəlki illərdə, həm də bu günümüzdə nəşr olunan bütün ədəbiyyat kitablarında onun elmi və dini baxışları geniş işıqlandırılır.

Əlişir Nəvai ərəbcə və farscanı ana dili qədər təmiz bilirdi. Bu dillərdə gözəl əsərlər yazmaq bacarığına sahib idi. Amma şirin laylası ilə böyüdüyü ana dilinə xüsusi hörmət və rəğbət göstərirdi. Yaşadığı dövrün dəbi ilə gedərək ərəb, xüsusilə fars dillərində yazan türk şairlərinə qarşı çıxırdı. Türk dilinin başqa dillərin kölgəsində qalmaması üçün haqq səsini qaldırırdı. Şair türk dilinin də məcazlar, cinaslar, qafiyələr və fellər dili olduğunu, səs və məna incəlikləriylə çatdırılan qüdrətli ifadə imkanlarının əcnəbi dillərdən üstün olduğunu bilirdi. Yazdığı bir-birindən maraqlı əsərlərində bunu sübut etməyə çalışırdı. Şair "Mühakəmət-ül-Lüğəteyn" adlı əsərini bu məqsədlə yazmışdır. Ədib bu əsərində türk və fars dillərini müqayisə edir. Türk dilinin başqa dillərdən hansı baxımdan üstün olduğunu aydın şəkildə açıqlayır və bunu gətirdiyi əsaslı nümunələrlə sübuta yetirirdi. Şair həmin əsərində yazır: "…fars dili yüksək və dərin mövzuları anlatmaqda gücsüzdür. Çünki türk dilinin yaranışında və mövzularında çox incəlik, özünəməxsusluq vardır. İncə fərqlər, ən yüksək mənalar üçün elə sözlər yaradılmışdır ki, elmli adamlar tərəfindən açıqlanmazsa, asan anlaşıla bilməz".

Müxtəlif illərdə qələmə aldığı əsrələri ilə dünya ədəbiyyatı tarixində silinməz izlər qoymuş Əlişir Nəvai 16-sı mənzum, 16-sı mənsur olmaqla bir-birindən dəyərli 32 əsər yazmışdır. Şair türkcə yazdığı əsərlərinə "Nəva", farsca yazdığı əsərlərini isə "Fani" təxəllüsü qoymuşdu. Nəvai yaradıcılığı boyu 6 divan yaradıb. Gənclik illərinin məhsulu olan ilk şeirlərini "Bədaye ülbidayə" adlı divanında toplayıb. İkinci divanını "Nəvadir ülnəhayə" adlandırıb. 1498-1499-cu illərdə özbək dilində yazdığı lirik şeirlərini "Çahar divan" adlanan 4 cilddə - "Qəraib üs-sifər" ("Uşaqlığın qəribəlikləri"), "Nəvadir ül-səvab" ("Gənclik nadirlikləri"), "Bədaiy ül vəsət" ("Orta yaşın gözəllikləri"), "Fəvaid ül kibar" ("Böyüklüyün faydaları") yerləşdirib.

Şairi daha çox məşhurlaşdıran və sevdirən yaradıcılığının zirvəsi olan özbək dilində yazdığı "Xəmsə"dir. Nəvai "Xəmsə"sində dövrünün ictimai həyatında baş verən hadisələrdən ətraflı bəhs edib. "Xəmsə"yə daxil olan "Möminlərin heyrəti", "Fərhad və Şirin", "Leyli və Məcnun", "Yeddi səyyarə", "Səddi İsgəndər" poemalarında şair həyatın dərinliklərinə baş vuraraq bəşəri ideyaları dolğun şəkildə nəzmə çəkib, dünyanın əbədi olmadığını müxtəlif məzmunlu hekayətlərlə insanlara aşılamağa çalışıb. Oxucularını xeyirxahlığa, insani dəyərlərə hörmətlə yanaşmağa çağırıb.

Ən önəmlisi odur ki, Nəvainin "Xəmsə"si yalnız özbək ədəbiyyatında deyil, bütün türkdilli xalqların ədəbiyyatında ana dilində yazılmış ilk "Beşlik"dir. Şair bu əsəri ilə Nizami ədəbi məktəbinin davamçılarından biri kimi şöhrət qazanıb. Nəvai "Xəmsə"sini islami əsaslara uyğun olaraq nəqşibəndilik sufi təriqətinin təsiri altında yazmışdır. Şairin "Xəmsə"sinin ümumi həcmi barədə oxucularda təsəvvür yaratmaq üçün qeyd edək ki, "Heyrət ül-əbrar" 3988, "Fərhad və Şirin" 5679, "Leyli və Məcnun" 3622, "Səbayi-səyyar" 5009, "Səddi-İskəndəri" 7215, ümumilikdə 25513 beytdən ibarətdir. Bu, Firdovsinin "Şahnamə" əsərinin təqribən yarısı həcmindədir.

İstedadlı söz nəqqaşı olan Əlişir Nəvai "Xəmsə"sini yazarkən iki dastanın süjet xəttinin Azərbaycanın böyük klassikləri Nizami Gəncəvi və Əşrəf Marağayıdan faydalandığını lütfkarlıqla qeyd etmişdir. "Xəmsə"sinin hər sözündə, hər misrasında Nizami Gəncəviyə baş əyir, cəsarət edib şairin söz meydanına daxil olmaq, onun pəncəsinin üstünə pəncə qoymağın nə qədər çətin olduğunu, bunu hər kəsin bacarmadığını etiraf edərək yazır:

*Bu meydanda sanma asandır durmaq,*
*Nizami ilə pənçə pənçəyə vurmaq.*
*Nizamiyə pəncə uzatsa hər kəs,*
*Qırılar pəncəsi, murada yetməz.*
*Şir pəncəsi gərək şirlə edə cəng,*
*Barı şir olmasa, qoy olsun pələng.*

Hər il fevralın 9-da Daşkənddə və Nəvai vilayətinin mərkəzi Nəvai şəhərində şairin növbəti doğum günündə beynəlxalq forum keçirilir. Bu onu göstərir ki, Özbəkistanda Əlişir Nəvai irsinə böyük məhəbbət və sevgi var. Görkəmli şairin adını dilə gətirəndə həmişə qarşısına "həzrət" epiteti artırılır. Onun əsərləri hər il yüksək tirajla nəfis şəkildə nəşr edilir. Nəvainin xarici ölkələrdəki əlyazmalarının surəti çıxarılır, haqqında yazılmış elmi əsərlər toplanır. Şairin yaradıcılığının geniş oxucu kütləsinə daha yaxşı tanıdılması üçün 4 cilddə əsərləri və dilinin izahlı lüğəti buraxılmışdır. Onun haqqındakı bütün bilgilər şairin adını daşıyan ensiklopediyada öz əksini tapır. Bütün bu işləri Özbəkistanda şairin adını daşıyan xüsusi Nəvai Fondu icra edir.

Əlişir Nəvai yaradıcılığı boyu yazdığı əsərlərində yüksək poetik ustalıqla, anlaşılan dillə insanlıq, ədalət, elm, irfan və mərhəmət ideyalarını tərənnüm etmişdir. Yazıldığı vaxtdan əsrlər keçməsinə baxmayaraq, şairin əsərləri insanların qəlbində, ürəyində bəşəri duyğular oyatmağa davam edir. Ona görə də Əlişir Nəvai yazdığı əsərləri ilə hər kəsin qəlbində söz abidəsi ucaltmışdır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● 2026 - "Şəhərsalma və Memarlıq İli"

# Bakı növbəti beynəlxalq tədbirə də yüksək səviyyədə evsahibliyi edəcək

**Tarix boyu şəhərlər sivilizasiyaların aynası olub. Dövlətlərin gücü, xalqların mədəni səviyyəsi, iqtisadi inkişafın miqyası, ilk növbədə, şəhərlərin simasında görünüb. XXI əsrdə isə şəhər artıq təkcə yaşayış məkanı deyil, innovasiyanın, texnologiyanın, sosial rifahın və elmi nailiyyətlərin mərkəzinə çevrilib. Məhz buna görə Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi təsadüfi deyil.**



O səbəbdən bu qərar kampaniya xarakteri daşımır. Azərbaycan artıq təkcə urbanizasiya proseslərinə reaksiya verən deyil, onu planlaşdıran və istiqamətləndirən ölkə modelini ortaya qoyur. Paytaxt Bakıda və regionlarda icra olunan kompleks infrastruktur layihələri, müasir nəqliyyat şəbəkələrinin qurulması, genişmiqyaslı yaşıllaşdırma proqramları və ictimai məkanların yenilənməsi ölkənin şəhərsalma siyasətinə sistemli yanaşmasının nəticəsidir.

Bu il Bakı növbəti dəfə qlobal tədbirə evsahibliyi etməklə dünyanın diqqət mərkəzində olacaq. BMT sisteminin ən mühüm platformalarından olan UN-Habitat tərəfindən təşkil edilən Dünya Şəhərsalma Forumunun sessiyaları miqyasına və təsir imkanlarına görə United Nations çərçivəsində keçirilən ən böyük beynəlxalq tədbirlərdəndir və şəhərlərin gələcəyinə dair qlobal siyasətin formalaşmasında mühüm rol oynayır.

Növbəti 13-cü forumun Bakıda keçirilməsinə qərarı verilməsi ölkəmizin son illər nümayiş etdirdiyi real nəticələrin beynəlxalq səviyyədə etirafıdır. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesi müasir urbanizasiya tarixində nadir nümunələrdən biri hesab olunur. Sıfırdan qurulan yaşayış məntəqələri, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, "yaşıl enerji" həlləri və dayanıqlı infrastruktur modelləri Azərbaycanın şəhərsalma sahəsində innovativ yanaşmasını nümayiş etdirir.

Martın 4-də Dünya Şəhərsalma Forumunun təşkili ilə bağlı yaradılmış Təşkilat Komitəsinin növbəti iclasında bu məsələlər bir daha diqqət mərkəzində oldu. Prezident Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev çıxışında şəhərsalmanın dövlətimizin sosial-iqtisadi siyasətində əsas prioritetlərdən biri olduğunu vurğuladı. Bildirdi ki, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması ölkənin bu sahəyə strateji münasibətinin bariz göstəricisidir. İclasda hazırlıq prosesinin substantiv, kommunikasiya və logistika istiqamətləri üzrə görülən işlər müzakirə edildi və qarşıda duran vəzifələr müəyyənləşdirildi.

Bakı artıq beynəlxalq şəhərsalma dialoqunun fəal iştirakçısına çevrilib. Son illər iqlim və urbanizasiya məsələlərinin inteqrasiyası, "yaşıl tikinti" standartlarının təşviqi, enerji səmərəliliyi və dayanıqlı mobillik sahəsində atılan addımlar Azərbaycanın qlobal çağırışlara adekvat və çevik reaksiya verdiyini göstərir. Bu siyasət yalnız paytaxtın deyil, bütün regionların bərabər inkişafını hədəfləyir.

Birmənalı şəkildə qeyd edə bilərik ki, WUF13-ün Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunu daha da möhkəmləndirəcək. Forum çərçivəsində urbanizasiya, iqlim dəyişiklikləri, sosial inklüzivlik, maliyyələşmə mexanizmləri və innovativ texnologiyalar kimi məsələlər geniş müzakirə olunacaq. Dünyanın müxtəlif ölkələrindən minlərlə nümayəndə Bakıda bir araya gələrək gələcəyin şəhərlərinin modelini müzakirə edəcək. Bu isə paytaxtımızı qlobal ideyaların və strateji qərarların formalaşdığı mühüm tribunaya çevirəcək.

Bakı bu missiyaya artıq hazırdır. Tarixi irslə müasir memarlığın harmoniyası, Xəzər sahilində formalaşan yeni urban məkanlar, yenilənmiş ictimai zonalar və ekoloji balansın qorunmasına yönəlmiş təşəbbüslər paytaxtın gələcəyə hesablanmış inkişaf konsepsiyasını əks etdirir.

"Şəhərsalma və Memarlıq İli" yalnız bir ilin adı deyil - bu, Azərbaycanın gələcək onilliklər üçün qurduğu strateji xətdir. Bakı isə bu xəttin ən parlaq simvoludur. Çünki paytaxtımız artıq təkcə regional mərkəz deyil, dünya şəhərlərinin tribunasıdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## *Lalə KƏRİMOVA:* "Ustad dərsləri şagird və müəllimlərin praktiki biliklərinin artırılmasına şərait yaradır"

**Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı və Şəki-Zaqatala Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Qəbələ şəhər Uşaq incəsənət məktəbində ustad dərsləri keçirilib.**



MEMİM-dən bildirilib ki, fortepiano ilə tar ixtisaslarını əhatə edən ustad dərslərində Qəbələ və Oğuz rayonlarında fəaliyyət göstərən musiqi və incəsənət məktəblərinin müvafiq ixtisaslar üzrə müəllim və şagirdləri iştirak edib.

Tədbirdə iştirak edən MEMİM-in şöbə müdiri Əməkdar mədəniyyət işçisi Lalə Kərimova bildirib ki, ustad dərsləri şagird və müəllimlərin müvafiq ixtisaslar üzrə nəzəri və praktiki biliklərinin artırılmasına şərait yaratmaqla yanaşı, müəllimlərin müasir tədris metodlarına yiyələnməsi baxımından da əhəmiyyətlidir.

Bildirilib ki, bu qəbildən ustad dərsləri Mədəniyyət Nazirliyi sistemindəki musiqi və incəsənət məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsinə, müəllimlərin pedaqoji fəaliyyətində səmərəliliyin artırılmasına öz töhfəsini verir.

Sonra L.Kərimova MEMİM tərəfindən tərtib olunan "Asəf Zeynallı. Seçilmiş əsərlər" kitabını məktəbin kitabxanasına hədiyyə edib.

Fortepiano ixtisası üzrə ustad dərsi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Fortepiano, orqan və klavesin kafedrasının müdiri Əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru, professor Afaq Rüstəmova, tar ixtisası üzrə ustad dərsi isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Xalq çalğı alətləri ifaçılığı kafedrasının müdiri Əməkdar müəllim, dosent Umud İbrahimov tərəfindən aparılıb.

Təcrübəli pedaqoqlar şagirdlərin çalğısı üzərindən musiqi alətinin ifa texnikası və diqqət yetirilməli məqamlardan danışıb, öz tövsiyələrini veriblər.

## Tarixi-mədəni abidələrlə bağlı mobil tətbiq hazırlanır

**"Gilavar Foto Klubu" İctimai Birliyi "İRS" mobil tətbiqinin hazırlanması layihəsinə başlayıb.**

İctimai Birlikdən verilən məlumata görə, layihə ötən il uğurla icra edilmiş "Qarabağ və Şərqi Zəngəzurun mədəni irsi və tarixi-mədəni abidələri ilə bağlı rəqəmsal platformanın yaradılması" layihəsinin davamı olaraq həyata keçirilir. Yeni mərhələdə məqsəd yaradılmış rəqəmsal bazanın funksional imkanlarını genişləndirmək, məlumatları mobil mühitə daşımaq və Azərbaycanın tarixi, mədəni və arxeoloji irsini daha əlçatan formada təqdim etməkdir.

Layihə rəhbəri Rəşad Mehdiyevin sözlərinə görə, mədəni irsin qorunması və təbliğində rəqəmsal həllərin rolu günbəgün artır: "Ötən il ərzində formalaşdırılmış platforma mədəni irs obyektlərinin sistemləşdirilməsi baxımından mühüm addım oldu. Bu il isə həmin işin davamı olaraq mobil tətbiqin hazırlanması nəzərdə tutulur. Məqsədimiz məlumat bazasını daha geniş auditoriya üçün əlçatan etmək və istifadəçilərə interaktiv imkanlar təqdim etməkdir".

Layihə çərçivəsində Azərbaycanın qərb rayonlarına ekspedisiyalar təşkil olunacaq. Səfərlər zamanı bölgələrdə yerləşən tarixi, mədəni və arxeoloji abidələrin peşəkar fotoçəkilişi aparılacaq, materiallar arxivləşdiriləcək və vahid sistemə daxil ediləcək. Toplanacaq materialların yalnız arxivləşdirilməsi deyil, eyni zamanda daxili turizmin təşviqi və maarifləndirici marşrutların formalaşdırılması baxımından istifadəsi nəzərdə tutulur. Mobil tətbiq həm yerli istifadəçilər, həm də tədqiqatçılar və turistlər üçün məlumat mənbəyi rolunu oynayacaq.




Mobil tətbiqdə məkanlar bölgələr üzrə təsnif ediləcək, hər bir obyekt haqqında qısa və dolğun məlumat, yerləşdiyi şəhər və rayon, əhəmiyyətlilik dərəcəsi, inventar nömrəsi və coğrafi koordinatlar təqdim olunacaq. Eyni zamanda fotomateriallar vahid arxiv prinsipi ilə sistemləşdiriləcək.

Gələcək mərhələdə tətbiqin ölkənin digər regionlarını da əhatə etməsi, yeni məkanların əlavə olunması və məlumat bazasının genişləndirilməsi nəzərdə tutulur.

Layihənin yekununda "İRS" mobil tətbiqinin ictimaiyyətə təqdimatı keçiriləcək.

Qeyd edək ki, "İRS" mobil tətbiqinin hazırlanması layihəsi Mədəniyyət Nazirliyinin qrant müsabiqəsi çərçivəsində icra olunur. Layihə Azərbaycanın mədəni irsinin rəqəmsal yaddaşının formalaşdırılmasına, milli-mədəni dəyərlərin qorunub saxlanılmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir.

# Böyük qayıdış: 346 nəfər Ağdam sakini doğma yurda qovuşub






Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, "Böyük qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıdışı davam edir. Martın 5-də Ağdam şəhərinə yola salınan növbəti köç karvanı ünvanına çatıb.

AZƏRTAC xəbər verir ki, Ağdam şəhərində 346 nəfərdən ibarət 90 ailəyə mənzillərin açarları təqdim edilib. Ağdama köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər. Doğma yurda qayıdışın sevincini yaşayan Ağdam şəhərinin sakinləri açarları təhvil alıb, yeni mənzillərində məskunlaşıblar.

# *Amerikalı ekspert:* "Xocalı bu gün sülh və birgəyaşayış ideallarını qorumağa çalışan şəhər kimi yenidən formalaşır"

"Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalının bərpası və onun nəqliyyat infrastrukturunun yenidən qurulması çox sürətlə irəliləyir. Azərbaycan hökuməti səmərəli və fəal iqtisadi diplomatiya siyasəti həyata keçirir və bu siyasət Qarabağın və Şərqi Zəngəzurun beynəlxalq səviyyədə geosiyasi əhəmiyyətini daha da gücləndirəcək".

Bu sözləri AZƏRTAC-a açıqlamasında beynəlxalq münasibətlər üzrə amerikalı ekspert Peter Tase söyləyib.

O bildirib ki, Xocalı bu gün həm soyqırımın ağrılı tarixini simvolizə edən, həm də xalqlar arasında sülh və birgəyaşayış ideallarını qorumağa çalışan millətin gücünü göstərən şəhər kimi yenidən formalaşır. Eyni zamanda, burada gələcəyin şəhərlərinə uyğun müasir urbanistik məkanların və inkişaf etmiş şəhər infrastrukturlarının qurulması istiqamətində böyük bir baxış formalaşdırılır.



"Azərbaycan sabitlik yayan və məqsədyönlü siyasət yürüdən bir dövlət kimi beynəlxalq səviyyədə öz mövqeyini möhkəmləndirib. Prezident İlham Əliyev ölkəni təsirli inkişaf yoluna istiqamətləndirərək iqtisadi diplomatiyanın əsas sütunlarını gücləndirən aktiv dövlət idarəçiliyi modelini formalaşdırıb. Bu kontekstdə Xocalı Azərbaycanın milli dirçəlişinin və vətənpərvərlik səylərinin zirvəsində dayanan mühüm simvollardan biri kimi ön plana çıxır", - deyə amerikalı ekspert əlavə edib.

# *Maqbat SPANOV:* "Azərbaycan Mərkəzi Asiya ilə Avropa arasında enerji körpüsü rolunu gücləndirir"

"Qazaxıstan ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq son illərdə yeni mərhələyə qədəm qoyub".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Qazaxıstanın Dünya İqtisadiyyatı və Siyasət İnstitutunun eksperti, iqtisad elmləri doktoru Maqbat Spanov söyləyib.



Ekspert bildirib ki, hazırda regionda əməkdaşlıq artıq yeni formatda - "5+1" çərçivəsində formalaşır. Bu model Mərkəzi Asiyanın beş ölkəsi ilə Azərbaycanın vahid iqtisadi məkan kimi qarşılıqlı fəaliyyətini nəzərdə tutur.

M.Spanov qeyd edib ki, bu yeni yanaşma Azərbaycanın region üçün strateji əhəmiyyətini daha da artırır: "Azərbaycan enerji resurslarının daşınması, müxtəlif tərəfdaşlarla əlaqələrin qurulması və logistika marşrutlarının inkişafı baxımından mühüm mərkəzi halqaya çevrilib".

Ekspert xatırladıb ki, uzun illər Qazaxıstandan Bakı-Ceyhan istiqamətində neft kəmərinin çəkilməsi məsələsi müzakirə edilsə də, müəyyən siyasi amillər bu layihənin reallaşmasına imkan verməyib. Bununla belə, hazırda Qazaxıstan neftinin Xəzər dənizi vasitəsilə tanker daşımaları ilə Azərbaycana çatdırılması və buradan Avropa bazarlarına nəqli həyata keçirilir.

"Bu baxımdan Azərbaycan Qazaxıstan üçün alternativ logistika marşrutlarının təmin olunmasında getdikcə daha mühüm rol oynayır", - deyə M.Spanov vurğulayıb.

Onun sözlərinə görə, iki ölkə arasında əməkdaşlıq yalnız ənənəvi enerji sahəsi ilə məhdudlaşmır. Bu tərəfdaşlıq həm də "yaşıl iqtisadiyyat", xüsusilə "yaşıl hidrogen" istehsalı kimi yeni istiqamətlərin inkişafı üçün geniş imkanlar yaradır.

Ekspert qeyd edib ki, Avropa İttifaqının qəbul etdiyi yeni ekoloji tələblər və karbon izi ilə bağlı mexanizmlər enerji ixrac edən ölkələr qarşısında yeni çağırışlar yaradır. "Bu şəraitdə Azərbaycan və Qazaxıstanın koordinasiyalı mövqeyi enerji resurslarının Avropa bazarlarına çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir", - deyə o bildirib.

M.Spanov vurğulayıb ki, Zəngəzur dəhlizinin açılması regionda iqtisadi əlaqələrin genişlənməsinə əlavə təkan verəcək. "Bu dəhlizin fəaliyyətə başlaması ilə ölkələrimiz arasında ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artacağını gözləyirik. Qarşıdakı 5-10 il ərzində Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi və enerji əməkdaşlığı daha da genişlənəcək və bu, hər iki ölkənin milli maraqlarının təmin olunmasına xidmət edəcək", - deyə o bildirib.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# *"Cənub qaz dəhlizi":* Regionun və Avropanın yeni enerji arxitekturası

"Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci iclası Azərbaycan üçün olduğu kimi, bütövlükdə region və Avropa üçün də mühüm siyasi, iqtisadi və enerji əhəmiyyətinə malikdir. Qlobal enerji bazarında baş verən dəyişikliklər, enerji təhlükəsizliyi məsələsinin dövlətlərin xarici siyasətində prioritet mövzulardan birinə çevrilməsi fonunda bu toplantı xüsusi aktuallıq kəsb edir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli siyasi ekspert Cafer Dal bildirib.

Ekspertin sözlərinə görə, son illərdə dünyada enerji bazarlarında müşahidə olunan qeyri-sabitlik, geosiyasi gərginlik və enerji təchizatında yaranan risklər alternativ və etibarlı enerji marşrutlarının əhəmiyyətini daha da artırıb. Bu baxımdan Azərbaycanın təşəbbüsü və liderliyi ilə formalaşan "Cənub qaz dəhlizi" qlobal enerji təhlükəsizliyi sistemində mühüm rol oynayan strateji layihələrdən biri kimi çıxış edir.

"Bu layihə təkcə enerji layihəsi deyil, eyni zamanda, regionda siyasi və iqtisadi əməkdaşlığı dərinləşdirən çoxşaxəli platformadır. "Cənub qaz dəhlizi" Xəzər hövzəsinin zəngin enerji resurslarını Avropa bazarlarına çatdırmaqla Avropanın enerji təchizatının şaxələndirilməsinə və enerji təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfə verir. Layihənin əsas seqmentləri olan Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Qaz Boru Kəməri (TAP) artıq uğurla fəaliyyət göstərir və Azərbaycan qazı bu kəmərlər vasitəsilə Avropa bazarlarına çatdırılır. Bu isə Azərbaycanın etibarlı enerji tərəfdaşı kimi mövqeyini daha da gücləndirir. Bakıda keçirilən nazirlərin 12-ci iclası həm də enerji əməkdaşlığının gələcək perspektivlərinin müzakirəsi baxımından mühüm platforma rolunu oynadı. İclas çərçivəsində enerji infrastrukturunun genişləndirilməsi, qaz tədarükünün artırılması və yeni tərəfdaş ölkələrin layihəyə cəlb edilməsi kimi məsələlər müzakirə olunub. Azərbaycanın enerji diplomatiyası son illərdə ciddi uğurlar əldə edib və bu siyasət ölkənin beynəlxalq nüfuzunun artmasına mühüm töhfə verir. Bu kontekstdə Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan enerji layihələri təkcə iqtisadi deyil, həm də geosiyasi baxımdan regionun strateji əhəmiyyətini artırır", - deyə Cafer Dal qeyd edib.



Ekspert əlavə edib ki, bu layihədə Türkiyənin rolu da xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, Ankara ilə Bakı arasında enerji sahəsində formalaşmış strateji tərəfdaşlıq regionun enerji xəritəsini dəyişdirən əsas amillərdən biridir: "Türkiyə həm tranzit ölkə, həm də enerji bazarı kimi "Cənub qaz dəhlizi"nin inkişafında mühüm rol oynayır və bu əməkdaşlıq iki qardaş ölkə arasında siyasi və iqtisadi münasibətləri daha da gücləndirir. Bakıda keçirilən bu iclas həm də Azərbaycanın regional enerji mərkəzi kimi rolunu möhkəmləndirir. Çünki Azərbaycan yalnız enerji resurslarının ixracatçısı deyil, eyni zamanda müxtəlif ölkələr arasında enerji əməkdaşlığını koordinasiya edən mühüm platforma kimi çıxış edir. Hazırda qlobal enerji siyasətində "yaşıl enerji" və alternativ enerji mənbələrinin inkişafı da ön plana çıxır. Azərbaycan da bu istiqamətdə fəal addımlar atır və Xəzər regionunda bərpaolunan enerji potensialının inkişafı istiqamətində mühüm layihələr həyata keçirilir. Bu isə gələcəkdə Azərbaycanın enerji strategiyasının daha da şaxələndirilməsinə imkan yaradacaq".

# Hava əsasən yağmursuz olacaq, temperatur yüksələcək

Azərbaycanda martın 6-na gözlənilən hava proqnozu açıqlanıb.



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Mülayim cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 3-6, gündüz 10-15 dərəcə isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 759 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-7, gündüz 12-17 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Nəsimi Rayon İcra Hakimiyyətinin rəhbərliyi və kollektivi rayon icra hakimiyyəti başçısı Aparatının əməkdaşı Elvin Bağırova atası

**YAŞAR BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | | |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3366
Sifariş 317
Qiyməti 60 qəpik